Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 29 (6072) 9 avqust 2024-cü il | Qiyməti 40 qəpik

# Prezident: "Fransa əsl simasını nümayiş etdirdi"



*Azərbaycan öz torpaqlarını işğaldan azad edəndən sonra Fransa əsl simasını nümayiş etdirdi.*

*Adalet.az xəbər verir ki, bunu Prezident İlham Əliyev avqustun 5-də Burkina Fasonun Azərbaycana yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vinta Somenin etimadnaməsini qəbul edərkən deyib. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa toxunan Azərbaycan Prezidenti, ilk növbədə, BMT-də, Qoşulmama Hərəkatında qarşılıqlı dəstəyin göstərilməsinin vacibliyini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın dörd il ərzində Qoşulmama Hərəkatına uğurla sədrlik etdiyini vurğulayaraq, ölkəmizin bu dövrdə xüsusi diqqət yetirdiyi mövzulardan birinin də müstəmləkəçilik, neo-müstəmləkəçilik və bununla mübarizə məsələsinin olduğunu bildirdi. Bu xüsusda Fransanın həyata keçirdiyi neo-müstəmləkəçilik siyasətinin ikrah hissi doğurduğunu qeyd edən dövlətimizin başçısı Azərbaycanın bu siyasətə qarşı öz səsini ucaltdığını və qanlı müstəmləkəçilik tarixi olan Fransanın bu gün də əsarət altında saxladığı xalqlara müstəqillik, azadlıq tələb etdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın qeyri-hökumət təşkilatlarının da bu istiqamətdə beynəlxalq qeyri-hökumət hərəkatı çərçivəsində fəal iş apardığını bildirdi.*

*Fransanın ölkəmizə qarşı qərəzli mövqeyindən danışan Prezident İlham Əliyev Azərbaycanın öz torpaqlarını işğaldan azad edəndən sonra Fransanın əsl simasını nümayiş etdirdiyini, BMT-də, Avropa İttifaqında ölkəmizə qarşı ədalətsiz şəkildə fəaliyyət həyata keçirdiyini qeyd etdi.*

## Ramil Usubov və Sergey Şoyqu regionda təhlükəsizlik məsələlərini müzakirə ediblər



**Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu Bakıya işgüzar səfəri çərçivəsində Azərbaycan Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi Ramil Usubov ilə görüşüb. Adalet.az bu barədə TASS-a istinadən xəbər verir.**

"Məsələlərin geniş spektri, o cümlədən, Cənubi Qafqazda təhlükəsizlik, 10-cu redaksiyasının İrəvana göndərildiyi Ermənistanla sülh sazişinin imzalanması, Qərbin bu prosesə aktiv müdaxilə cəhdləri müzakirə olunub", - Şoyqu Bakıda keçirilən görüşləri şərh edərkən jurnalistlərə bildirib. O, həmçinin əlavə edib ki, işgüzar səfər çərçivəsində nəqliyyat layihələri, xüsusilə, "Şimal-Cənub" dəhlizi müzakirə olunub.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev avqustun 6-da Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunu qəbul edib.

## GÜCÜN ÇATIR, GƏL AL

**ABŞ-ın 37 trilyon xarici borcu var. Bu təxminən ABŞ-ın 8-9 illik dövlət büdcəsidir.**

Amma kimin gücü çatar ki, ABŞ-dan borcunu istəsin, basıb iki gözünü bir deşikdən çıxarar. Özü dünyanın bir nömrəli vor zakonu olduğuna görə borcu olan dövlətlər onu "sxodka"ya da çağıra bilmirlər.

## Hakan Fidan: Qərb riyakarlıq edir



**ABŞ və Avropa İttifaqı başda olmaqla, Qərb ciddi riyakarlığa yol verir.**

Adalet.az xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan Bosniya və Herseqovinanın "Stav" nəşrinə müsahibəsində deyib. O, ABŞ və Avropa İttifaqı (Aİ) başda olmaqla, Qərbin ciddi riyakarlığa yol verdiyini bildirib. Nazir bunu Qərbin Ukrayna və Fələstinə fərqli münasibəti göstərməsi ilə əlaqələndirib.

**H.Fidan qeyd edib ki, Türkiyə Fələstin böhranının həlli üçün bütün diplomatik imkanlardan istifadə edəcək.**

## AÇ QAPINI, GƏLƏK SƏNİ ÖLDÜRƏK!



**Dahi Üzeyir Hacıbəyovun XX əsrin əvvəllərində yazdığı "O olmasın, bu olsun" əsərində çox maraqlı bir yer var. Qoçular yığışır Rüstəm bəyin doqqazına, Sərvər də içəridə, mahnı oxuyurlar, "aç qapını, gələk səni öldürək". Sonra da bir jandarm fıştırığı eşidən kimi hamısı qaçıb dağılır.**

İndi İranın İsraili bu gün vuracam, sabah vuracam söhbəti də ona oxşayır. Vuran oğul deməz vuraram, vurar. Amma İran deyəsən, dünyanın jandarmı olan ABŞ-ın fıştırığından qorxur.

## *DİN-dən əhaliyə xəbərdarlıq: Kiber məkanda hər bir təklif şübhəlidir*

**"Kiber məkanda hər bir təklif şübhəlidir. Bütün müdaxilələr kart sahibinin aldadılması, şirnikləndirilməsi nəticəsində baş verir".**

Adalet.az xəbər verir ki, bunu Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin rəisi, polis polkovnik-leytenantı Elşad Hacıyev deyib.

"Əgər kartda 1, 10, 45 yaxud 50000 manat varsa da fərq etməz, kart məlumatları naməlum şəxslərə verilməməlidir. Saxta linklərə daxil olma, saxta satış, saxta reklam, beh ödənişləri, saxta investisiya, saxta lotereya oyunları, karta müdaxilə, əlavə qazanc, pul köçürmələri, valyuta dəyişmələri, kriptovalyuta, təhlükəsizliyin artırılması məzmununda olan kiber tələlər vasitəsilə vətəndaşlarımızın bank kartlarından oğurluqlar edilir. Bu hallara qarşı hər bir vətəndaş diqqətli olmalıdır. Kibertəhlükəsizlik davamlı prosesdir", - E.Hacıyev qeyd edib.

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## SONUNCU POST



### (Kinossenari)

**(əvvəli qəzetin ötən saylarında)**

**Tilovları atıblar Kürə. Heç birinin tilovuna balıq düşmür. Bakılı Balasının tilovu vurur. Uşaqlar çığırışır:**

**- Çək! Çək!**

**Bakılı Balası tilovu çəkir, tilova xırda bir balıq düşüb, balığı qaytarıb atır çaya:**

**- Get valideynlərini çağır.**

**Gülüşürlər.**

**Şair isə dalbadal balıq tutur, hər dəfə də deyir:**

**- Gördüz?!**

**Komandir:**

**- Şair, niyə bizim qarmaqlara balıq düşmür, səninkinə düşür?**

**Şair:**

**- Komandir, bizim Qazax camaatı kimi balıqlarımız da yerlipərəstdi.**

**Bax:səh-4**

## GÜNÜN LƏTİFƏSİ



**Bir gün dəlixanaya qarpız gətirirlər və dəliləri çağırırlar ki, soruşsunlar bu nədir?**

Dəlilərdən biri deyir xiyardı, biri deyir limondu, biri isə deyir qarpızdı, deyirlər düzdü. Bunlar gedəndən sonra o biri dəlilər yığılır bunun başına ki, hardan bildin qarpızdı?

Dəli:

**- O, qarpız deyildi ki, yumurta idi, mən onları aldadırdım.**

# Məhkəmə Ekspertizası Şurası yaradılıb



**Məhkəmə Ekspertizası Şurasının yaradılıb. Bu barədə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncam imzalayıb.**

Sərəncamda məhkəmə ekspertizası sahəsində (bundan sonra - müvafiq sahə) dövlət idarəetməsinin və tənzimləməsinin təkmilləşdirilməsi, məhkəmə ekspertizası fəaliyyətinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, habelə müvafiq sahədə vahid standartların hazırlanması və onların tətbiqinin təşviqi, kadr potensialının gücləndirilməsi məqsədilə aşağıdakı tərkibdə məşvərətçi əsaslarla fəaliyyət göstərən Məhkəmə Ekspertizası Şurasının yaradılması qeyd olunub.

**Şuranın sədri**
Azərbaycan Respublikasının ədliyyə naziri

**Şuranın üzvləri:**
Azərbaycan Respublikası daxili işlər nazirinin müavini
Azərbaycan Respublikası müdafiə nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini
Azərbaycan Respublikası Baş prokurorunun müavini
Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyəti sədrinin müavini.

# Prezident İlham Əliyev İsmayıl Berdiyevin doğmalarına və yaxınlarına başsağlığı verib

**Prezident İlham Əliyev Şimali Qafqaz Müsəlmanları Əlaqələndirmə Mərkəzinin sədri, Qaraçay-Çərkəz Respublikasının müftisi İsmayıl Berdiyevin vəfatı ilə əlaqədar doğmalarına və yaxınlarına başsağlığı verib.**

Başsağlığında deyilir:

”Şimali Qafqaz Müsəlmanları Əlaqələndirmə Mərkəzinin sədri, Qaraçay-Çərkəz Respublikasının müftisi İsmayıl Əliyeviç Berdiyevin vəfatı ilə bağlı kədərli xəbəri dərin hüznlə qarşıladım.

Hacı İsmayıl Azərbaycanın böyük dostu idi. O, Azərbaycan ilə Rusiya arasında dostluq və mehriban qonşuluq münasibətlərinin inkişafına sanballı töhfə verib. Azərbaycan və Rusiya xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi sahəsində çoxillik məhsuldar fəaliyyətinə görə o, Azərbaycan Respublikasının ”Dostluq” ordeni ilə təltif edilib.

Hacı İsmayılın dini dözümlülük və tolerantlıq, dinlərarası və sivilizasiyalararası dialoqun dərinləşdirilməsinin inkişafı istiqamətində geniş dini fəaliyyəti ona təkcə öz ölkəsində deyil, onun hüdudlarından kənarda da dərin hörmət qazandırıb.

Hacı İsmayıl ilə görüşləri və söhbətləri, xüsusən bu ilin mayında Bakıdakı sonuncu görüşü həmişə böyük səmimiyyətlə xatırlayıram. İsmayıl Əliyeviçin nurlu xatirəsi qəlblərimizdə daim yaşayacaq.

Sizə səmimi-qəlbdən başsağlığı verir və bu ağır itki ilə əlaqədar ağrı-acınızı bölüşür, sizinlə birlikdə kədərlənirəm.

Allah rəhmət eləsin!”

# Milli Məclisdə İndoneziya-Azərbaycan əlaqələri müzakirə olunub

**Avqustun 6-da Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev ölkəmizdə səfərdə olan İndoneziya Respublikası Parlamentinin Nümayəndələr Palatasının İnzibati işlər komitəsinin sədr müavini Nasril Baharın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Adalet.az bu barədə Milli Məclisin mətbuat xidmətinə istinadən xəbər verir.

Qonaqları Milli Məclisin sədri Sahibə Qafarova adından səmimi salamlayan Aparat rəhbəri, iki ölkə arasında əlaqələrin tarixi barədə danışıb, münasibətlərin gələcək perspektivlərinə dair fikirlərini səsləndirib.

Görüş zamanı qonaqlara Milli Məclisin və onun Aparatının strukturu, qanunvericilik prosesi, partiyaların təmsilçiliyi, həmçinin parlament diplomatiyasının gücləndirilməsi sahəsində görülən işlər barədə ətraflı məlumat verilib. Aparat rəhbəri qeyd edib ki, Azərbaycan digər sahələrdə olduğu kimi, İndoneziya ilə parlamentlərarası əlaqələrin inkişaf etdirilməsində də maraqlıdır. İkitərəfli əlaqələrin inkişafında müxtəlif dövrlərdə parlament sədrlərinin, həmçinin işçi qruplarının üzvlərinin qarşılıqlı səfərlərinin, aparılan danışıqların və müntəzəm görüşlərin əhəmiyyəti vurğulanıb, iki ölkənin parlamentlərinin beynəlxalq təşkilatlardakı səmərəli əməkdaşlığından məmnuniyyət ifadə olunub.

Göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən İndoneziya Respublikası Parlamentinin Nümayəndələr Palatasının İnzibati işlər komitəsinin sədr müavini Nasril Bahar Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib. Ölkələrimiz arasında dostluq münasibətlərindən danışan qonaq, iki ölkənin qanunverici orqanları arasında əməkdaşlığın vacibliyini vurğulayıb, qarşılıqlı təcrübə mübadiləsinin və mütəmadi səfərlərin əhəmiyyətini qeyd edib.

Söhbət zamanı Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev qonaqları maraqlandıran sualları cavablandırıb, parlamentlərarası əməkdaşlığın müxtəlif istiqamətləri və gələcək inkişafı barədə fikirlərini bölüşüb.

Görüşdə Milli Məclis Aparatı rəhbərinin müavinləri Yaşar Əməşov, Rüstəm Mahmudov, Parlament Aparatının struktur bölmələrinin rəhbərləri və digər rəsmi şəxslər iştirak ediblər.

Görüşdən sonra qonaqlar parlamentin inzibati binasının foyesində yaradılmış ”Zəfər guşəsi” ilə tanış olublar. Milli Məclis Aparatı rəhbərinin müavini Rüstəm Mahmudov Azərbaycanın 44 günlük Vətən müharibəsindəki tarixi qələbəsi barədə qonaqlara ətraflı məlumat verib.

Sonra parlamentin plenar iclas zalı ilə tanış olan qonaqlara Milli Məclisin fəaliyyəti, deputatlar üçün plenar iclas zalında yaradılmış iş şəraiti, qanunvericilik prosesinin həyata keçirilməsi prosedurları haqqında geniş məlumat verilib.

Qonaqlar parlamentin inzibati binasının foyesində ucaldılmış Azərbaycan dövlətinin banisi Heydər Əliyevin abidəsinin və ”Zəfər guşəsi”nin önündə xatirə şəkli çəkdiriblər.

# "COP29 İqlim Dəyişikliyi üzrə Yay Düşərgəsi" layihəsinin açılış mərasimi olub

**ADA Universitetində gənc müəllimlər üçün ”COP29 İqlim Dəyişikliyi üzrə Yay Düşərgəsi” layihəsinin açılış mərasimi keçirilib.**

Adalet.az xəbər verir ki, ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilən tədbirdə COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, COP29-un baş danışıqçısı, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, COP29-un İqlim üzrə yüksək səviyyəli çempionu, Milli Məclisin deputatı Nigar Arpadarai, BMT-nin İnkişaf Proqramının Azərbaycandakı Rezident Nümayəndəsinin səlahiyyətlərini icra edən Alessandra Rokkasalvo, COP29-un İqlim üzrə gənclər çempionu, Qoşulmama Hərəkatı Gənclər Təşkilatının sədri Leyla Həsənova, UNICEF-in Azərbaycandakı Nümayəndəsi Saca Faruq Abdullah, eyni zamanda videoformatda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil çıxış edib.

Ekologiya və Təbii Sərvətlər, Gənclər və İdman nazirlikləri, BMT İnkişaf Proqramının Azərbaycandakı ofisi, UNICEF-in Azərbaycandakı nümayəndəliyi, ADA Universiteti, Qoşulmama Hərəkatı Gənclər Təşkilatı, UNESCO, IRENA (International Renewable Energy Agency), FEE (Foundation for Environmental Education), OCE (Office for Climate Education), Teach for All (A Global Network) -un tərəfdaşlığı və dəstəyi ilə keçirilən beynəlxalq səviyyəli düşərgədə ümumilikdə, 75 gənc müəllim iştirak edir ki, onların 54-ü xarici ölkələri, 21-i isə Azərbaycanı təmsil edir.



Avqustun 9-dək davam edəcək düşərgədə gənc müəllimlər üçün iqlim dəyişmələri və ümumilikdə COP prosesi haqqında məlumatlılığın artırılması məqsədilə silsilə təlimlər keçiriləcək. COP29-a gedən yolda müəyyən edilmiş hədəflərə nail olmaq üçün həyata keçirilən təşəbbüslərdən biri də İqlim dəyişmələri üzrə yay düşərgəsi-təlimlərin təşkilidir.

Təlimlərin keçirilməsində məqsəd iqlim dəyişmələri ilə bağlı gənc müəllimlərin maarifləndirilməsi və təhsilə inteqrasiya imkanlarının təbliqi üçün müvafiq bilik və bacarıqlarla təmin olunmasıdır.

**Xatırladaq ki, COP29-un İqlim üzrə gənclər çempionunun fəaliyyət prioritetlərindən biri iqlim fəaliyyəti ilə bağlı yerli, regional və qlobal proseslərdə gənclərin iştirakının təmin olunmasına yönəlmiş tədbirlərin həyata keçirilməsidir. İqlim dəyişmələri və bu sahədə göstərilən səylər, COP prosesi haqqında gənclərin maarifləndirilməsi təcrübəsinin genişləndirilməsi də bu fəaliyyətin vacib hissəsidir.**

# *Ombudsman:* Ermənistan hətta delimitasiyadan sonra belə öz mina terroru siyasətini davam etdirir

**Ermənistan hətta delimitasiyadan sonra belə öz mina terroru siyasətini davam etdirir, əhalinin həyat və sağlamlığına təhlükə yaradan əməllərindən əl çəkmir.**

Adalet.az-ın xəbərinə görə, bunu Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva deyib. O xatırladıb ki, bu gün Qazax rayonunun Qızılhacılı kəndində Ermənistan tərəfindən basdırılmış minanın partlaması nəticəsində xidməti vəzifələrini icra edən üç mülki şəxs və bir hərbi qulluqçu yaralanıb.

Ombudsman bildirib ki, həmin kənd Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası ilə bağlı cari il aprelin 19-da əldə olunmuş razılaşma əsasında Azərbaycana geri qaytarılıb. ”Göründüyü kimi, Ermənistan hətta delimitasiyadan sonra belə öz mina terroru siyasətini davam etdirir, əhalinin həyat və sağlamlığına təhlükə yaradan əməllərindən əl çəkmir.

Bir daha bildiririk ki, ərazilərimizdə basdırılmış minaların dəqiq xəritələrinin ölkəmizə təqdim edilməməsi keçmiş məcburi köçkünlərin öz torpaqlarına təhlükəsiz qayıdışına, sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin olunmasına, eləcə də sərhədlərin delimitasiyası prosesinə və bölgədə aparılan bərpa-quruculuq işlərinə ciddi manea törədir.

Beynəlxalq ictimaiyyət dəqiq mina xəritələrinin ölkəmizə təhvil verilməsi istiqamətində Ermənistana təsir göstərməli, bu ölkənin mina terroruna səssiz qalmamalıdır”, - S.Əliyeva qeyd edib.

# DİN: "Instagram" və "Telegram"da narkotik satışı həyata keçirən 148 səhifə bağlandı

**"Instagram" və "Telegram"-da yeni kiber üsullardan istifadə olunmaqla narkotiklərin satışını həyata keçirən 148 səhifənin bağlanması təmin edilib.**

Bu barədə Adalet.az-a DİN-dən məlumat verilib.

Son dövrlər müasir texnologiyaların sürətli inkişafı ilə bir sıra cinayətlərin ənənəvi üsullarla deyil, yeni texnoloji vasitələrdən istifadə olunmaqla törədilməsinə rast gəlinir. Xüsusilə narkotik vasitələrin qanunsuz dövriyyəsini təşkil edən transmilli şəbəkələrin cinayətkar fəaliyyətlərini kiberməkana keçirdiyi müşahidə olunmaqdadır.



Daxili İşlər Nazirliyi Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən internet resurslarında aparılan araşdırmalar nəticəsində sosial şəbəkələrdə narkotiklərin satışını həyata keçirən bir sıra səhifələr, qruplar və profillər müəyyən edilib. Qabaqlayıcı tədbirlər nəticəsində xarici ölkələrdən idarə edilən bu tipli 117 "Instagram" səhifəsinin və 31 "Telegram" kanalının bağlanması təmin edilib.

Müəyyən olunub ki, həmin səhifələrin idarəçiləri şəbəkə üzvləri arasında məlumat mübadiləsini artıq gizli kanallar və şifrəli mesajlar göndərməklə həyata keçirirlər. Bu səhifələrə ilkin baxış zamanı hər hansı qeyri-leqal fəaliyyətlə məşğul olunduğuna dair şübhələr yaranmır.

Həmin aktiv profillərin gizli fəaliyyətinin deşifrə olunması məqsədi ilə Baş İdarənin həyata keçirdiyi sonuncu tədbir zamanı sosial şəbəkə üzərindən narkotiklərin satışını təşkil edən səhifələrin bir neçəsinin adminləri 1986-cı il təvəllüdlü Fəqan Qasımov və 1982-ci il təvəllüdlü Minir Akçurin saxlanılıblar.

Onlardan narkotiklərin satışını həyata keçirdikləri sosial şəbəkə hesablarının şifrələri, mobil nömrələr, xeyli sayda bank kartları, mobil telefon və iş üçün əhəmiyyət kəsb edən digər maddi sübutlar aşkarlanıb. Saxlanılan şəxslər narkotiklərin satışından əldə edilən külli miqdarda pul vəsaitini isə kriptovalyuta və digər elektron pul kisələri vasitəsi ilə leqallaşdırıblar.

Aşkar olunan faktlarla bağlı Baş İdarədə cinayət işi başlanılıb. F.Qasımov və M.Akçurin barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Dəstənin digər üzvlərinin müəyyən olunaraq saxlanılması istiqamətində əməliyyat-texniki tədbirlər davam etdirilir.

Daxili İşlər Nazirliyi valideynlərə müraciət edərərək bildirir ki, uşaqların kibertəhlükəsizliyinin təmin olunmasının məsuliyyəti ilk növbədə onların üzərinə düşür. Övladlarınızı internetdən təhlükəsiz istifadə qaydaları barədə məlumatlandırın və onları sosial mediada rastlaşa biləcəkləri zorakılıq, kriminal fəaliyyətin təbliğ olunduğu, zərərli kontentlərin reklam edildiyi səhifə və sosial şəbəkə hesabları ilə təmas qurmaqdan çəkindirin.

# Neftin ucuzlaşması manat necə təsir edəcək?

**"Neftin dünya bazar qiymətində azalma davam edir. Brent markalı neft 2024-cü ildə ən aşağı qiymətə təklif olunur. Hazırda 1 barel neftin qiyməti 76 dollardır".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin VI çağırış deputatı, iqtisadçı Vüqar Bayramov deyib. O bildirib ki, tələbin azalması neft bazarına birbaşa təsir göstərərək volatilliyi artırıb:



"Digər tərəfdən, bu il ABŞ-da quyuların sayının azalmasına baxmayaraq neft hasilatında artımlar müşahidə edilir. Hazırda Birləşmiş Ştatlarda gündəlik neft hasilatı 13.3 milyon bareldən çoxdur. Neftin dünya bazar qiyməti Azərbaycana daxil olan valyutanın həcmi baxımından vacibdir. Azərbaycan ixracatının təxminən 80 faizini neft və neft məhsulları təşkil edir. Bu baxımdan neftin qiyməti bir tərəfdən gəlirlərimiz, digər tərəfdən ölkəyə valyutanın daxil olması baxımından əhəmiyyətlidir".

V.Bayramov qeyd edib ki, 2024-cü ilin dövlət büdcəsinə edilən dürüstləşmələrdən sonra əsas maliyyə sənədində neftin qiyməti 60 dollardan 75 dollarıdək artırılıb. Onun sözlərinə görə, hazırda dünya bazarında neftin qiyməti büdcədəki qiymətdən cüzi artıqdır: "Doğrudur, 2024-cü ilin geridə qalan ayları üzrə neftin orta qiymətini nəzərə aldıqda mövcud bazar tarazlığı fiskal gəlirlərimiz üçün risk formalaşdırmır. Amma neft ölkəyə valyuta daxil olmasına xüsusi təkan verdiyi üçün 2024-cü ildə ölkəyə daxil olan vəsaitin həcmi, eləcə də tədiyyə balansımızın vəziyyəti birbaşa neftin dünya bazarının qiymətindən asılı olacaq. Neftin qiymətinin manatın məzənnəsinə təsirlərinə gəldikdə isə Mərkəzi Bank 2024-cü il üçün pul siyasətinin əsas istiqamətləri barədə Bəyanatında da bu ildə də neft gəlirlərimizin manatın məzənnəsinə təsir edən əsas faktor olacağını vurğulayıb. Fiskal sektorun valyuta təklifi və tələbi, eləcə də iqtisadi subyektlərin məzənnə gözləntiləri valyuta bazarındakı tarazlığa təsir göstərən əsas amillər kimi qruplaşdırılsa da aydındır ki, bu indikatorlar da birbaşa enerji bazarındakı volatillikdən asılıdır. Mərkəzi Bankın məzənnə siyasəti üzrə əməliyyat hədəflərinə nail olmaq üçün valyuta bazarına zəruri hallarda müdaxilə edəcəyini bildirməsi isə ondan xəbər verir ki, enerji bazarında ciddi volatillik baş verəcəyi halda valyuta ehtiyatlarımızdan istifadə edilə bilər. Bu isə o deməkdir ki, manatın məzənnəsi yenə də birbaşa Mərkəzi Bankın mövqeyindən asılı olacaq".

# İran Rusiyadan kömək istəyib?

**İran İsrailə qarşı mümkün genişmiqyaslı müharibə kontekstində kömək üçün Rusiyaya müraciət edib və müasir hava hücumundan müdafiə sistemləri və radarları istəyib.**

Adalet.az xəbər verir ki, bu barədə "The Wall Street Journal" İran rəsmilərinə istinadən məlumat yayıb.

Ötən gün Rusiyanın keçmiş müdafiə naziri Sergey Şoyqu ölkənin yeni prezidenti Məsud Pezeşkian və İran silahlı qüvvələrinin komandanı, İsrailə qarşı hərbi zərbələrin planlaşdırılmasına rəhbərlik edən briqada generalı Məhəmməd Baqiri ilə görüşüb.

İran lideri özünün strateji tərəfdaşı kimi Rusiya Federasiyası ilə münasibətləri dərinləşdirmək əzmində olduğunu bəyan edib.

Pazeşkian iddia edir ki, İsrailin Qəzza zolağında "cinayətkar hərəkətləri" və keçən həftə Tehranda HƏMAS lideri İsmayıl Haniyənin öldürülməsi "bütün beynəlxalq qanun və qaydaların pozulmasının bariz nümunələridir".



"Çoxqütblü dünyanın təşviqində İran və Rusiyanın birgə mövqeləri, şübhəsiz ki, daha böyük qlobal təhlükəsizlik və sülhə gətirib çıxaracaq", - İran prezidenti ifadə edib. Şoyqu qeyd edib ki, Rusiya "regional məsələlərdə İranla tam əməkdaşlığa hazırdır".

İyul ayında HƏMAS lideri İsmayıl Haniyənin Tehranda öldürülməsindən sonra İran İsraildən qisas alacağına söz verib.

Avqustun 5-də media İranın İsrailə onun ərazisinə hücum qərarı ilə bağlı xəbərdarlıq etdiyini yazmışdı.

İranın İsrailə yeni hücumu əvvəlkindən qat-qat güclü ola bilər. İsrail Müdafiə Qüvvələrinin Baş Qərargahının istefada olan polkovnik-leytenantı Mark Babot deyir ki, Tehran mindən çox hava hədəfindən istifadə edə bilər.

*Səxavət Məmməd*



# Yaxın Şərq böyük müharibənin bir addımlığında

**Regionumuzu nələr gözləyir?**

**Böyük müharibələr, konfliktlər hər zaman diqqət cəlb edir. İstər-istəməz insanlar ora fokuslanır. Rusiya-Ukrayna müharibəsinin sonu necə olacaq? F-16-lar müharibənin taleyini dəyişəcək?**

**NATO baş katibi deyir ki, F-16-lar müharibənin taleyini dəyişə bilməz, ancaq bizim azərbaycanlı ekspertlərə kor tutduğunu buraxmadığı kimi, "dəyişəcək" deyib, durub. Zelenski F-16-ların təqdimat mərasimini keçirir, Putin Kiyevi şumlayır.**

**İranı birbaşa müharibəyə qoşmaq istəyirlər. Haniyənin öldürülməsindən sonra İran qisas alacağını bəyan etdi. İran telekanalları video-rolik yayımladı. İsraildə həmin gecə heç küçədə it də qalmamışdı. Bütün uçuşlar dayandırıldı, ABŞ məcbur olub əlavə 12 gəmi göndərdi. İndi də İranı lağa qoyurlar ki, raket ata bilmədi. İranın ötən dəfə atdığı raketlər nə idi? Üç ölkə birləşdi, atılan raket və göndərilən dronların hamısını vura bilmədilər.**

**Hər şey təqdimatdan asılıdır. Türkiyədən olan dostlarınızla söhbət edəndə tarixdən sual verin, Osmanlının məğlub olduğu heç bir döyüşdən xəbərləri yoxdur. "Uduzmayıbsa, Osmanlı necə dağılıb?" sualı təbii ki, açıq qalacaq. Eləcə də ABŞ. ABŞ bütün müharibələrdən qalib çıxıbmış. Vyetnamdan, ən son Əfqanıstandan qaçan kim idi? Amerikalılar jurnalistlər, ekspertlər Əfqanıstanla bağlı dövləti topa tutur, bizim azərbaycanlılar min cür bəhanə, min cür izahat verəcək. Nəticə nədir? "Taliban" hakimiyyətdədir! İraqda İran diqtə edici gücdür! Proseslərə bir pəncərədən baxaraq, heç vaxt real qiymət vermək olmaz.**

**Demək, dünya müharibəyə hazırlaşır, İran müharibə astanasındadır, Ermənistan silahlandırılır. Təbii ki, bunlara diqqət ayırmamaq olmaz. Gəlirsən öz ölkənə baxırsan, ara qarışıb, məzhəb itib. Növbədənkənar parlament seçkiləri keçiriləcək. Ölkədə deputat anlayışı, deputatlıq institutu o qədər aşağı düşüb ki, birmənalı olaraq hamı özü haqqında "deputat ola bilərəm", düşüncəsindədir. Biri var, güc- bəla ilə namizədlik verməyinin qarışısını aldıq. İki cümləni arxa-arxaya qoşub, deyə bilmir. Deyir, deputat olacam. Başa salırsan ki, səndən deputat olmaz. Nəinki danışa bilmirsən, danışanda da ağzının danışığını bilmirsən, deyir, susacam. Görünüb, deputat bəyanat verər, deputat proseslərə təsir edər, gündəm yaradar, gündəm dəyişər. Bizdə deputat ancaq gündəm olur, gündəmi dəyişəndə də söyüş obyektinə çevrilir.**

**4 hərbçimizin həlak olduğu "İstisu"nun üzərini bağlayıblar. Yüz illərdir azərbaycanlılar çimirdi orada zəhərlənmirdi, 30 il ermənilər çimdi zəhərlənmədi, ancaq 4 hərbçimiz çimib zəhərləndi. Bir az poetik yazım, "İstisu" göylərə dəmir "reşotkalar" arxasından baxır. Müharibələri təhlil edən, analizlər verən, beyni çönəndə Ermənistanı hədələyən hərbi ekspertlərimiz nədənsə heç sual vermədilər ki, bu hadisə nizam-intizam pozuntusu ilə bağlı ola bilər? Quru qoşunlarından telefonoqram gəlir ki, yay aylarında bu saatdan bu saata qədər əsgərlərin çöldə olmamalıdır. Bəzi komandirlər buna məhəl qoymur. Bunun səbəbləri nədir? Sabiq Baş Qərargah rəisi Nəcməddin Sadıkov ordudan gedəndə saysız-hesabsız problemlər vardı. Yeni Baş Qərargah rəisi Kərim Vəliyev neçə faizini həll edə bilib? Sabiq Quru Qoşunları Komandanı Ənvər Əfəndiyevin vaxtında çoxlu sayda problemlər yeni Quru Qoşunları Komandanı Hikmət Mirzəyev nə qədərini həll edib? Deyənlər olacaq ki, Hikmət Mirzəyevin adını çəkmək olmaz. Niyə? Çünki Vətən Müharibəsi zamanı xidmətləri danılmazdır. Bunu heç kim inkar etmir. Deyənlər olacaq ki, yaxşı komandir olub, Xüsusi Təyinatlı Qüvvələr onun sayəsində bu həddə gəlib çatıb. Bunu da heç kim inkar etmir. Ancaq indi Quru Qoşunları komandanıdır! Mənim üçün yaxşı və pis anlayışı fədakarlıq zamanı ortaya çıxır. Kimsə vəzifə borcunu yerinə yetirirsə, o, yaxşı deyil, ola bilməz. Ancaq qınamıram, o qədər vəzifə borcunu yerinə yetirməyənlər görmüşük ki, yerinə yetirənə yaxşı deyirik, fədakarlıq edənə, daha çoxunu həyata keçirənə yox!**

**Deyənlər olacaq ki, işin-gücün yoxdur da, günahkar tapılıb, su dəmir barmaqlıqlar arasına atılıb, nizam-intizam sənə qalıb? Düz sözə nə deyəsən...**

**Pafos, populizim, boşboğazlıq, riyakarlıq, yaltaqlıq alın yazısına çevrilib. Ölkə rəhbərliyi təhdidlərdən danışır, xüsusilə xaricdən gələn təhlükədən bəhs edir, region dövlətləri müharibə hazırlığı içərisindədir, mikrafon uzadılanlarımız isə baş altına yastıq qoymaqla məşğuldur.**

**Dünənə qədər (müsəlmanın dünəni - S.M) 4 kənd qaytarılana qədər kəndlər dəyişdirilə bilər, artıq müharibə yox, sülh şəraitində yaşamağı düşünməliyik deyən adamlar, yenə erməniləri hədə-qorxu gəlir, sülh sözünü işlədənləri hədəf alır. Deyirlər, düz əyrini kəsir, burda əyrilər düzü əymək üçün əlləşir.**

**AQİL ABBAS**

# SONUNCU POST

## (Kinossenari)

(əvvəli qəzetin ötən saylarında)

Tilovları atıblar Kürə. Heç birinin tilovuna balıq düşmür. Bakılı Balasının tilovu vurur. Uşaqlar çığırışır:

- Çək! Çək!

Bakılı Balası tilovu çəkir, tilova xırda bir balıq düşüb, balığı qaytarıb atır çaya:

- Get valideynlərini çağır.

Gülüşürlər.

Şair isə dalbadal balıq tutur, hər dəfə də deyir:

- Gördüz?!

Komandir:

- Şair, niyə bizim qarmaqlara balıq düşmür, səninkinə düşür?

Şair:

- Komandir, bizim Qazax camaatı kimi balıqlarımız da yerlipərəstdi.

Dağlaroğlu:

- Şair, mən ölüm Füzuli necə şairdi?

Şair:

- Heyf Qazaxda doğulmayıb, yoxsa çox böyük şair olardı. Heç olmasa gül kimi Ağstafada doğulsaydı!

Yenə gülüşürlər.

Bakılı Balası:

- Komandir, o gecə sən olmasaydın hamımız qırılmışdıq.

Şair:

- Komandir, sən o ermənini yemək-içməyə dəyişməyəndə, az qalmışdı səni atam. İndi başa düşürəm ki, düz elədin.

Bakılı Balası:

- Komandir, Allah haqqı, sən ki öz tikəni erməni ilə böldün ey, sən bölməsəydin mən böləcəkdim.

Dağlaroğlu:

- Komandir, deyirəm Allah erməninin içindəki nifrətdən bir az bizə niyə verməyib ey?!

Komandir:

- Onda, day biz də azərbaycanlı olmazdıq də, elə onlar kimi bir şey olardıq!

Şair:

- Bu Qara harda qaldı ey, gəlib çıxmadı...

***

... Məkan dəyişir. Bizim post. Komandir hələ Şairi silkələyir:

- Şair! Şair!..

Sonra Şairi buraxıb yapışır Bakılı Balasından:

- Qədeş! Qədeş! Dur qədeş! Sənə demədim yatma?!

Bakılı Balasından səs çıxmır. Komandir bütün gücü ilə onu ayıltmağa çalışır.

- Ölmə Qədeş! Ölmə! Bizimkilər gəlir! Odur ey! Eşitmirsən?! Bizim mayordu! Gözünü aç! Ölmə, sənə qurban olum, ölmə! Ölmə qədeş! Odur ey gəldilər!

Nə qədər çalışır, bir şey alınmır, hönkürür. Sonra onu buraxıb başlayır Qaranı silləməyə, bir, iki, üç...

Qara zarıyır...

Komandir Qaranın başını sıxır sinəsinə. Donmaqda olan erməni də udquna-udquna baxır.

Komandir:

- Ağla! Sənə qurban olum! Ağla! Amma yatma! Bax, gün çıxıb ey! Bax! Bizimkilər gəlir ey!

Erməni də başlayır ağlamağa.

Komandir için-için ağlayan erməniyə baxır. Bir tərəfdən qorxu, bir tərəfdən şaxta, sifətində qan qalmayıb, meyid rəngindədi. Qara yaşda olar, elə Qara kimi də qaraqaş, qaragözdü. Amma gözləri ölü gözləri kimi donub. Komandir onun hələ ölməmişdən qabaq ölmüş gözlərinə baxır, qucağında can verməkdə olan Qaraya baxır, dodağını necə dişləyirsə, dodağından qan şoralanır, amma hiss eləmir...

***

... Məkan dəyişir. (Komandirin gözünün qabağına gəlir). Əsir erməni evlərinə qayıdır. Anası, bacısı boynuna sarılır. Bir qız kənardan sevgi ilə ona baxır. Balaca bacısı yüyürüb onun ayaqlarını qucaqlayır. Çəpərdən bir qız oğrun-oğrun ona baxır. Qoca nənəsi xaç çevirir...

***

... Məkan dəyişir. Komandir qucağındakı Qaraya baxır, için-için ağlayan erməniyə baxır, donmuş uşaqlara baxır, gözlərini yumub bir az fikrə gedir və nəhayət üzünü erməniyə tutub dillənir:

- Ne plaç, şandığa! Vstavay!

Erməni əlinin dalı ilə burnunu silib yazıq-yazıq Komandirə baxır.

- Vstavay, ya skazal!

Erməni qorxa-qorxa qalxır.

Komandir ermənilərin postunu göstərib deyir:

- İdi k svoim!

Erməni titrəyə-titrəyə:

- Vı çto skazali?

- İdi k svoim. İdi, itoğlu! Jivi sebe!

Erməni:

- Tı menya otpuskayeş?

- İdi də, ya skazal! İdi k mame!

Erməni öz postlarına baxır, Komandirə baxır, yavaş-yavaş səngərdən çıxır, postlarına tərəf getməyə başlayır, dayanır, geri qayıdır.

Komandir:

- Zaçem vernulsya?

Erməni əynindəki kürkü çıxarıb verir Komandirə, sonra onu qucaqlayıb öpür və yenidən səngərdən çıxır.

Komandirin üzündə qəribə bir təbəssüm, gedən ermənininin dalınca baxır və mənalı-mənalı başını bulayır, qalxıb kürkü geyinir. Sonra donmuş uşaqlara baxır, nə fikirləşirsə onların kürklərini, ayaqqabılarını çıxarır, yenidən ocaq qalayır. Qaranı çəkir ocağın qırağına. İsti yavaş-yavaş Qaranı özünə gətirir.

Qara:

- Komandir, uşaqlar necədi?

- Hamısı yaxşıdı! Çalış yatma, danış! Nə istəyirsən, danış, təki danış! Səhərə az qalıb, lap az. Ratsiya ilə dedilər ki, çatırıq.

- Ratsiya işləmirdi, axı?

- Bakılı Balası düzəltdi.

Ocaq yavaş-yavaş sönür. Qara Komandirin qucağında.

Komandir:

- Qara, eşidirsən?

Qara çox zəif səslə:

- Eşidirəm.

Komandir:

- Qara, müharibədən sonra səni aparacam Moskvaya, Nataşaları yığacam nömrəyə. Səhərədək hamısının kefin gör. Qara, bir dəfə bir urus qızın apardım saunaya... Sən heç saunada olmusan?..

Qara daha eşitmirdi, son nəfəsini alırdı, Komandir nə qədər silkələyir, görür xeyri yoxdu, bağırır:

- Qoymaram öləsən!

Sonra tapançanı çıxarır və Qaranın qılçına bir güllə vurur.

Qara bağırır.

... Məkan dəyişir. Erməni postu. Arsen sitildəyə-sitildəyə öz postlarına girir. Ermənilər çaşır. Hamısı birdən (ermənicə danışırlar):

- Qaçdın?

Arsen (dili zorla söz tutur, dişləri bir-birinə dəyir):

- Yooox! Ööözləri buuuraxdıılar!

Zabit:

- Nə axmaq-axmaq danışırsan?! Necə yəni buraxdılar?

- Buburaxdılar də! Məəən nə bilim ni-ni-niyə buburaxdılar. Komamandirləri dedi ki, ge-ge-geget yaşa!

Zabit:

- Nə dedi?

- Dededi, ge-ge-get yaşa.

Əsgərlərdən biri:

- Komandir, nə istintaqa çəkmisən? Görmürsən ölür? Qoy bir özünə gəlsin, sonra nə istəyirsən soruşarsan.

Stəkana bir az tut arağı töküb verirlər Arsenə, çəkir

başına, çeçəyir. Onu soyundurub araqla ovurlar. Sonra onu möhkəm-möhkəm geyindirirlər...

***

... Məkan dəyişir. Bizim post. Qara zarıyır:

- Komandir, məni vurdular?

Komandir:

- Yenə atdılar, it uşağı!

- Uşaqlara da dəydi?

- Yox, bir balaca sənin qılçını yaladı.

- Yaman ağrıyır, Komandir.

- Qorxma, indi sarıyacam.

Bıçaqla Qaranın şalvarını həmin yerdən cırır, qan buğlanır. Komandir buğlanan qanı görüb sevinir. Dəsmalını çıxarıb yandırır və basır yaranın üstə, sonra möhkəm-möhkəm sarıyır.

Qara:

- Komandir, ağrı məni öldürür.

Komandir:

- Sənin o ağrını yeyim!

Qara Komandirin qucağında zarıyır. Komandirin gözlərindən axan yaş yanaqlarında donmaqdadı, nəfəsi kəsilə-kəsilə danışır:

- Qara, səni aparacam Moskvaya...

***

... Məkan dəyişir. Göydə ulduzlar sayrışır. Komandir girir həyətə. Alabaş qaçır üstünə. Əvvəl-əvvəl üzünü Komandirin ayaqlarına sürtür. Sonra dal ayaqları üstə qalxır, qabaq ayaqlarını qoyur Komandirin sinəsnə, onun üz-gözünü yalamağa başlayır. Komandir Alabaşı sinəsinə sıxır, başını tumarlayır.

- Darıxmısan məndən ötəri?

Alabaş zingildəyir.

Komandir qalxır eyvana. Hamı yatıb. Girir otağa. Anası həmişəki kimi üzü qibləyə yatıb. Barmaqlarının ucunda yeriyir ki, heç kimi oyatmasın. Körpələr Evin yuxarı başında yerdə yatıblar.

Ehmalca soyunub girir körpələrin yanına, əllərini onların başlarının altına salıb sıxır sinəsinə. Körpələr də əvvəl-əvvəl onu qucaqlayırlar. Komandir onları daha bərk sıxır sinəsinə, uşaqlar ayılırlar və özlərini atalarının qucağında görüb sevinclə qışqırırlar:

- Ata gəldi! Ata gəldi!

Səsə Komandirin xanımı da, Anası da hövlnak yuxudan oyanırlar.

Uşaqlar qışqırışırlar:

- Ata gəldi! Ata gəldi!

Xanım cəld tərpənib işığı yandırır, Ana da təəccüblə uşaqlara baxır, ikisin də qucaqlayır:

- Bismillah! Bismillah! - üzünü tutur Xanıma: - Qorxma! Yuxu görüblər, su gətir.

Uşaqlar atalarını yanlarında görməyib başlayırlar ağlamağa.

Komandir yenə uşaqları sıxır sinəsinə:

- Haycan! Sizə atanız qurban! Burdayam, niyə ağlayırsız?-

sonra anasını qucaqlayır:- Ana, məni görmürsən...

***

... Məkan dəyişir. Erməni postu. Arsen özünə gəlib...

Zabit:

- İndi danış görüm necə oldu?

Arsen:

- Bilmirəm, dedim də! Komandirləri dedi get yaşa! Vəssalam.

Zabit:

- Nə boş-boş danışırsan?! O donan ituşaqlarına o qədər şey verirdim, yanacaq verirdim səni buraxsınlar, buraxmadılar. İndi elə-belə, boş-boşuna dedilər get?

- Bir sözü nə qədər deyim, ey! Türkcə sən bilirsən, get özün soruş niyə buraxmısan?!

Əsgərlərdən biri istehza ilə:

- Demirdin bir məktəbdə oxumusuz?! Yəqin sənin xətrinə buraxıb.

Zabit:

- Yaxşı, boş-boş danışmayın. Buna yemək verin.

Arsenə yemək verirlər, amma o, əlini yeməyə uzatmır.

Zabit:

- Niyə yemirsən?

Arsen:

- Komandir?

- Nədi?

- Bir söz demək istəyirəm, qorxuram.

- De.

- Qorxuram.

- Dedim ki, de! Qorxma!

- Məni döyməyəcəksən?

- Baxır sözə.

Arsen qorxa-qorxa:

- Komandir, onların yeməyə heç nələri yoxdu. İcazə ver bir az yemək aparım, bir az da spirt.

Zabit:

- Qələt eləmə, çörəyini ye!

Arsen yenə əlini yeməyə uzatmır:

- Komandir, özün verirdin ki!

- Onda sən onların əlindəydin.

- Ver aparım, axı siz nə vaxtsa çörək kəsmisiz! Yalvarıram, Komandir! Allah göydən baxır!

Zabit:

- Allahla işin olmasın. Allah göydən baxsa, hamımız öz xarabamızda - balalarımızın yanında olardıq, bu dağlarda qırılmazdıq.

Amma Arsen yemir, ağlayır.

Zabit:

- Bəlkə sənin anan türklə yatıb?

Əsgərlərdən biri Arsenii qucaqlayır və deyir:

- Lazım deyil, Komandir! Vermirsən vermə, daha təhqir niyə edirsən? Türklər kişilik edib onun həyatını bağışlayıblar, o da borclu qalmaq istəmir.

Zabit:

- Komandirə qarşı çıxırsız?

Əsgərlər:

- Komandir, sənə qarşı çıxmırıq, amma Arseni də başa düşürük.

Zabit bir xeyli susur, bir siqaret yandırır, diqqətlə əsgərlərə, sonra Arsenə baxır. Arsen başını alıb əllərinin arasına.

Zabit:

- Gör türklərə qarşı mən kimlərlə vuruşuram ey?! - üzünü Arsenə tutur; - Yaxşı, zarıma, dur nə istəyirsən apar... Sənin ananı...

***

... Məkan dəyişir. Mayor, kürəyində ərzaq dolu çanta dağa dırmaşır. Nəsə hiss edib geri çevrilir, arxasınca bir çavuş və bir neçə əsgərin gəldiyini görür, dayanır:

- Dayanın! Siz hara gəlirsiniz?

Çavuş:

- Yoldaş mayor, sizi tək buraxmaq istəmirik.

Mayor:

- Qayıdın geri! İndi də sizin dərdinizi çəkim.

Çavuş:

- Yoldaş mayor, onları biz əvəzləməliydik. Gedirik postu təhvil götürməyə.

Mayor:

- Mən sizə əmr edirəm!

Çavuş:

- Bağışlayın, yoldaş mayor, nə mən, nə əsgərlərim əmri yerinə yetirə bilməyəcəyik. Ya bir yerdə öləcəyik, ya da bir yerdə dönəcəyik.

Mayor:

- Bu dəfə əmr etmirəm, xahiş edirəm, qayıdın, yolda donub qırıla bilərsiz.

Çavuş:

- Yoldaş mayor, biz onlardan artıq oğlan deyilik.

Mayor:

- Mən həyatımda belə xoşbəxt olmamışdım! Gedək! Amma bir-birinizdən aralanmayın...

***

... Məkan dəyişir. Qərargah. Polkovnikin başı əllərinin arasında. Telefon zəngi. Polkovnik dəstəyi qaldırır:

- Eşidirəm! Bəli! Yox, heç bir məlumat yoxdur. Kömək göndərmək mümkün deyil. Hamısı yolda qırılar. Səhəri gözləyirik. Allah bizim tərəfimizdə deyil. Acizəm. Mənə bu paqonlar lazım deyil, dədəm-babam paqon gəzdirməyib ha! O əsgərlərimə bir şey olmasın, bəsimdi!

... Məkan dəyişir. Arsen qara bata-bata yuxarı dırmaşır. Posta çatır və bərkdən bağırır:

- Ey, Komandir! Komandir! Eta ya! Ya, Arsen! Arsen!

Qarşıdan səs gəlmir, Arsen yenə bağırır:

- Komandir! Komandir! Rebyata! Eta ya! Arsen!

Qarşıdan səs gəlmir. Arsen bir az da yaxınlaşır və girir səngərə. Əvvəl-əvvəl elə bilir hamısı yatıb. Yaxınlaşır Komandirə. Qara Komandirin qucağındadı, Komandiri silkələyir:

- Komandir! Komandir! Eta ya, Arsen. Slışış menya? Ya Arsen! Ya vam yedu prinyos! Slışış, Komandir?

Komandirin səsi gəlmir, o donub. Arsen indi başa düşür onun donduğunu. Komandiri qucaqlayıb başlayır ağlamağa və deyir (ermənicə):

- Komandir! Niyə öldün, Komandir?! Niyə öldün?! Allah səni yox, insanlığı öldürdü!

Ağlaya-ağlaya bütün uşaqları silkələyir, hamısı donub. Yenidən Komandiri qucaqlayır. Birdən kimsə zarıyır, bu Qaradı. Arsen tez Qaranın üz-gözünü təmizləyir, sinəsini açır, ürəyinə qulaq asır. Tez gətirdiyi çantadan spirt çıxarır, əvvəlcə spirtlə onun burnunun içini təmizləyir, sonra boyun-boğazın, sinəsini spirtlə masaj edir. Qara yavaş-yavaş özünə gəlir, amma heç nə anlaya bilmir. Arsen Qaranın başını qaldırıb zorla spirt içirtmək istəyir, Qara içə bilmir. Arsen onun boğazına spirt tökür. Qara çeçiyir, amma artıq spirt işini görür. Qara ağır-ağır nəfəs alır. Arsen gücbəla ilə ona bir az sala yedizdirir.

Qara birtəhər deyir:

- Komandiir, sənsəən?

Arsen cavab vermir. Komandirin kürkünü çıxarıb sərir yerə, Qaranı uzadır üstə, öz kürkünü də soyunub basdırır Qaranın üstə.

Arsen sonra yenə Komandiri qucaqlayır, başını sinəsinə sıxıb deyir (ermənicə):

- Komandir, mən səni heç vaxt unutmayacam!

Diz çökür Komandirin önündə, xaç çevirir:

- Komandir, sən peyğəmbər kimi adamsan!

***

... Məkan dəyişir. Erməni postu. Arsen çatır posta.

Zabit:

- Nə oldu? Hələ ölməyiblər?

Arsen tərs-tərs onu süzür:

- Yox! Yemək-içməyə görə sənə sağ ol dedilər.

***

... Məkan dəyişir. Gün çıxıb. Mayor əsgərlərlə postdadı, uşaqları yoxlayırlar, hamısı donub. Mayor Komandiri qucaqlayıb oturub, donmuş əsgərlərə baxır.

Birdən zarıltı səsi gəlir, çaşırlar. Özlərini Qaranın üstünə atırlar, Qara tərpənir.

Əsgərlər:

- Yoldaş mayor! Yoldaş mayor! Qara sağdı.

Mayor tez Qaranı qaldırmağa çalışır:

- Kömək edin soyunduraq. Naşatır gətirin!

Qaranın burnuna naşatır tuturlar. Qara asqırır.

Əsgərlər bir ağızdan hayqırırlar:

- Urra! Urra! Urra!

... Məkan dəyişir. Erməni postu. Zabit durbinlə baxır, "Urra" sədalarını eşidib dilxor olur:

- Ölməyiblər ituşaqları!

Əsgərlərdən biri:

- Komandir, demədim, Allah qoysa de!

Arsen gözlərini yumub dərindən nəfəs alır, üzündə gizli bir sevinc var...

***

... Məkan dəyişir. Bizim post. Zirvədə Azərbaycan bayrağı dalğalanır. Möhtəşəm bayraq!

SON!



Rüstəm Hacıyev

## Zelenski münaqişənin bitməsini istəyir?

*Ukraynanının prezidenti Volodimir Zelenski bəyan edib ki, ölkəsinin məqsədi münaqişənin sona çatdırılmasıdır. Bu barədə o, X sosial səhifəsində yazıb.*

*"Bizim dəyişməz məqsədimiz, elə bu ilin sonunadək münaqişəni ədalətli əsaslarla bitirməkdir"- deyə Zelenski bildirir.*

*Son vaxtlar Ukraynada Rusiya ilə danışıqlara başlamaqla bağlı daha çox danışmağa başlayıblar. Elə bu yaxınlarda Zelenski bildirmişdi ki, Kiyev Moskva ilə danışıqlara başlamaq üçün ikinci sülh konfransına təkliflər hazırlayıb. Ukrayna prezidenti qeyd edib ki, Ukrayna münaqişənin bitməsini istəyirsə, mütləq danışıqlara getməlidir.*

*Əslində, bütün müharubələr, münaqişələr sonda danışıqlar masasında həll olunmalıdır. Lakin Rusiya-Ukrayna münaqışəsinin hazırki durumu hələ ki, danışıqlar masasına oturmağa imkan vermir. Tərəflər məsələnin sülh yolu ilə həll olunması üçün qəbuledilməz şərtlər irəli sürürlər.*

*Münaqişənin ədalətli həlli ilə bağlı Ukrayna və Rusiyanın arzuları bir birinə tərs mütanasibdir. Ukrayna yalnız işğal olunmuş ərazilərdən rus qoşunlarının çıxarılması, ərazi bütövlüyünün bərpa olunması və bundan sonra danışıqlar masasına otura biləcəkləri şərtlərini irəli sürür. Moskva isə, tam əksinə, işğal etdiyi və artıq rəsmi olaraq Rusiyaya birləşdirdiyi, Krım, Donetsk, Luqansk, Xerson və Zaparojye vilayətlərinin, Rusiyanın əraziləri kimi tanınmasını və Ukraynanın NATO-dan imtina etməsi şərtlərini irəli sürür.*

*Bu şərtlərlə sülh danlşıqlarına getməyin mümkün olacağı inandırıcı görünmür. Tərəflər sülh istəyirlərsə, mütləq kompromisə getmək variantları üzərində işləməlidirlər. Lakin hələ ki, hər hansı bir tərəfdən kompromis təklifləR irəli sürülməyib.*

*Ümumiyyətlə, son vaxtlar bu ilin sonunadək bu münaqişənin həll olunacağı ilə bağlı xəbərlər yayılmaqdadır. Sadəcə olaraq bu münaqişənin hansı şərtlərlə həll olunacağı barədə isə heç bir məlumat verilmir.*

*Kremlin rəsmi nümayəndəsi Dmitri Peskov bəyan edib ki, Moskva Kiyev rejiminə inanmır. Rusiya XİN-nin sözçüsü Mariya Zaxarova da, qeyd edir ki, Zelenskinin bəyanatı noyabrda Donald Trampın ABŞ prezidenti seçilməsinin mümkünliyi ilə bağlı ola bilər.*

*2022-ci ilin fevral ayının 22-dən Rusiyanın Ukraynaya hücumu ilə başlayan müharibə isə, öz qanlı axarl ilə davam etməkdədir.*

## Olmayan qurumun "əməkdaşları" sahibkarlıq subyektlərində yoxlamalar keçirir

**Səhiyyə Nazirliyinin təsdiq olunan Əsasnaməsinə uyğun olaraq respublika üzrə yoluxucu xəstəliklərin profilaktikası sahəsində dezinfeksiya tədbirləri (profilaktik və ocaqlı dezinfeksiya) nazirliyin Respublika Gigiyena və Epidemiologiya Mərkəzi, onun Bakı Şəhər Dezinfeksiya rayon gigiyena və epidemiologiya mərkəzləri, rayon/şəhər dezinfeksiya idarələri tərəfindən həyata keçirilir.**

Bu barədə Adalet.az-a Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzindən bildirilib. Məlumata görə, lakin son zamanlar Bakı şəhərinin bir sıra rayonlarında özlərini Səhiyyə Nazirliyinin "Azərbaycan Respublikası Gigiyena və Sanitariya Xidməti İdarəsi"nin əməkdaşları kimi təqdim edən bəzi şəxslər tərəfindən sahibkarlıq subyektlərində yoxlamaların və əsassız dezinfeksiya işlərinin aparılması, sanitar-gigiyena qaydalarının pozulmasına görə cərimə edilməsi təhdidləri kimi neqativ hallara rast gəlinir.

Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzi qeyd edib ki, Səhiyyə Nazirliyinin tabeliyində "Azərbaycan Respublikası Gigiyena və Sanitariya Xidməti İdarəsi" adlı qurum mövcud deyil və o qurumun təqdim etdiyi blanklarda nazirliyin adından əsassız şəkildə istifadə edilir.

Ölkə ərazisində fəaliyyət göstərən sahibkarlıq subyektlərində yoxlamaların aparılması Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilən 02.07.2013-cü il tarixli "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununla tənzimlənir. Belə ki, bu qanuna əsasən yoxlamalar yalnız Ədliyyə Nazirliyinin müvafiq icazə sənədi əsasında aparıla bilər.

"Qeyd olunanları nəzərə alaraq, fərdi sahibkarlar və sahibkarlıq subyektlərinin rəhbərlərinin nəzərinə çatdırırıq ki, yoxlama aparmaq üçün müvafiq icazəsi olmayan və özünü Səhiyyə Nazirliyinin qurumlarının əməkdaşları kimi təqdim edən şəxslər və belə neqativ hallara rastlaşdıqda nazirliyin 9103, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin (012) 421 13 93 nömrəli qaynar xətlərinə, eləcə də hüquq-mühafizə orqanlarına müraciət edilməlidir", - deyə Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin məlumatında bildirilib..

## Rəsmi Bakıdan Toivo Klaarın iddialarına cavab



**Avropa İttifaqının Cənubi Qafqaz üzrə keçmiş xüsusi nümayəndəsi, Avropa İttifaqının Özbəkistandakı səfiri təyin edilmiş Toivo Klaarın Azərbaycanın Qarabağ bölgəsindən könüllü əsasda Ermənistana və əvvəllər yaşadıqları digər ölkələrə miqrasiya etmiş ermənilərin qayıtması məsələsini xüsusi hal kimi nəzərdən keçirməsi, indiki Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanlıların qayıdış hüququnu şərtləndirməsi qəbuledilməzdir. Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz doğma torpaqlarına geri dönməsi üçün müvafiq şərait yaradılması Ermənistanın öhdəliyidir və beynəlxalq ictimaiyyət bu öhdəliyin yerinə yetirilməsini tələb etməlidir.**

Adalet.az xəbər verir ki, bunu Xarici işlər Nazirliyinin mətbuat katibinin müavini Vasif Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə keçmiş xüsusi nümayəndəsi Toivo Klaarın ölkəmiz ilə bağlı verdiyi müsahibədə yer alan bəzi iddialara dair medianın sualına cavabında deyib.

"Azərbaycan tərəfinin dəfələrlə erməni sakinlərin öz evlərində qalması və onların geri qayıtması üçün müraciətlər etməsinə baxmayaraq, ermənilərin suveren Azərbaycan ərazilərinə geri dönmək niyyətində olmadığı səfir təyin edilmiş Toivo Klaara yaxşı məlumdur. Bu xüsusda, Azərbaycan tərəfi yalnız ölkəmizin ərazi bütövlüyü və suverenliyinə hörmət edən erməni əsilli şəxslərin Azərbaycana qayıtması niyyətinə hörmətlə yanaşır. Vəzifədən gedən ərəfədə səlahiyyətlərinə aid olmadan bu kimi qərəzli açıqlamalar verməsi ilk növbədə Aİ rəsmisinin təmsil etdiyi qurumun reputasiyasına vurduğu növbəti zərbədir", - o qeyd edib.

## ABŞ-dan Türkiyəyə xəbərdarlıq

**Vaşinqton Türkiyəyə xəbərdarlıq edib ki, əgər ölkə Rusiyaya Ukraynada apardığı müharibə üçün həyati əhəmiyyət kəsb edən ABŞ-a aid hərbi texnikanın ixracını məhdudlaşdırmasa, bunun Türkiyə üçün nəticələri olacaq.**

Adalet.az xəbər verir ki, bu barədə "Financial Times" yazıb..

Xəbərə görə, ABŞ-ın ticarət katibinin köməkçisi Metyu Akselrod qeyri-qanuni ticarəti dayandırmaq səyləri çərçivəsində bu yaxınlarda Ankara və İstanbulda hökumət rəsmiləri ilə görüşüb. Ticarət departamentinin yüksək rütbəli rəsmisinin sözlərinə görə, onun mesajı ondan ibarət olub ki, Türkiyə Amerika mənşəli çiplər və Moskvanın Ukraynadakı müharibəsində əsas rol oynayan digər hissələrin ticarətini məhdudlaşdırmaq üçün daha çox çalışmalıdır.

"Türkiyə bizə ABŞ texnologiyalarının Rusiyaya qeyri-qanuni axınının qarşısını almağa kömək etməsi üçün lazımdır. Türkiyə səlahiyyətliləri və sənayesi tərəfindən sürətli irəliləyiş görməliyik, əks halda ixrac nəzarətimizdən yayınanlara qarşı nəticələr tətbiq etməkdən başqa çarəmiz qalmayacaq", o, "Financial Times"ə açıqlamasında deyib.

Qeyd olunub ki, Vaşinqtonun xəbərdarlığı Türkiyənin Rusiya ilə ticarət əlaqələrini saxlamaq qərarının iki NATO müttəfiqi arasında münasibətləri necə korladığının son əlamətidir.

"ABŞ, Aİ və digər Qərb tərəfdaşları 2022-ci ildə Rusiyanın Ukraynaya qarşı tam miqyaslı işğalçı müharibəyə başlamasından bəri Rusiyaya qarşı geniş sanksiyalar tətbiq edib, lakin Türkiyə bu sanksiyakara qoşulmayıb. ABŞ Türkiyənin Qərb istehsalı olan elektronikanın, o cümlədən prosessorlar, yaddaş kartları və gücləndiricilərin ixrac nəzarətini pozaraq Rusiya göndərilməsi üçün əsas mərkəzə çevrilməsindən xüsusilə narahatdır", - məlumatda deyilir.

## *Laçında kütləvi mina aşkar edildi*

**Avqustun 5-də Laçın rayonu ərazisində aparılan minatəmizləmə fəaliyyəti nəticəsində Kiçik İşıqlı dağının cənub hissəsindəki dərə boşluğunda mina sahəsi aşkar edilib.**

Bu barədə Adalet.az-a Müdafiə Nazirliyindən bildirilib.

Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən ərazinin təmizlənməsi zamanı 2021-ci ildə Ermənistanda istehsal edilmiş G-001 M tipli 102 ədəd piyada əleyhinə mina təhlükəsiz qaydada yığılaraq zərərsizləşdirilib. Ərazinin minalardan təmizlənməsi üzrə zəruri tədbirlər davam etdirilir.

Rəşad Məcid



## *Kamal Abdullanın yeni kitabı*

**"Sən əgər əlinə qələm alıb yazmağa başlayırsansa, artıq tənhasan".**

**Bəs qələmsiz yazırsansa, onda da tənhasanmı?**

**Xalq yazıçısı Kamal Abdulla fərqli olmağı, yenilik etməyi sevir və bunu bacarır. Polemikanı da xoşlayır. Ona görə mən də əziz Kamal müəllimə sualla başladım bu qranulamı.**

**İndi Kamal Abdulla, özü demiş, janrı bəlli olmayan yeni bir kitab nəşr etdirib: "Seçmələrin seçməsi - qranulalar".**

**"Qranula cümlədən (mətndən) bütün artıq hissələri silindən sonra yerdə qalan cövhərdir".**





**Bir növ daha çevik, yığcam, dolğun cümlələr, qısa təəssüratlar, sevimli şeir parçaları və sair.**

**Kamal müəllim kitabın ön sözündə bu qranulaların həm özlərini, həm də aid olduqları ilkin mətnləri xatırladacaqlarına ümid edir və kitabın oxucusuna hələlik son hədiyyəsi olduğunu söyləyir.**

**Kitabın nəşrinə onu ruhlandıranlar da sanballı ədəbiyyat biliciləridir və qranulaları oxuduqca düşünürsən ki, haqlı ruhlandırıblar. Nəşrin texniki tərtibatı və dizaynı nəfis, səliqəli və fərqlidir.**

**Qranulalar hərəsi bir səhifədə yerləşdirilib. Bu da oxuduqca nəfəs dərməyə və düşünməyə imkan verir. Bu kitab Kamal Abdulla yaradıcılığına bələd olan oxucunu onun tanış əsərlərinə qaytarır, sevimli mövzularını, obrazlarını canlandırır, təkrarlayır, yada salır. Kitab müəllifi yeni oxuyanlar üçün də maraqlıdır. Üzdən oxuyanlar üçün kitab tez bitir, bu da "kitabı oxuyub bitirdim" deyə bir özgüvən yaradır. Amma bu kitabı layiqincə "həzm eləmək", Xalq yazıçısının daxili dünyasına, düşüncələrinə dalmaq üçün kitabı aram-aram, nəfəs dərərək oxumaq vacibdir.**

**Kitab haqqında geniş danışmaq olar. Amma mən də, kitabın janrına uyğun olaraq, təəssüratımın qranulasını yazdım.**

**Bu orijinal kitaba görə Kamal müəllimi təbrik edir və avtoqraflı hədiyyə üçün təşəkkürümü bildirirəm.**

## *Banqladeş hakimiyyəti Nobel mükafatçısına tapşırmağa hazırlaşır*

**Banqladeşin Baş naziri Şeyx Hasin vəzifədəsindən istifa verərək, xaricə qaçmasından sonra, etirazçı tələbələr müvəqqəti hökumətin baş məsləhətçisi, iqtisadiyyat üzrə Nobel mükafatçlsı Mohammad Yunusu ölkə başçısl kimi görmək istəyirlər.**

Tələbə hərəkatının koordinatorları Hahid İslam, Asif Mahmud və Əbu Bəkr Mədjumdar, sosial şəbəkələrdə hökumətin Nobel mükafatçısına verilməsi planlarını açıqlayıblar.

Nahid İslam, bəyan edib ki, tələbələr Yunusla danışıblar. Nobel mükafatçısı Banqladeşin müdafiəsi məsuliyyətini öz üzərinə götürməyə razılıq verib. Müvəqqəti hökumət etirazçı tələbələrin bu təklifini yerinə yetirməyə borcludurlar.

## *ABŞ İsraili müdafə etməyə hazırdır*



**The Wall Street Yournal, mənbələrunə əsasən yazır ki, İranın hərbi qüvvələri raket qurğularını hərəkə keçirib və hərbi təlimlərə başlayıb. Bu isə, onu göstərir ki, Tehran yaxın günlərdə hücuma keçməyə hazırlaşır.**

ABŞ prezidenti Co Baydenin administrasiyası ehtiyat edir ki, "Hizbulkah" və digər iranının dəstəklədiyi qruplaşmalar İranın İsrailə hücumuna qoşula bilərlər. Bunu nəzərə alan "dünyanın jandarmı" rolunu oynayan Birləşmiş Ştatlar, artıq öz silahlı qüvvələrini İraq və Səudiyyə Ərəbistanı arasına yerləşdirməyə başlayıb və onlar İranın İsrailə hücumuna hazırlaşırlar.

**Rüstəm Hacıyev**

Rüstəm Hacıyev

# ABŞ-ın xarici siyasəti müharibəyə aparır

**Fox News-in analitiki Endryu Napolitanoya müsahibə verən ABŞ silahlı qüvvələrinin ehtiyatda olan polkovniki Duqlas Makqreqor bəyan edib ki, ABŞ-ın İsrail rejimini müdafə edən xarici siyasəti çox təhlükəlidir, bu siyasət hazırda müharibəyə aparır.**

**"Atəşin dayandırılmasına yönələn vasitəçiliyi necə uğurlu addım saymaq olar ki, sən qarşı tərəfin bir nömrəli danışıq aparan liderini öldürürsən? Cavab çox sadədir, bunu uğur saymaq olmaz. Mən hesab edirəm ki, bu təsadüfü deyil, ona görə ki, Netanyahu və onun hökumətinin sülh danışıqlarına başlanmasında marağı olması ilə bağlı heç bir sübut yoxdur"- deyə Makqreqor bildirib.**



**Keçmiş polkovnikin sözlərinə görə, İsrail ABŞ-ın yaxından dəstəyi ilə öz strateji üstünlüyündən istifadə etməkdə maraqlıdır.**

**"Bunları etmək çox təhlükəlidir. Hazırda görünən odur ki, bu təxribatların törədilməsi, Netanyahu və onun tərəfdarlarını müharibə təhdidini artırmağa yönəlib"- deyə Mskqreqor müsahibədində qeyd edib.**

**Eks-polkovniin fikirincə, İsrailin müdafiə ordusu TSAXAL qəti zərbələr yerinə yetirməklə quru qoşunlarının Cənubi Livanda hərəkətini asanlaşdırmaq istəyir.**

**Makqreqor düşünür ki, "Netanyahu hökuməti hətta taktiki nüvə silahından da istifadə edə bilər. Baş nazir Netanyahunun Vaşinqtona gəlməsinin əsas səbəbi, "Hizbullah" hərəkatı və İranla müharibəyə başlayarcağı halda, ABŞ-dan dəstək almaq idi.**

**Keçmiş polkovnik müsahibəsində bəyan edib ki, siyasi qətllər istənilən effekti vermir, əksinə müxalifətin bizə qarşı mövqeyini möhkəmləndirir.**

# Azərbaycanda lombarda borcu olanlarla bağlı vacib açıqlama




**"Aparılan monitorinqlər göstərir ki, bir sıra hallarda lombardlar tərəfindən vətəndaşların aldadılması, bəzi hallarda yüksək faizlərin təklif olunması qeydə alınıb".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin VI çağırış deputatı Vüqar Bayramov bildirib.

Onun sözlərinə görə, bir sıra hallarda lombarda öz qızılını təqdim edib kredit götürən vətəndaş sonradan kredit öhdəliyini yerinə yetirsə də, belə həmin qızı əldə etməkdə çətinlik çəkir:

"Bununla bağlı xeyli faktlar var. Doğrudur, son illər bu istiqamətdə vəziyyətin xeyli dərəcədə yaxşılaşması müşahidə olunub. Bu da nəzarətin gücləndirilməsi ilə əlaqədardır. Eyni zamanda faizlər də kifayət qədər yüksəkdir və bəzi hallarda lombardların illik faizləri 60 faizə qədər yüksəlir. Bu da kifayət qədər yüksək faizdir.

Bu baxımdan biz bütövlükdə həm qanunvericilikdə, həm də icrada lombardlara nəzarətin gücləndirilməsini təklif edirik. Təbii ki, lombardların lisenziyası əsasında fəaliyyət göstərməsi məqsədəuyğundur və eyni zamanda, təbii elektron qeydiyyat sistemi və nəzarətin gücləndirilməsinə ehtiyac var.

Çünki qanunvericiliyin təkmilləşməsi kontekstində həm də nəzarətin gücləndirilməsinə ehtiyac var ki, vətəndaşlarımızın hüquqları pozulmasın. Çünki lombard xidmətindən istifadə edən vətəndaşlarımızın sayı kifayət qədər çoxdur. Bu kontekstdən bu istiqamətdə təkmilləşdirmələr vətəndaşlarımızın hüquqlarının qorunması baxımından vacib hesab olunur".

## Şəhid atası Allahın dərgahına qovuşdu



**Bəhmənlidə bir pinəçi Vaqif vardı və ömrü boyu əlinin qabarı, alnının tərilə yaşamışdı! Oğlu da Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdu və heç vaxt bu addan istifadə etməmişdi.**

O , dünən Allahın dərgahına gedib, şəhid balasına qovuşdu. İndi həm özü rahardır, həm də ruhu! Biz uşaq olanda topumuz yırtılanda onun yanına gedir, o da topumuza yamaq vurar, amma pul almazdı.

Göy ü?ü kimi təmiz, bulaq suyu kimi duru Vaqif qardaşımıza Allahdan rəhmət diləyir, " yerin Cənnət olsun" - deyirik!!!

## Avtobus dayanacaqları küləyə davamlı olmalıdır...



**Bakıda çoxlu sayda avtobus dayanacaqları var. Onların əksəriyyəti Bakının küləyinə, yağışına, sərt havasına tab gətirmir!**

Üstəlik də sərt havalarda- yağışda, qarda, şaxtada sərnişinlər bu dayanacaqda olmazın əziyyəti ilə üzləşirlər. Hətta leysan yağış yağanda dayanacaların damından və yanında su sərnişinlərin üstünə tökülür. Təbii ki, bu dayanacaqlar Bakının hava şəraitinə, iqliminə uyğun tikilməyib. Və hansı ki, bu dayanacaların inşası üçün dövlət yüz minlərlə manat pul xərcləyib! Belə bir durumda isə bu dayanacaqlar lazımı tələblərə cavab vermir.

Amma son vaxtlar Bakıda Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi daha müasir və yüksək tələblərə cavab verən avtobus dayanacaqları tikib və tikir. Artıq paytaxtımızın bir çox yerlərində bu dayanacaqlardan inşa edilib! Özü də həmin dayanacaqların açılıb- bağlanan qapıları olmaqla yanaşı içəridə oturacaqlar və digər avadanlıqlar mövcuddur! Ən çətin hava şəraitində burada sərnişinlər rahat dayana bilər və avtobus gözləmək imkanına malikdir! Belə dayanacaqlar metronun " Xalqlar dostluğu" stansiyasının yanında da quraşdırılıb.

Və yavaş-yavaş Bakının ucqar məntəqələrinə doğru uzanır. Yaxşı olardı ki, belə dayanacaqlar Yeni Günəşlidə də tikiləydi, çünki bu yaşayış sahəsində daha güclü küləklər əsir və sərnişinlər yağış, qar yağanda həddindən artıq əziyyət çəkirlər! Ümumiyyətlə, Yerüstü Nəqliyyat Agentliyinin bu işini alqışlamaq və onları dəstəkləmək lazımdır!!!

## Bəzi sürücülər niyə ara məsafəsi saxlamır?



**Nəqliyyat vasitələrini idarə edərkən ara məsafəsi saxlamaq hərəkətin təhlükəsizliyinin təmin edilməsində önəmli əhəmiyyətli kəsb edir.**

Təbii ki, buna əməl edənlər də , var, riayət etməyənlər də! Çünki mövcud qaydalara əməl edilməsə, qəzaların baş verməsi qaçılmaz olur. Öna görə də ara məsafəsinin saxlanılmasını bütün sürücülər diqqət mərkəzində saxlamalıdır. Xüsusilə də magistral yollarda buna diqqət yetirilməlidir.

Bu günlərdə Bakı- Sumqayıt avtomobil yolunun 29- cür kilometrində baş vermiş yol-nəqliyyat hadisəsini yadda salmaq kifayətdir.

Belə ki, eyni istiqamətdə hərəkət edən iki avtobusadan biri- Bakı avtovağzalından Sumqayıta gedən və sərnişin daşıyan avtobus ara məsafəsi saxlanılmaması üzündən arxadan digər sərnişin aparan avtobusa çırpılıb.Nəticəsə qabaqda gedən sərnişin avtobusu aşıb.

Qəza zamanı bir nəfər tələb qız həlak olub, 18 nəfər sərnişin müxtəlif dərəcəli xəsarət alıb. Onlar Sumqayıtdakı xəstəxanaya yerləşdiriblər!

Deməli, burada hər iki sərnişin daşıyan sürücünün məsuliyyəti var!

Deyilənə görə, qabaqdakı avtobusun sürücüsü dayanacaq olmayan yerdə masını saxlayıb və bu zaman yüksək sürətlə hərəkət edən avtobus arxadan ona çırpılıb!Bax , arxadan gələn sürücü avtobusu həm yüksək sürətlə idarə edib, həm də ara məsafəsi saxlamayıb.Əgər hər iki sürücü diqqətli olsaydı, belə bir ağır qəza baş verməzdi!!!

## Qatarlar arasında interval azaldılmalıdır



**Yay vaxtı ilə əlaqədar olaraq Bakı metropolitenində qatarların hərəkət intervalı artırılıb.**

Yeni əvvələr metro stansiyalarında qatarların hərəkəti bir- iki dəqiqə çəkirdisə, indi onlar arasında interval 4-5 dəqiqə və bəzən daha çox olur.Məsələn, avqustun 5-də səhər saatlarında Metronun " Həzi Aslanov" stansiyasından " Dərnəgülə" gedən qatar 4 dəqiqədən sonra gəldi. Və bu vaqonlarda sıxlıq yaraydı.

Belə vəziyyətdə isə mənzil başına gedən xəstə, qoca və digər səhhətində problem olan insanlar əziyyət çəkdilər. Xüsusilə də kondisioner sistemi olmayan vaqonlarda sıxlıq olarkən havasızlıqdan sərnişinlər çətin anlar yaşayırlar! Ona görə də Bakı Metropoliteninin rəhbərliyi mövcud vəziy nəzərə almalı, sərnişin sıxlığını aradan qaldırmaq üçün qatarlar arasında intervalı azaltmalıdır!

## Maqnit qasırğası...



**Günəşdə baş vermiş partlayışlar nəticəsində bu gün dünyanın hər yerində maqnit qasırğası yaranır.**

Şübhəsiz ki, bu, ölkəmizdən də yan keçmir! Qasırğa zamanı xoroniki xəstəliklər olan insanlarda maqnit qasırğasının təsiri daha tez hiss olunur. Hətta xəstəliyi olmayan insanlar belə həmin günlər özlərini narahat hiss edirlər.

Tibb elmləri üzrə fəlsəfə doktoru, həkim-kardioloq Rafiq Yusifli deyir ki, xroniki xəstəlikləri olan insanlar həmin günlər səhhətinə daha çox diqqət yetirməli, qızardılmış, yağlı və duzlu qidalardan uzaq durmalı, spirtli və qazlı, şirin içkilər qəbul etməməlidirlər. Bununla yanaşı, onlar təmiz havada gəzməli, həkimin təyin etdiyi dərmanları vaxtında qəbul etməlidirlər! Bir sözlə, maqnit qasırğası olan günlər bütün insanlar daha diqqətli olmalı və düzgün qidalanmalıdırlar!

## Yeni Günəşlidə küçə ticarəti tüğyan edir...



**Bu gün Bakının bir çox küçə və prospektlərində yerin üstünə qoyulub satılan kənd təsərrüfatı məhsullarının, bəzi ərzaqların əlindən tərpənmək olmur!**

Bu isə birmənalı olaraq küçə ticarəti adlanır və antisanitariya yaradır. Deməli, isti yay günlərində belə səliqəsiz və çirkli yerlərdə alver etmək , həm də müxtəlif xəstəliklərin yayılmasına münbit şərait yaratmış olur. Paytaxtımızda isə küçə ticarətinin qarşısını icra orqanları , o cümlədən polis almalıdır. Amma gələn onunla raşılaşaq ki, bir çox yerlərdə bu vəzifəni polis məsuliyyəti yerinə yetirir, küçə ticarətinin qarşısını alır. Lakin bu sözləri Suraxanı rayonu haqqında, xüsusilə də Yeni Günəşli barədə demək olmaz! Çünki Yeni Günəşlidə bu gün küçə ticarəti sözün həqiqi mənasında tüğyan edir. Belə ki, Yeni Günəşlidə, qəbiristanlığın yanında , daha doğrusu, " Araz" marketin iki addımlığında üç aydır iki yerdə maşında qarpız satılır. Həftələrlə günün altında qalıb keyfiyyətini itirən belə qarpızlardan hər an zəhərlənmə baş verə bilər. Bununla yanaşı, həmin yaşayış sahəsində beş- altı belə yerdə maşında və torpağın üstündə, günün altında qarpız satılır! Bu mənzərəni isə hər gün o yerlərdə xidmət aparan Çevik Polis Alyının və Post- Patrul Xidməti əmədaşləri görür və qanunsuzluqlara göz yumurlar. Niyə?! Bax onu deyə bilmərik! Məhz aidiyyatı qurumlar öz vəzifələrinə məsuliyyətsiz yanaşdıqlarına görə, bu gün Yen Günəşlidə küçə ticarəti tüğyan edir. Bəs bunun qarşısı nə vaxt alınacaq! Bax onu deyə bilmərik!!!

**EMİL FAİQOĞLU**



# İki ildən sonra qalıqları tapılan hərbçilərimiz donvurmadan ölüb

**Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Baş Prokurorluğu və Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının birgə məlumat yayıblar.**

Adalet.az məlumatı təqdim edir:

"Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında təmsil olunan aidiyyəti dövlət qurumları tərəfindən aparılmış axtarış-araşdırma işləri nəticəsində 3 iyul 2024-cü ildə Kəlbəcər rayonu, İstisu qəsəbəsindəki Yüzbulaq yaylağının ərazisində Azərbaycan Ordusunun iki hərbçisinə aid olduğu ehtimal edilən meyit qalıqları aşkarlanaraq götürülmüşdür.



Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsinin Genetik Araşdırmalar Mərkəzində həyata keçirilmiş ekspertizalar nəticəsində qalıqların 3 mart 2022-ci ildə Laçın rayonunda yüksək dağlıq və çətin relyefli ərazidə hava şəraitinin qəfil dəyişməsi və çovğun səbəbindən istiqaməti itirərək itkin düşmüş Azərbaycan Ordusunun əsgərləri - 23.05.2003-cü il təvəllüdlü Məmmədov Fərid Əjdər oğlu və 09.02.2003-cü il təvəllüdlü Abdullayev Firdovsi Mais oğluna aid olduğu müəyyən edilmişdir. Həyata keçirilmiş kompleks istintaq tədbirləri, məhkəmə-tibb və kriminalistik tədqiqatlarla müəyyən edilmişdir ki, həmin əsgərlər 3 mart 2022-ci ildə Laçın rayonunda yüksək dağlıq və çətin relyefli ərazidə hava şəraitinin qəfil dəyişməsi və çovğun olmasından istiqaməti itirərək itkin düşmüşlər, uzun müddət soyuq temperaturda qalmaqla donvurma səbəbindən ölmüşlər.

Əsgərlərin nəşlərinin tapılması 5 avqust 2024-cü ildə Dövlət Komissiyasında keçirilmiş görüşdə itkin hərbçilərin ailələrinə elan edilmişdir.

Hazırda aidiyyəti dövlət qurumları ilə birlikdə əsgər Fərid Məmmədov və əsgər Firdovsi Abdullayevin dəfni ilə bağlı zəruri tədbirlər həyata keçirilir. Dəfn mərasimlərinin vaxtı və yeri barədə ictimaiyyətə əlavə məlumat veriləcəkdir".

# Hesablama Palatası Səhiyyə Nazirliyində nöqsanlar aşkarladı

**Hesablama Palatası Səhiyyə Nazirliyinə ayrılan dövlət investisiyalarının (Qəbələ rayon Mərkəzi Xəstəxanasının tikintisi üzrə) auditi üzrə kənar dövlət maliyyə nəzarəti tədbiri aparıb.**

Bu barədə Adalet.az-a Palatadan məlumat verilib.

Nəzarət tədbiri kənar dövlət maliyyə nəzarətinin obyektində (obyektlərində) dövlət vəsaitlərinin, dövlət əmlakının idarə olunması vəziyyətinin hüquqi aktlara uyğunluğunun müəyyənləşdirilməsi məqsədilə həyata keçirilib.

Audit layihənin başlanma tarixindən 01.01.2024-cü il tarixinədək olan dövr əhatə olunmaqla 17.04.2024-cü il tarixindən 30.04.2024-cü il tarixinədək olan müddətdə keçirilib. Auditlə "Qəbələ rayon Mərkəzi Xəstəxanasının tikintisi" layihəsi üzrə dövlət əsaslı vəsait qoyuluşundan müvafiq sərəncamlarla ayrılan ümumilikdə 46631,0 min manat məbləğində vəsait əhatə olunub.

"Qəbələ rayon Mərkəzi Xəstəxanasının tikintisi" layihəsi üzrə obyektin 160 çarpayılıq nəzərdə tutulması ilə bağlı əhalinin sayı, çarpayı yeri, tibbi kadrlarla təminat və səhiyyə strukturunun düzgün optimallaşdırılması barədə məlumatlar, layihənin başlandığı illərdə onun qiymətləndirilməsini özündə əks etdirən investisiya təklifləri, Dövlət İnvestisiya Proqramına daxil edilməsi üçün yeni layihələndirilən obyektlər üçün layihə-smeta sənədlərinin və ya texnikiiqtisadi əsaslandırmaların aparılması "Səhiyyə Sektorunda İslahatlar Layihəsi"nin beynəlxalq ekspertlərinin tövsiyələrinin nəzərə alınmaması ilə yanaşı, "Azərbaycan Respublikası Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydaları"nın tələblərinə riayət edilməməsi ilə nəticələnib.




"Qəbələ rayon Mərkəzi Xəstəxanasının tikintisi" layihəsinin "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə "Tədbirlər Planı"nı ilə müəyyən edilmiş başa çatdırılması müddətinə əməl olunmaması layihənin icrasının gecikməsinə və layihənin icrasına müvafiq illərdə dövlət əsaslı vəsait qoyuluşu xərclərindən vəsaitin ayrılması və maliyyələşməsi məqsədi ilə əsaslandırmaların yetərli olmaması isə layihənin ümumi dəyərindən çox vəsaitin tələb olunmasına səbəb olub.

Tikinti norma və qaydaları ilə müəyyən edilmiş tələblərə riayət edilməyərək "Qəbələ rayon Mərkəzi Xəstəxanasının tikintisi" layihəsinin 1-ci və 2-ci mərhələləri üzrə smeta və satınalma müqaviləsində nəzərdə tutulan işlərin bəzilərinin həcmlərinin yerinə yetirilmiş işlərin qəbulu aktlarına az daxil edilməsi və bəzi işlərin isə tamamilə yerinə yetirilməməsi, əvəzində smeta və satınalma müqaviləsində nəzərdə tutulmayan və dövlət ekspertizasından keçməyən işlərin yerinə yetirilməsi tikinti sahəsini tənzimləyən qanunvericiliklə yanaşı dövlət satınalmalarını da tənzimləyən hüquqi sənədlərin tələblərinin də pozulması ilə nəticələnib.

## Pomidor Xaçmazda 30 qəpik, Bakıda...



**Hara gedirsən çoxları pomidorun baha qiymətə satılmasından danışır!**

Heç kimi qınamalı deyil. İnsanlar ilin- günün bu vaxtında, yəni avqust ayında kiloqramı 2 manat 50 qəpiyə pomidor satılması ilə razılaşmırlar. Necə olur ki, Xaçmazda bir kiloqramı pomidoru 30 qəpiyə satırlar, amma Bakıda bu məhsul 2 manat 50 qəpiyə və bir az da baha qiymətə əhaliyə təklif edilir. Hər şeyi bahalaşdıran ölkəmizdə baş alıb gedən monopoliyadir.

Yəni bazara, dükanlara və marketlərə məhsulları onlar verirlər.Hər şey vahid mərkəzdə birləşdiyinə görə, qiymətlər də belə kəllə- çarxa qalxır! Digər bir problem isə məhsul qıtlığıdır! Bu da qiymət artımına öz təsirini göstərir!

**Emil Faiqoğlu**

## İsrail İranın hücumuna hazırlaşır

**NBC telekanalı adının çəkilməsini istəməyən İsrail məmurunun sözlərinə istinadən bildirib ki, İsrail İran və Livanın "Hizbullah" hərəkatının neçə gündür davam edən, mümkün hücumuna qarşı hazırlaşır.**

Telekanalın məlumatına görə, hazırlıqlar İranda HƏMAS təşkilatının lideri İsmail Xaniyənin öldürülməsindən sonra başlayıb.

İsrail tərəfi ehtiyat edir ki, cavab olaraq, ölkə ərazilərinə raket və PUA-larla hücumlar ola bilər. "Ynet" portalınının verdiyi məlumatada bildirilir ki, İsrail neçə gündür ki, İranın hücumlarına hazırlaşır, eyni zamanda hökumət İran tərəfinin mövqeləri barədə məlumat əldə edərsə, bu mövqelərə preventiv zərbələr də endirə bilər.

The Jerusalem Pist qəzeti yazır ki, İran İsrailə hücumları 12-13 avqust tarixlərində etməyi planlaşdırır. Həmin gün İsraildə müqəddəs Doqquzuncu ava günü keçiriləcək. Axios portalı isə, hücumun 5 avüust tarixində keçiriləcəyini bildirib.

**Rüstəm Hacıyev**

*Rüstəm Hacıyev*

# Xüsusi hərbi əməliyyat, yoxsa müharibə..?

*Maraqlıdır, niyə Rusiya Ukrayna ərazilərində yaşayış binalarını raket zərbələriylə yerlə yeksan edəndə, dinc əhalini öldürəndə Moskva rəsmiləri bunu "xüsusi hərbi əməliyyat" adlandırır, Ukraynanın pilotsuz uçuş aparatlarının Rusiya ərazilərinə hücumunu isə terror aktı kimi qiymətləndirir? Hər iki halda mülki vətəndaşlar zərər çəkmirmi?*

*İki ildən artıqdlr ki, Rusiya hərbi qüvvələri Ukraynanın şəhər və kəndlərini dağıdır, infrastrukturlarınl məhv edir, mülki vətəndaşlardan qırdığını qırıb, qalanlarını isə doğma yurd-yuvalarından didərgin salıb. Bunu heç nə baş verməmiş kimi soyuqqannılıqla "xüsusi hərbi əməliyyat" adlandırır.*

*Ukraynanın artıq az qala üçdə ikisini işğal edən Rusiya tərəfi, öz ərazi bütövlüyünü bərpa etmək istəyən Ukrayna hərbi qüvvələrinin Rusiyanın Kurs vilayətinə hücumunu "dinc əhaliyə qarşı terror aktı" kimi qiymətləndirir.*

*"Ukrayna hərbi qüvvələrinin Kursk vilayətinə hücumu-dinc əhaliyə qarşı terror hərəkətidir"- deyə Rusiya XİN-nin sözçüsü Mariya Zaxarova bəyan edir.*

*Düşünürəm, həyasizlığın da bir qədəri olmalıdır. Artıq iki il yarlmdır Rusiya Ukrayna ərazilərində qanlı müharibə aparır. Bəli, Kremlin bunu necə adlandırmasından asılı olmayaraq bu bölgədə əsl qanlı müharibə gedir, hər iki tərəfdən ölənlərin sayı yüz minlərlə ölçülür və  Moskva rəsmiləri hələ də bunu "xüsusi hərbi əməliyyat" adlandırlr, "müharibə" sözünü dilə gətirənləri cəzalandırlr.*

*Görünən odur ki, artıq münaqişə tərəflərinin  özləri də sonu görünməyən müharibədən beziblər və qurtulmaq yollarını axtarırlar. Həm Moskvadan, həm də Kiyevdən danlşıqlar masasına oturmağın vaxtı gəldiyi barədə səslər eşidilməkdədir. Lakin, bir məsəldə deyildiyi kimi, hər iki tərəf "dəvədən yıxılsalarda, höthötlərin yerə qoymaq istəmirlər".*

*Hər iki tərəf "Sülh danışıqlarına" başlamaq üçün qəbul edilməz şərtlər irəli sürürlər. Bu isə, ilk növbədə vacib olan atəşin dayandırılmasına mane olur.*

*Müharibə isə öz qanlı axarı ilə davam edir...*

## Türkiyədən ABŞ və Rusiya arasındakı məhbus mübadiləsinə reaksiya

**Türkiyə Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə beynəlxalq müstəvidə sülh və sabitliyə töhfə verməyə davam edir.**

Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin müdiri Fəxrəddin Altun avqustun 1-də Ankarada ABŞ və Rusiya arasında baş tutan məhbus mübadiləsi ilə bağlı "X"də yazıb.

O bildirib ki, Türkiyə fərqli ölkələrlə müxtəlif formalarda münasibətləri təmin edə bilən ölkədir: "Ölkəmiz bu diplomatik imkanı fərqli ölkələrlə uğurlu əməkdaşlıq nəticəsində sülh və sabitlik üçün istifadə edir. Türkiyə dünən 7 fərqli ölkədən 26 məhbus mübadiləsini həyata keçirməklə son vaxtların ən genişmiqyaslı məhbus mübadiləsinin müəllifi oldu. Türkiyənin bu mövqeyi bölgədəki bütün problemlərin həlli üçün nümunə oldu".

F.Altun qeyd edib ki, Türkiyə bu tarixi əməliyyata vasitəçi oldu, dialoq kanallarından istifadə etdi: "Ölkəmiz fərqli oyunçularla danışa bilən, inam qazanan müttəfiq olduğunu bir daha göstərdi. Türkiyə bütün beynəlxalq toqquşmalarda açıq dialoqları davam etdirməyə qərarlıdır. Türkiyə bütün münaqişə tərəflərinə sərf edəcək platformalar hazırlamağa davam edəcək".

Qeyd edək ki, avqustun 1-də Ankarada Rusiya ilə Qərb ölkələri arasında məhbus mübadiləsi həyata keçirilib. Bu, "soyuq müharibə"dən sonra tərəflər arasında ən genişmiqyaslı məhbus mübadiləsi olub.

Hadisədən sonra ABŞ Prezidenti Cozef Bayden türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla telefonla danışıb, ona təşəkkür edib.

## Tramp: "Mən Ukrayna münaqişəsinin həllinə nail olacağam"

**Respublikaçılar partiyasından prezidentliyə namizəd Donald Tramp hakimiyyətə gələcəyi təqdirdə Ukrayna münaqişəsini həll etməyə başlayacaq.**

Adalet.az xəbər verir ki, sabiq dövlət başçısı bu barədə tanınmış jurnalist Edin Rossa müsahibəsində deyib.

"Seçkilərdə qalib gələcəyim təqdirdə, ilk işim Vladimir Putin və Volodimir Zelenski ilə əlaqə saxlamaq olacaq. Mən onların hər ikisini yaxşı tanıyıram və onlarla Ukrayna münaqişəsini həll etməyə nail olacağam, - deyə Donald Tramp bildirib. Ağ Evin sabiq rəhbəri iyunun 27-də keçirilən seçki debatları zamanı 2025-ci il yanvarın 20-də baş tutacaq andiçmə mərasiminədək münaqişənin həllinə nail olacağına vəd verib. Onun sözlərinə görə, Moskva ABŞ prezidentinə hörmət etsəydi heç vaxt Ukraynaya hücum etməzdi.



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# DİNLƏDİYİM KÖVRƏK PIÇILTILAR

Ruh və qələm dostlarımla hər görüşümdə təkrar etdiyim bir fikri yenidən xatırladıram. Belə ki, mənim düşüncəmə görə, hər yeni yazı, yeni kitab müəllifin yeni övladıdır. Onun qüsurlu və qüsursuz doğulmasına baxmayaraq, bütün hallarda bu övlad onu oxucuya təqdim edənin ürəyinin, ruhunun bir nöqtəsi, bir zərrəsidir. Deməli, bu baxış bucağı altında məsələyə münasibət bildirəndə onda bu gün barəsində düşüncələrimi bilgisayara diqtə etdiyim "Kövrək könül pıçıltıları" şeirlər kitabı da müəllifinin, yəni Həzi Həsənlinin öz oxucularına, o cümlədən mənə tanıtdığı bir övladdır. Və mən də bu yeni tanışıma, təbii ki, xoş gəldin deyirəm. Və...

Həzi Həsənli mənim aid olduğum zaman kəsiyinin söz adamıdır. Özü də hay-küysüz, çığır-bağırsız, sakit bir şəkildə öz yaradıcılıq hücrəsində qələmi ilə, kağızı ilə pıçıldaşar, ara-sıra da bu pıçıltılar mətbuata üz tutar. Gələr və bizi sevindirər. Tam səmimi vurğulamaq istəyirəm ki, Həzi Həsənli təbiətən necə sakit, mənim doğulduğum tərəflərdə deyildiyi kimi, necə astagəldisə, şeirləri də, digər qələm məhsulları da kom halında özünə bənzəyir. Sakit, astagəl... Oxuyanda elə bil ki, bulaq başında oturub heç hara tələsmədən o suyun səsinə qulaq asırsan. Öz təbii axarı ilə axan suyun. Deməli, bu da ondan xəbər verir ki, Həzi Həsənli öz sözü ilə öz ruhunu misralara, cümlələrə çevirməklə məşğuldur. Həm də heç kimə heç nə demədən, heç kimdən rüşvət almadan. Amma burda qeyd ediləsi bir nüans da var. O da müəllifin cəmiyyətin içərisində olmasıdır, baş verənləri görüb, duyub izləməsidir. Yəni o, təkcə müşahidəçi deyil, həm də iştirakçıdır.

Ona görə də böyük Zəfərimizi tərənnüm edəndə onun da müsəlləh əsgər olduğu gün kimi aydın olur. O yazır ki:

*Qəlbimdən qəmi at, qubarı götür,*
*Mən sazı götürüm, sən tarı götür,*
*Qarabağ bülbülüm Şuşada ötür,*
*Bəmimdə zəfərdi, zilimdə zəfər.*

Bu misraları oxuyanda özündən asılı olmadan zəfəri ruhən təkrar yaşayırsan. Onu bizə bəxş edənlərin qarşısında baş əyirsən. Hətta Xocalı soyqırımı da, Qaradağlı faciəsi də, Kəlbəcərdə Ağdaban qətliamı da o Zəfərlə təsəlli tapır. Və həmin məqamda şairin məsələyə təkcə yaradıcı insan kimi deyil, həm də vətəndaş kimi yanaşması öz təsdiqini Xankəndində ucaldılan bayrağın əzəmətində təsdiqləyir. Həmin şeirin hər bəndində otuz illik yurd nisgilimizin necə böyük bir sevincə çevrildiyinin şahidi oluruq:

*Bu günü görməkçün günləri saydıq,*
*Ucaldı göylərə Xanbayrağımız!*
*Xankəndim - Cankəndim, gözlərin aydın!*
*Yox oldu candakı ağrılarımız...*

Və yaxud:

*Sənsən ucalığın arzu qitəsi,*
*Sənsən ucalığın ən son nöqtəsi!*
*Canbayrağım, Xanbayrağım,*
*Zirvədən baxan bayrağım!*

Bax elə bu misralarla da baş-başa qaldığım kitabın ümumi ab-havasına köklənirəm. Artıq mən bir oxucu olaraq bu kitabda yurd sevgisinin, şəhid ruhuna səcdənin və bir də Azərbaycan coğrafiyasının bütün çalarlarına özəl yanaşmanın izləyicisi olacağıma artıq əminəm. Ona görə də az qala lal suların pıçıltısından bir şəlalə hayqırtısına qədər uzanan yolun yolçusuna çevrilirəm. Misra-misra, bənd-bənd təkcə yerlə, göylə deyil, daşla, ağacla, çiçəklə, güllə, ən vacibi isə Tanrı ilə ünsiyyət qura-qura yeni nəğmələrin söz şəklini vərəqlərə köçən görürəm. Həmin o şəkillər özü-özünü dilmancız, vasitəçisiz təqdim edir:

*Dünyada nə varsa , göz vərəqləyir,*
*Bəsirət gözümüz düz vərəqləyir,*
*Görünməz gözünə dünyanın varı,*
*Şair kitab-kitab söz vərəqləyir...*

Və yaxud:

*Unutmaq çətindir ötən günləri,*
*O gözdən, könüldən itən günləri*
*Axırı qovğayla bitən günlərin*
*Qapısı yoxdur ki, döyəm beləcə.*

Yeri gəlmişkən, qeyd etmək istəyirəm ki, Həzi Həsənli bu kitabında öz ruhunun







konkret ifadəsi olan "Dördlüklər"ə və "Beytlər"ə xüsusi yer ayırıb. Mən həmin o dördlüklərin və beytlərin hər birini bitkin şeir kimi görürəm və hiss edirəm ki, müəllif o dördlükləri, beytləri pıçıldayanda artıq onun bitkin formada şəklini özü üçün çəkibmiş.

Ona görə də dörd misra bir oxucu olaraq mənə hər şeyi çatdırır. Oxuyuram, qəbul edirəm və razılaşıram. Bu da müəllifin sözə könül verib könül alması ilə yanaşı, həm də az sözlə bitkin bir fikri ifadə etmək ustalığıdır.

Deməli, bir yaradıcı olaraq, ruhunun, ürəyinin diqtəsini misralamaq heç də oxucuya çox söz demək deyil. Əksinə, az sözün içərisində daha çox fikir çatdırmaqdı.

Və bir də elə əbədi mövzular var ki, onlar bütün zamanlarda və bu gün də, eləcə də gələcəkdə də yaradıcı adamların diqqət mərkəzindədir. Məsələn, sevgi, həsrət, ayrılıq, ölüm və s. Bax bu əbədi mövzularda yeni fikir tapıb ortaya qoymaq, bu yeni fikri də oxucuya həzm etdirmək artıq şairin ilhamının qüdrətidir.

Mən Həzi Həsənlinin "Aman ayrılıq" şeirində bunun şahidinə çevrildim. Eləcə də "Bəyaz duyğular"da da yeni hisslərlə qarşılaşdım:

*Elə kövrəlmişəm Kərəm sazıtək,*
*Gedim söyüdlərin saçın hörməyə,*
*Gəlmişdin ümidtək, getdin arzutək,*
*Gedim qəbrin üstə köks ötürməyə...*

Bir oxucu kimi son aylarda diqqətimi çəkən kitablar arasında Həzi Həsənlinin "Kövrək könül pıçıltıları" yaxşı mənada mənə bir xeyli mətləbləri, məqamları pıçıldadı. Doğrudur, mən kitabın adındakı "kövrək" sözünü o qədər də qəbul etmədim. Çünki könül pıçıltıları mənim anlamıma görə hissələrə bölünmür. O, yalnız kiminsə qulağına, kiminsə ruhuna pıçıldanır.

Həmin o pıçıltını mənə görə ancaq Tanrı eşidir. Deməli, onun bütün parametrləri, hiss və həyəcanları Tanrıya məlumdur. Məhz bu mənada söz də nişanədir. O, sənin içində artıq özünə yer tapa bilməyəndə kağıza köçür, vərəqə hopur. Necə ki, Həzi Həsənli Gülhanəni görəndə o duyğuları içində gizlədə bilməyib:

*Gəlib, görüb neçəsi,*
*Gələn bir gün köçəsi,*
*Xatirələr ilçəsi...*
*Gülhanədi, Gülhanə.*

Şairin mənə qardaş sevgisi ilə hədiyyə etdiyi kitabında sevgi mövzuları müxtəlif prizmalardan oxucuya təqdim olunur. Özü də həmin sevgilərin hamısının ünvanı ürəkdir. Hiss olunur ki, yaşanmış bu sevgilər çox rahatlıqla misralara çevrilir.

Necə deyərlər, gerçəklik təsdiqini sözdə tapır. Bu mənada həmin sevgi şeirlərinin hər biri bir anın, ovqatın deyil, həm də ömrün yadda qalan diqtəsidir.

Və mən o misraların arasında ömürdən, gündən gəlib keçən sevginin yol xəritəsini çəkirəm.

Özü də Həzi Həsənlinin misraları ilə:

*Dağların oğluyam, məskənim budur,*
*Can dərmanım təmiz hava, saf sudur,*
*Könlüm deyir o dağlarda yuva qur,*
*Bu şəhərdə yorulmuşam, Dağüzü!*

Və yaxud:

*Nə işim var fələklə,*
*Nə sirdaşam küləklə,*
*Sən danış öz-özünlə,*
*Mən danışım ürəklə...*

Və nəhayət, "Kövrək könül pıçıltıları" barəsində oxucu təəssüratımı sizinlə bölüşərkən bir daha vurğulamaq istəyirəm ki, müəllif içindəki ümidsizliyi də şübhəni də sonda işığa, ümidə çevirə bilir.

Ona görə də birmənalı şəkildə vurğulayır ki, sular axıb durulacaq və durulan sularla paralel olaraq bu sevgi dolu həyatın nağılları da bitməyəcək. Çünki ürək sevgi ilə döyünür. Və o döyüntülər də həzin pıçıltılara çevrilir - könül pıçıltılarına...

Həmin pıçıltılardan bir də belə başlayır:

*Uzaq düşsək biz üfüqtək,*
*Əllərimiz yetməyəcək.*
*Ürəyimiz dözməyəcək,*
*Bu nağıl da bitməyəcək.*

***P.S.** Kaş ki, bitməsin kövrək pıçıltılar!..*

## Polad Həşimovun oğlu: "Atamın ruhu qarşısında bir borcumu ödədim"



**Xəbər verdiyimiz kimi, Azərbaycanın Milli Qəhrəmanı general-mayor Polad Həşimovun oğlu Davud Həşimov 4 xarici ölkədə yerləşən 7 universitetdən qəbul alıb.**

Adalet.az Xəzər TV-yə istinadən xəbər verir ki, Davud Həşimov uşaqlıqdan kompüter sahəsinə marağı olduğunu bildirib.

Onun sözlərinə görə, 8-9-cu siniflərdən bu peşəyə yiyələnmək üçün çalışıb:

"Artıq 3 ildir ki, xarici universitetlərə hazırlaşırdım. Qəbul xəbəri alanda sevinc hissi keçirdim. Atamın ruhu qarşısında ona bir borcumu ödəmiş oldum. Bu uğuru qazandığıma görə, ən çox anama və atama borcluyam. Atam mənə bu yolu göstərib. Onun ruhunun qarşısında baş əyirəm".

Qeyd edək ki, Davudun kompüter mühəndisliyi üzrə təhsil alması generalımızın arzusu olub.

## Xankəndi, Ağdərə və Xocalıdakı daşınmaz əmlaklar qiymətləndiriləcək



**Azərbaycanın işğaldan azad edilmiş Xankəndi şəhərində, eləcə də Ağdərə və Xocalı rayonlarındakı daşınmaz əmlaklar qiymətləndiriləcək.**

Adalet.az bu barədə Xankəndi şəhərində, Ağdərə və Xocalı Rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinə istinadən xəbər verir.

Məlumata görə, proses 70 fərdi yaşayış evini, 40 qeyri-yaşayış sahəsini, 10 yaşayış binasını və 5 yarımçıq tikilini əhatə edəcək.

Xatırladaq ki, Xankəndi, Ağdərə və Xocalı Azərbaycan ordusunun 2023-cü ilin sentyabrın 19-da başladığı antiterror tədbirlərindən sonra nəzarətə götürülüb.

## Quterreş: Dünya yenidən nüvə silahından istifadə təhlükəsi ilə üz-üzədir



**BMT-nin Baş katibi Antoniu Quterreş dünyanın yenidən nüvə silahından real istifadə təhlükəsi ilə üz-üzə gəldiyini hesab edir.**

Adalet.az xəbər verir ki, bunu o, ABŞ-nin Hirosimaya nüvə bombası atmasının 79-cu ildönümü ilə bağlı anım mərasimində BMT Baş katibinin müavini və tərksilah məsələləri üzrə ali nümayəndəsi İdzumi Nakamitsunun oxuduğu müraciətdə bildirib.

"Nüvə silahları və onlardan istifadə ilə bağlı təhdidlər təkcə tarix dərsliklərinin səhifələrində deyil, bu cür gündəlik ritorika beynəlxalq münasibətlərdəki vəziyyət fonunda yenidən özünü büruzə verir", - deyə Quterreş bunun indi dünyanın üzləşdiyi real təhlükə olduğunu vurğulayıb.

BMT-nin Baş katibi əmindir ki, nüvə silahı təhlükəsini nəhayət aradan qaldırmağın yeganə yolu ondan tamamilə imtina etməkdir.

"Nüvə müharibəsində qalib ola bilməz və belə bir müharibə heç bir halda başlanmamalıdır", - o vurğulayıb.

## Ağdam və Zəngilan məscidlərinə din xadimləri təyin olundu



**İşğaldan azad edilmiş Ağdam və Zəngilan məscidlərinə ilk dəfə din xadimləri təyin olunub.**

Adalet.az xəbər verir ki, bu barədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

Bildirilib ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Ağdam şəhər Cümə məscidi və Zəngilan məscidinə imam vəzifəsinə təyin olunmuş Mehman Nəsirov və Müşfiq Fərzəliyevlə görüşüb.

## Zaxarova: "Olimpiya Oyunlarının açılışında Fransa "nəsə başqa bir şey" göstərdi"

**Parisdə keçirilən Olimpiya Oyunlarının açılış mərasimində Fransa öz simasını deyil, "nəsə başqa bir şey" göstərdi.**

Adalet.az xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib.

O, Fransa Prezidenti Emmanuel Makronun açılışda ölkənin "əsl simasını" nümayiş etdirməsi ilə bağlı sözlərinə belə reaksiya verib.



"Çoxları bunun başqa bir şey, bədənin bəzi digər hissələri olduğunu düşünürdü.

Lakin Makron Fransanın indi belə bir sifətə sahib olmasında israr etdiyinə görə, o, əlbəttə ki, daha yaxşı bilir".

Qeyd edək ki, Parisdə Olimpiya Oyunlarının açılışı iyulun 26-da baş tutub. Bu hadisə cəmiyyətin və dini liderlərin hiddətinə səbəb olub.

Qalmaqala səbəb Leonardo da Vinçinin "Son şam yeməyi" əsərinin parodiyası olub; burada transvestitlər və yunan şərab tanrısı Dionis qiyafəsində çılpaq müğənni iştirak edib.

Olimpiadanın təşkilat komitəsi tənqidlərə cavab olaraq üzr istəyib və bu kompozisiyanın heç bir dini qrupu təhqir etmək niyyəti daşımadığını vurğulayıb.

Əlisəfa Azayev



# Doğmalar arasında!

Siyəzəndə dövlət notariusu işlədiyi təzə vaxtlar idi. Rayon Gənclər İdarəsinin rəisi Vahid Əhmədov yanına gəlib, onunla görüş keçirmək istədiklərini dedi. Açığı onda çox da belə işlərə meyilli deyildi. Vahid müəllim gözəl insan idi. Xətrini dünyalar qədər istəyirdi. Allah ona qəni-qəni rəhmət eləsin, bu işıqlı həyata cavankən əlvida dedi. İdmançı adam idi. Sadəliyinə, səmimiyyətinə söz ola bilməzdi. Xitabət kürsüsündə danışanda da elə dayanır, danışırdı ki, sanki rəqiblə döyüşdə, mübarizədə idi. Boks oynayırdı...

Bu mövzuda söhbətləri bir neçə dəfə təkrarlansa da, müxtəlif yerə yozdu, vaxtı, imkansızlığı bəhanə gətirdi, görüşdən imtina elədi. Bir gün də bu işlə əlaqədar rayon İcra Hakimiyyətinin başçısı Füzuli Hacıyev çağırdı. Füzuli müəllim alim adam - tarix elmləri namizədi idi. Xətrini çox istəyirdi. Daha o deyəndə etiraz edə bilmədi. Dedi:

- Hə... Neçənci dəfədi yanına gəlirlər.

Fikrini bildirdi:

- Yaxşı, nə deyirəm ki... Onda layiqincə keçirməyə çalışaq.

- Əlbəttə ki... Özüm də iştirak edəcəyəm. Rayon fəalları ilə birlikdə. Tədbir Mədəniyyət Mərkəzində keçiriləcək. Bilirsən də, ora da beş yüzdən çox adam tutur. İmkanları daha çoxdur.

- Onda Yerevan Teatrının artistlərinə, AzTv-yə də deyərik.

- Buyursunlar...

O vaxt Yerevan Teatrının artistləri ilə əlaqəsi vardı. Mənsur şeirini əzbərləmiş, "Siyəzən gözəli" şeirinə mahnı bəstələmişdilər.

Hər şey çox maraqlı, yaddaqalan olsa da, onda hələ dərd-qəm içində idik. Torpaqlarımız düşmən tapdağı altında idi. Ürəyimiz açılmırdı. Xüsusilə cəbhədə 1992-1993-1994-cü illərdə çox uğursuzluqlar, xəyanətlər olmuşdu. Onların acı təsirindən hələ də qurtarmaq mümkün deyildi. Ulu Öndərimiz Heydər Əliyevin qəti addımları nəticəsində qısa bir müddətdə respublikamızda qarşı cəbhədə olduğu kimi, arxa cəbhədə də qaydaqanunlar yaradılmağa başladı. İlk növbədə atəşkəsə nail olundu. İyirmi minədək say-seçmə oğullarımız bu mənasız müharibədə həlak olmuşdular. Sonra da Neft Kontraktları. İqtisadiyyatımızın yüksəlməsi üçün əvəzsiz rol oynadı. Daha sonra da Yeni Konstitusiya layihəsinin müzakirəsi və onun qəbul olunması. O günə kimi əsas qanunumuzda 400-dən artıq düzəliş edilmişdi. Əsl mənada yamaqlı paltara oxşayırdı.

Bu gün Siyəzən rayon Mərkəzi Kitabxanasının yeni, müasir tipli binasında kitabxana işçiləri ilə görüşəndə bu kimi məsələlərdən danışdı. Siyəzənlilər sanki onun üçün doğma insanlar idi. Bir yerdə nə qədər işləmək olar ki... İyirmi bir il onlarla tam ünsiyyətdə, münasibətdə olmuşdu. Hər birini öz əzizi, yaxını, doğması bilirdi. Qanunun yol verdiyi dairədə həmişə onlara kömək etməyə çalışardı.

Siyəzəndə dövlət notariusu işlədiyim müddətdə mənim üçün ən müqəddəs yer Mərkəzi Kitabxana idi. Burada öz işinin adını bilən, gözəl bir kollektiv vardı. Etibar kişi kitabxana direktoru kimi uzun müddət bu vəzifədə işləmişdi. Sonra da Şəfiqə xanım. Çox alicənab, öz işinə, kollektivinə hörmət qoyan bir qadın idi. Kitablar üzərində yarpaqtək əsərdi.

Etibar kişi saf, mərd, sözübütöv əsl dağ adamı idi. Saatlarla söhbətləri olardı. Həm də az-çox peşə baxımından yaxın idi. Rayonda hakim məzuniyyətdə olanda uzun müddət onu əvəz etmiş, bu sahədə xeyli təcrübə toplamış birisi idi. Hətta bir dəfə baxdıqları işlərdən ona danşıdı. Hətta sonradan onlardan biri hekayəyə çevrildi. Hadisə belə olub. Əsrin əvvəllərində erməni-müsəlman davasında imkanlı bir ailə gizli yollarla Lənkəran-Astara tərəfdən İrana keçmək istəyiblər. Hətta bu səfər üçün xüsusi sandıq da hazırladıblar. Lakin səfər baş tutmur. Sonralar həmin sandıq evdə əsl mənada baş ağrısına çevrilir. Gəlin hikkə ilə deyir ki, daha



həyat dəyişib, indi belə sandıq kimə lazımdı, onu götürüb həyətə tullasınlar. Ələcsiz qalıb, bir gün özü belə edəndə, gözlərinə inanmır. Parçalanmış sandıqdan yerə xeyli qızıl pul tökülür. Demə, sandığın alt hissəsi ikigözlü imiş.

Şəfiqə xanım ona xüsusi qayğı ilə yanaşardı. Hər dəfə kitabxanaya gələndə şirincə söhbətləşər, onu pürrəngi çaya, mürəbbəyə, şirniyyata qonaq edərdi. Kitablarla bağlı söhbətlər də öz yerində. Şəfiqə xanım çapdan təzə çıxmış bütün kitablarını oxuyar, yeri düşəndə də onlardan elə həvəslə söhbət edərdi ki...

Bir gün də ona dedi ki, səninlə görüş keçirəcəyik. Ancaq nədənsə bu görüş xeyli uzanmaqda idi. Tərs kimi İcra başçısı da ona qohum adam idi. Ancaq yenə bir faydası olmurdu. Başçını kitab yox, onun üçün lazım olan torpaq alqı-satqısı, pul, vəsait məsələləri maraqlandırırdı. Hətta bir dəfə məlum oldu ki, dövlət notariusuna verməyə torpaq tapmadıqları halda, hakim xanıma nə az, nə çox düz dörd pay, yəni 20 sot torpaq səhəsi veriblər. Yəni dörd adamın payını. Bax bu da o vaxtkı ədalət, xoşagəlməzlik. Əlbəttə, belə hallara qarşı mübarizə gedirdi. Bu, vicdan məsələsi idi. Hər bir vəzifəli şəxsin yanına nəzarətçi qoymayacaqdılar ki. Əyri yol gedənlər onsuz da tez və ya gec ifşa olunub, sıradan çıxırdılar. Necə ki, xanım hakim özü də belə bir işin, hərəkətin qurbanı olub, Yasamal rayonunda hakim vəzifəsi ilə vidalaşdı.

Belə yerdə deyiblər də, artıq tamah daş yarar, daş da qayıdıb baş yarar. Aqillər bu səbəbdən insan üçün dörd keyfiyyəti üstün biliblər: cəsarət, qorxmazlıq, tənbəllikdən uzaq olmağı, borca meyilli olmamağı.

Xüsusilə onun üçün xoş idi ki, neçə ilin ayrılığından sonra kitabxanaçı qızlar onu görcək onu salamlayaraq səsləndilər:

- Əlisəfa müəllim xoş gəlib!

- Həmişə siz gələsiniz.

- Sizi görmək bizim üçün xoşdur.

O da onları salamlayaraq gülümsədi:

- Çox sağ olun. Elə mənim üçün də sizlə görüşmək xoşdur. Kitablar oxunurmu?

- Əlbəttə ki...

- Onlardan bir göstərin.

Ona bir neçə kitablarını göstərdilər. Həqiqi mənada əldən-ələ keçməkdən üz qabığları didilmiş, soluxmuş, səhifələri qabarmış kitablar idi. Hiss olunurdu ki, bu kitabları bir nəfər aparıbsa da, onları evdə çox adamlar oxumuşdur. Siyəzəndə evlərdə kitabları çox idi. Ancaq indi burada kitabxanada məhdud sayda olması onu təəssüfləndirdiyi üçün gülümsər halda dedi:

- Belə yox... Onda mən sizə kitab göndərərəm. Lap bir kisə...

Gülümsədilər:

- Çox sağ olun.

- Buna ciddi ehtiyacımız var.

- Təşəkkür edirik.

- Var olun.

Həqiqətən də, Siyəzən rayon Mərkəzi Kitabxanası bir qədər rayon mərkəzinin kənarında yerləşsə də, binasının müasirliyi, həyət-bacasının abadlığı, yaşıllığı ilə göz oxşayır. Əvvəllər buralar xoşagəlməz vəziyyətdə idi. İcra başçısı Novruz Novruzovun gəlişindən sonra hər şey dəyişdi. Yaxşı deyiblər ki, zər qədrini zərgər bilər. Novruz müəllim özü də sənət adamı idi. Bir neçə kitabı çap olunmuşdur.

Siyəzən rayon Mərkəzi Kitabxanasının yeni binası əvvəl Heydər Əliyev Mərkəzi üçün tikilmişdi. Sonradan şəhərin mərkəzində daha böyük, möhtəşəm bir mərkəz tikildiyi üçün bu bina Mərkəzi Kitabxana üçün ayrıldı və ağıllı bir iş oldu. Bura əsl mənada həm də istirahət mərkəzlərindən biri kimi tanınır. Yaşıllıqlar qoynunda xeyli oturacaq yerləri, uşaqların əyləncəsi üçün müvafiq yerlər var.

Burada olduğum müddətdə Ulu Öndərimiz Heydər Əliyevin ölməz misralarını xatırlayıram: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" Bu təəssürat altında da kitabxanaçı qızlara bildirirəm:

- Bəli, 2022-ci il mənim üçün uğurlu oldu. Nəinki bizim, bütün türk dünyasının fəxri Milli Qəhrəmanımız Mübariz İbrahimov haqqında "Mübariz cəsurluğu", general Polad Həşimov haqqında "General qətiyyəti" romanlarım çap olundu. Daha böyük uğurum isə budur ki, 2023-cü ildə Ulu Öndərimiz Heydər Əliyevin 100 illiyinə bədii söz töhfəsi olaraq "Qarlı zirvə" romanım çap olundu...

- Çox gözəl...

- Bu günlərdə Milli Elmlər Akademiyasında "Ədəbi proses - 2023"ə yekun vurulanda AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli geniş məruzə etmiş və onun da kitabı barədə xoş sözlər demişdir.

Kitabxananın direktoru Gülnar Muradova, İnformasiya resursları şöbəsinin müdiri Gülnarə İbrahimova, proqramçı Aytən Paşazadə, Oxuculara xidmət şöbəsinin müdiri Yeganə Adıyeva iş başındadırlar. Kitabxanaçı qızlardan Gülnar İbrahimova, Nabat Səfərova, Ülkər Kərimova, Yeganə Adıyeva xüsusi fəallıq göstərirlər.

Binada Həsən bəy Vəzirovun, Qasım bəy Zakirin, Əhməd Ağaoğlunun, Qurban Pirimovun, Mirzə Sadığın (Sadıqcan), Məşədi Məmməd Feyzullayevin, Bülbülün, Üzeyir Hacıbəyovun, Niyazinin, Süleyman Ələsgərovun portretləri diqqət cəlb edir.

İstər-istəməz yadına alman filosofu Hegelin sözləri düşür: "İnsanın ağlı, düşüncəsi, təfəkkürü inkişaf edibsə, o öz işləri ilə məşğuldu. Yox, inkişaf etməyibsə, o daima başqalarının işi ilə məşğuldu, başqalarının işinə qarışır".

Abbas Tufarqanlının bu bayatısı isə qəlb titrədir:

*Qaradır qaşın, ördək,*
*Yaşıldır başın, ördək.*
*Həmişə cüt gəzərdiniz,*
*Hanı yoldaşın, ördək.*

Bəli, 44 günlük Vətən müharibəsi bizə böyük zəfər gətirdiyi kimi, həm də kədərli, ürək sıxıcı anları oldu. Burada nümayiş olunan şəhid şəkillərinə, portretlərinə baxdıqca həm qürurlanır, həm də ağrınırıq. Yaxşı deyiblər ki, müharibə ancaq qəbiristanlıqların sayını artırır. Bizim işimiz isə haqq işi idi. Biz müdaxilə etmirdik, itirilmiş torpaqlarımızı azad edirdik. Şükürlər olsun ki, hər şey uğurla nəticələndi. Bütün bunlara görə isə Prezidentimiz - Ali Baş Komandanımız İlham Əliyevə minnətdarıq. Onun qətiyyətli addımları, hərəkətləri ilə çox şeylər həll olundu. İndi də azad seçkilərə gedirik. Layiqlilərə səs verək!

İstər-istəməz yada Bəxtiyar Vahabzadənin məşhur misraları düşür:

*Bir ağacın iki qolu,*
*Bir ananın iki oğlu.*
*O da ulu, bu da ulu,*
*Azərbaycan - Türkiyə!*

Əlbəttə, qardaşlıq, yoldaşlıq, dostluq möhkəm olanda çox şeylər əldə etmək olur. Necə ki, Qarabağ müharibəsində Türkiyənin qətiyyəti, maddi-mənəvi dəstəyi ordumuzun daha da güclənməsinə səbəb oldu. Gözəl şairimiz Mikayıl Müşfiq demişkən:

*Cahan ki solmayan bir bağça, bağdır,*
*Burda rəvamıdır gülmədən ölmək?*
*Yazıq o şəxsə ki, qaraqabaqdır,*
*Nə qədər yaraşır insana gülmək!*

Siyəzən oğulları, övladları istər birinci, istərsə də ikinci Qarabağ döyüşlərində həmişə fərqlənənlər sırasında olmuşlar. Bu gün şəhid olanların məzarları önündə minnətdarlıqla baş əyir, sağ qalan qazilərimizə, veteranlara, möhkəm can sağlığı və xoşbəxtlik arzulayırıq.

Hərdən yadıma Mədəniyyət mərkəzində, Mərkəzi Kitabxanada keçirilən tədbirlər, görüşlər, yubileylər yada düşür. Necə böyük, gözəl, təntənəli idi. Demək olar ki, çoxunda da ona söz verilər, çıxış edər, öz sözünü deyərdi. Söz xatirinə yox... Gənclərimizə, gələcək nəsillərə nə isə vermək, öyrətmək naminə. Axı biz belə oxuduq, fəaliyyətdə olduq, belə tərbiyə olunduq.

# İlqar Musa oğlu: Mənim canlı ENSİKLOPEDİYAM



*Mahir Qabiloğlu*

**HAŞİYƏ:** 20-ci əsrin 90-cı illəriydi. Hər gün səhər-axşam Gömrük Komitəsinin qabağından keçib işə - AzTV-yə gedirdim. Hər dəfə də qapısında adamlar - qara camaat çox olurdu. Fikirləşirdim ki, əgər bura Gömrük Komitəsidirsə, sədrin qəbul günüdürsə formalı, furajkalı gömrükçülər niyə az gözə dəyir?

Günlərin bir günü özəl televiziyalardan hansısa belə xəbər yaydı. "Qarabağ əlilləri "Oka" markalı əlil maşınını Gömrük Komitəsinin binası önündə yandırıblar". Nəsə mənə çatmadı... Axı niyə məhz Gömrük Komitəsinin qabağında? Əlillərin Gömrüklə nə alış-verişi? Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Nazirlər Kabineti olsaydı, hardasa başa düşmək olardı... "Nəsə tələb ediblər və əməl olunmayıb... Onlar da etiraz əlaməti olaraq hökumətin hədiyyə etdiyi "Oka" maşınlarını yandırıblar". Nəsə mənə qaranlıq qaldı.

Sonra "Xəbərlər"də eşitdim ki, Gömrük Komitəsinin sədri xarici ölkədə səfərdədir.

Əlilləri başa düşdüm. General-polkovnik, Gömrük Komitəsinin sədri Kəmaləddin müəllim həmişəki kimi onların dərdinə yanmayıb. Daha dəqiq desək, Bakıda olmadığı üçün onların və qapısına pənah gətirən digərlərinin qarşısına çıxmayıb. Əlillər də sadəcə olaraq incikliklərini bu cür biruzə veriblər. İnanmayıblar ki, Kəmaləddin müəllim idarədə yoxdur. **(SON)**

Torqovıda - pinəçi Azadın məskunlaşdığı yerin yanında pensioner olmaya-olmaya ömrümün ən gözəl vaxtlarını heyfə verirəm. Arxadan səs gəlir:

***Şeirim qanadlanıb tez tapsın onu,***
***Qardaşım Mahir Qabiloğlunu.***

Səsindən və Səmədvurğunsayağı salamlamasından həmən tanıyıram onu. Çox əvvəldən tanıdığım və "Xalq qəzeti" qəzetində iş yoldaşı olduğum jurnalist həmkarım İlqar Həsənovdur. Düzdü, onu hamı İlqar Musayeviç kimi tanıyır. Amma bunun mənə dəxli yoxdur. Çünki bir dəfə ona bu cür xitab etdim. Həmən sifəti döndü:

**- İlqar Musayeviç yox, İlqar Musa oğlu Həsənov.**

O gündən mənimçün o sadəcə, İlqar müəllimdir. Sonra ona bir sual verirəm. Həmin gün Şahin Bağırovu Dövlət Gömrük Komitəsinə rəhbər təyin etmişdilər:

**- İlqar müəllim, Şahin Bağırovu tanıyırsan?..**

Yazım çox qəribə notlarla başladı. Axı Gömrük Komitəsinin keçmiş sədri Kəmaləddin Heydərovun, Qarabağ əlillərinin ona xüsusi məhəbbətinin İlqar müəllimlə nə əlaqəsi? Yaxud da ki, başlıqdakı Paris Notr-Dam kilsəsi - Viktor Hüqonun, Qvazemoda və Esmiraldanın İlqar müəllimlə nə əlaqəsi? Düzü, özüm də qorxuram ki, Fransadan Bakıya uzanan bu düyünü aça bilməyim. Hördüyüm hörümçək toruna elə özüm düşüm. Amma risk etməyə qərar verirəm. 60 yaşında İlqar müəllimə söz verdiyim yubiley yazısının toruna onun 65 yaşına çatdığı bu günlərdə düşməyimin başqa bir ləzzəti var. Üstəlik ürəyimi də boşaldaram.

### BEŞİLLİK FASİLƏYƏ NİYƏ İNDİ SON?

İlqar Həsənov mənim oxucumdur. Diqqətli oxucumdur. Xiridar oxucumdur. Modern.az-da çıxan hər yazıma çox diqqətlə yanaşır. Həmən zəng edib fikrini bildirir - müsbət, yaxud da ki, tənqidi. Hər ikiyönümlü yanaşma mənimçün qiymətlidir. Xüsusilə də tənqidi.

Bu yaxında bədii qiraətçi Ağalar Bayramovun 70 yaşı tamam oldu. Onu 1996-cı ildən - atam Xalq şairi Qabilin 70 illik yubiley tədbirlərindən yaxşı tanıyıram. Daha doğrusu tanıyırdım. Tamam başqa bir məsələylə bağlı zəng etdi mənə. Bu zəngdən sonra bircə saat lazım oldu ki, ona bir yubiley yazısı ithaf edim. Yazının linkini İlqar müəllimin votsapına göndərdim. Düz on gün sonra. Həmişəki kimi həmən reaksiya verməmişdi. Bir no vərdiş etmişdim reaksiyasına və fikirlərinə. Amma yenə də zəng gəlmədi. Özüm zəng etdim. "Oxumuşam. Ağalar Feysdə paylaşmışdı" dedi. Vəssalam...

**HAŞİYƏ:** Atam 1948-ci ildə təyinatla Yardımlı 1 nömrəli, bəlkə də rayonda yeganə olan orta məktəbə Azərbaycan dili və ədəbiyyatı müəllimi göndərilir. Məcburi idi. Getməsəydin və ya qaçsaydın həbs edə bilərdilər. İndi isə heç kimi göndərmirlər. Məcburiyyət yoxdur. Müəllim də çatışmır (elə həkim də...) Fizika müəllimi daha iki yad fənni tədris edir və ya edə bilər. O dövrdə Yardımlı sakini, atamın yaşıdı olan Fəzail Əkbərovu da kimya müəllimi kimi doğma elinə göndərirlər. Təkcə müəllim yox, yardımlının ilk ali təhsilli adamı kimi birbaşa 1 nömrəli məktəbin direktoru. 1948-ci ildən başlanan bu dostluq sonra qohumluq əlaqələriylə davam edir. Yardımlıda bu cür əlaqələr çoxmərtəbəli, çoxbaş olur. Nəhayət isə 1988-ci ildə qudalıq səviyyəsinə çatır.

Günlərin bir günü Fəzail müəllim artıq tanınmış şair Qabili öz doğma kəndinə - Kürəyçiyə aparır. Qəşəng qonaqlıq verirlər şairin şərəfinə, daha doğrusu daha yaxşı tanıdıqları həmkəndliləri Fəzail müəllimin hörmətinə. Sağlıqlar bir-birini əvəz edir. Məclis Qabili tutur. Əlinin sağlığına badə qaldırır, Vəlinin sağlığına badə qaldırır. Məclisdə olan hamının sağlığına badə qaldırır, bircə...

Xülasə, məclis başa çatır. Fəzail müəllimi və şair Qabili ata mindirib yola salırlar. O vaxt öz yerində, indinin özündə də Kürəkçiyə qarda-palçıqda atla gedirlər. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı hələ də bu yerlərə gedib çıxmayıb.

Xülasə, hörmətli qonaqlar qayıdanda gəlib çatırlar sıldırımlı qayaya. Hər iki atın yüyəni də Fəzail müəllimdə olur. Axı özünü ayıq vaxtı belə yəhərdə güclə saxlayan şəhəruşağının yüyəninin axşam vaxtı, məsti-xumar ona etibar edilməsi dərəyə yuvarlanmaqdan başqa heç nə vəd etmirdi. Elə yer olur ki, Fəzail müəllim atdan enir. Dar cığırlardan atları yerli sakin kimi ustalıqla keçirir. Nə başınızı ağrıdım. Həmin sıldırımlı qayaya rast gələndə Fəzail müəllim dostu Qabilin atının yüyənini buraxır. At da qalxıb dayanır qayanın başında. Rəssam görsəydi bu səhnəni prototip kimi götürüb, "Koroğlu Çənlibeldə" adıyla tabloya çevirərdi. Qabil ordan dərəyə baxır. Dərədə axan çayın şırıltısı ona ilham, yeni şeir yox, vahimə, ölüm diqtə etməyə başlayır. Bircə addım atılsaydı həm at, həm də o...

**- Fəzail, nə edirsən? Atın yüyənini tut!**

Fəzail müəllim isə təmkinini pozmadan, həyəcanlanmadan deyir:

**- Qabil, səni apardığım, tanış etdiyim məclisdə Əlinin sağlığına badə qaldırdın e... get onu çağır, yüyəni tutsun. Vəlini təriflədin e... get onu çağır köməyinə çatsın. Bircə məndən başqa daha kimlərin, kimlərin sağlığına badə qaldırdın - get onları çağır. Məndən niyə kömək istəyirsən? (SON)**

...başqa heç nə demədi. Yazının harası daha çox xoşuna gəlmişdi - onu da demədi. İradını da bildirmədi. Quru-quru sağollaşdı.

İlqar müəllim məndən incimişdi. 60 yaşında yazmamağım bir yana... Borcumu faizi ilə daha beş il böyütmüşdüm. Oxucuda "Mahir, başa düşmədik, İlqar müəllimə borcunmu var idi ki, hələ üstünə faiz də gələ?" sualı yarana bilər. Bəli! Ən azından ilk romanım olan "Cəncəhim" və "İtbaşı" roman-trilogiyamın yazılmasında o, böyük rol oynayıb. Mövzu verib mənə. Mənim Notr-Dam kilsəmə çevrilib.

Haşiyə: Klassik yazıçı Viktor Hüqo günlərin bir günü Notr-Dam kilsəsinə gedir. Təsadüfən gözü kilsənin divarında cızılmış "Tale" yazısına tuş gəlir. Məhz bu bircə söz onu düşündürür. Dünyaşöhrətli "Paris Notr-Dam kilsəsi" romanını yazdırır ona təkcə bir söz. **(SON)**

İlqar müəllimin mənə nəql elədiyi Hüqosayağı "Tale" kodlarından danışmayacağam. Yazdığım romanlar kimi çox təhlükəli və biabırçı mövzu-



dadır. Bu kodu açmaq üçün heç mənim də romanlarımı oxumayın. Çünki yazdığıma özüm də peşman olmuşam. Yazdıqlarımı indi başa düşürəm.

İlqar müəllim ensiklopedik biliyə malik insandır. Ensiklopediyalar isə məhdud sahələr üzrə yazılır. Azərbaycanın ən yeni tarixində nə qədər vəzifəli, tanınmış adam varsa ondan soruşun... İlqar müəllim yeddi arxa dönəni barədə sizə məlumat versin. Amma...

**HAŞİYƏ:** "Xalq qəzeti" ndə işlədiyim vaxtlardır. İlqar müəllimlə dəhlizdə rastlaşırıq. Bilmirəm hardan söhbət düşür... Deyirəm ki, bəs Hacıbala Abutalıbov prezident Heydər Əliyevin sərəncamı ilə yox, FƏRMANıyla Bakı şəhər İcra Hakimiyyətinin başçısı təyin olunub. "Düz demirsən! Ola bilməz! Vəzifəli adamlar yalnız prezident sərəncamıyla təyin olunurlar!" deyə səsi dəhlizi götürür. Sakitləşmir. Elə mənim yanımda telefonla əvvəllər "Xalq qəzeti"ndə işləmiş, hazırda Prezident kitabxanasında çalışan dostumuz Nazim Mustafaya zəng edir.

**- Nazim, qadan alım, Mahir belə bir söz deyir. Ola bilməz. Sən canın bir bax. Gör düz deyir?**

Beş dəqiqə keçir. Bu zaman ərzində İlqar müəllim özündə deyil. Çox həyəcanlıdır. Necə yəni Mahir - dünənin uşağı... Nazim müəllimdən zəng gəlir. İlqar müəllim mənim informasiyamın düz olduğunu telefonun o biri başından eşidir. **(SON)**

... İlqar müəllim, gec də olsa deyim. Birdən kiminləsə mərcə girib, qonaqlıq uduzarsan. Nəinki Hacıbala Abutalıbov, Ramil Usubov da Prezident Heydər Əliyevin sərəncamıyla yox, fərmanıyla daxili işlər naziri təyin olunub. Nazim Mustafaya zəng etmə. "Xalq qəzeti" redaksiyasının 5-ci mərtəbəsində çərçivədə divara vurulan "Bakinskiy raboçiy" qəzetinin o dövr nüsxəsinə bax. Mən isə mərc eləmədiyimə görə peşmanam. Sonrakı peşmançılıq isə yalnız yubiley yazısının bir haşiyəsinə çevrilə bilər.

Evi kirayə vermişəm. Bağda qalan vaxtlarımdır. Şortiklə, ayağımda tapıçka - İnformasiya şöbəsinin müdiri, redkollegiyanın üzvü kimi vəzifə tutan mən - gəlib girmişəm "Xalq qəzeti"nin baş redaktoru, dostum-qardaşım Həsən Zal oğlu Həsənovun kabinetinə. Otaqdan çıxanda İlqar müəllimlə üz-üzə gəlirəm:

**- Mahir, qadan alım, ayıbdır e... Həsən müəllim "Xalq qəzeti"nin baş redaktorudur. Nəinki onun otağına, heç redaksiyaya da bu formada gəlməməlisən. Başa düşdün?**

İlqar müəllim unikal adamdır. Mənim kimi yazı-pozu adamları üçünsə mövzudur danışdıqları. Onsuz da gözəl tanıdığım deputat, atamın dostu Eldar Quliyev haqqında verdiyi biliklər isə başqa bir aləmdir. Bu parlament seçkiləri dönəmində bildiklərini yazıya çevirsə deputatlığa namizəd Eldar Quliyev üçün ən gözəl təbliğat ola bilər.

Avqustun 21-də İlqar müəllimin 65 yaşı tamam olur. Qərara almışam ki, bundan sonra onun verdiyi mövzularda yazdığım hekayə və romanların başlığından sonra belə bir cümlə yazım: "Dostum İlqar Musa oğlu Həsənova ithaf edirəm". Proloqu dedim. Xalq şairi Qabilin "Səhv düşəndə yerimiz" şeirindən bu bənd isə nə proloqdur, nə də final.

***Küt bıçaq parıldayıb,***
***Xırçıltı salıb.***
***Qılınc qında pas atıb,***
***Qında korşalıb.***
***Heyf... korşalırırq biz***
***Səhv düşəndə yerimiz.***

İlqar müəllim artıq korşalıb. Yox. Elə bilməyin ki, qocalıb.

Üç il qabaq dostum, 1992-ci ildə Bakı Süd Kombinatında bir şöbədə işlədiyim Şahin Bağırovu Dövlət Gömrük Komitəsinə rəhbər təyin etmişdilər. Mən bu xəbəri eşidəndə Torqovı küçəsində idim. Ruh yüksəkliyi vardı məndə. Nəsə yüksək maaşlı (2000-2500 manat) ən aşağı vəzifə yox, sadəcə mətbuat xidmətində iş gözləyirdim ondan. Bu zaman İlqar müəllimin blokdan çıxdığını gördüm. "Şeirim qanadlanıb tez tapsın" girişini elə ağzında qoydum:

**- İlqar müəllim, Şahin Bağırovu tanıyırsan? - deyə sual verdim.**

**- Yox. O kimdi?**

**- Tərcümeyi-halında Gəncədə anadan olmağı yazılıb. Neujeli tanımırsan?**

**- Yox, - deyib yoluna davam edir.**

Pərt oluram. Sanki İlqar müəllim atam şair Qabili tanımamışdı. Axı Şahin Bağırov Gəncədə anadan olmuşdu. Ən azı və ya çoxu onun həmyerlisi sayılırdı. Bir anlıq "İlqar müəllim, Kəmaləddini tanıyırsanmı?" sualını vermək istəyirəm. Amma sualı səsləndirmirəm. Ən azından Fəttah Heydərovdan başlayıb Tale Heydərovda qurtaracağını dəqiq bilirəm.

Bir tərəfdən isə heç korşalmaq sözü də yerinə düşmür. Axı indiki əksər vəzifəliləri nəinki 65 yaşlı İlqar müəllim, daim inkişafda olan, əsrimizin yeniliyi, müasirlik rəmzi "Google" və internet də tanımır. Gömrük Komitəsinin qabağında əlil maşını da yandırmırlar. İndi Qarabağ əlilləri özlərini yandırırlar.

İlqar müəllimin avqustun 24-də 65 yaşı tamam olur. Pensiya yaşına çatır. Amma əksəriyyət yaşıdlarından fərqli olaraq yaddaşı saat kimi işləyir. Onu ən yeni tariximizin ensiklopediyası adlandırıram. O həm də mənim Notr-Dam kilsəmdir. Jurnalist kimi fəaliyyəti də öz yerində...

Ürəyimi azca da olsa boşaltdım. 70-ə hazırlaşmağa başlayıram bugündən. Təbrik yazıma Səməd Vurğun və İlqarhəsənovsayağı nöqtə qoymaqla:

***Yazım qanadlanıb tez tapsın onu,***
***Qardaşım İlqar Musa oğlunu.***

**modern.az**

## *Qabiliyyət imtahanının nəticələri açıqlanıb*

**Dövlət İmtahan Mərkəzi ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün avqustun 4-də keçirilən qabiliyyət imtahanının nəticələrini elan edib.**

Bu barədə Dövlət İmtahan Mərkəzindən məlumat verilib. Abituriyentlər DİM-in saytında imtahan nəticələri ilə tanış ola bilərlər. İmtahanda iştirak etmək hüququ qazanmış 893 abituriyentdən 188 nəfəri imtahana gəlməyib. İmtahanda iştirak edən abituriyentlərdən 634 nəfər "məqbul" qiymət alıb. Məqbul qiymət alan abituriyentlər ixtisas seçimi zamanı öz elektron ərizələrində digər ixtisaslarla yanaşı jurnalistika ixtisasını da seçə bilərlər. İxtisas seçimi avqustun 9-dan 19-dək aparılacaq.

İmtahan nəticələri ilə bağlı Apellyasiya Komissiyasına müraciət etmək istəyənlər 8 avqust saat 10:00-dan 9 avqust saat 17:00-dək DİM-in saytında yerləşdiriləcək elektron ərizəni doldurmaqla qeydiyyatdan keçə bilərlər. Göstərilən müddət ərzində qeydiyyatdan keçməyənlər sonradan apellyasiya üçün müraciət edə bilməyəcəklər. Apellyasiya prosesi aşağıdakı ardıcıllıqla aparılır:

- Apellyasiya Komissiyası tərəfindən haqqında müraciət olunan bütün işlər araşdırılır;
- İmtahan iştirakçılarının müraciətləri üzrə müvafiq ekspert rəyi (yazılı şəkildə) apellyasiya ərizələrinə əlavə edilir;
- İmtahan iştirakçılarının apellyasiya ərizələrində qeyd etdikləri telefon nömrəsinə apellyasiya prosesinin başa çatması ilə bağlı "sms" göndərilir.

Bundan sonra abituriyentlər apelyasiya.dim.gov.az saytında ərizələrinə daxil olaraq apellyasiyanın nəticəsi ilə tanış ola və ekspert rəyini oradan çap edə bilərlər.

## *Bu il 100 uşaq övladlığa verilib*



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi tərəfindən 2024-cü ilin ötən dövründə 100 uşaq övladlığa verilib. Onlardan 46 nəfəri oğlan, 54 nəfəri qızdır.**

Bu barədə nazirlikdən məlumat verilib. Qeyd edilib ki, uşaqların övladlığa verildiyi ailələrdə vəziyyətinin öyrənilməsi üçün onlar 18 yaşına çatanadək övladlığagötürmənin birinci ilində hər rüb, növbəti illərdə isə ildə bir dəfə olmaqla monitorinqlər aparılır. Agentlik tərəfindən reinteqrasiya tədbirləri də davam edir. Həmin tədbirlər nəticəsində bu il dövlət uşaq müəssisələrindən 75-i oğlan, 64-ü qız olmaqla 139 uşaq öz ailələrinə qaytarılıb.

# Türkiyə: Bitib-tükənməz bənzərsiz təcrübələr diyarı

**Türkiyədə tətil sıradan bir səyahət deyil, müxtəlif və zənginləşdirici təcrübələr yaşamaqdır.**

Ölkə səyahət və tur paketləri üçün Aralıq dənizində ən müxtəlif fəaliyyətləri təklif edir. Belə ki, bu cazibədar ölkədə atacağınız hər addım gözləntilərinizdən ötədə yeni bir macəra açır. İstanbulun canlı mədəni quruluşundan tutmuş Ege və Aralıq dənizi sahillərinin günəşlə qovuşduğu sahillərinə qədər, hər bir Türk destinasiyası, dünyaca məşhur Türk qonaqpərvərliyi ilə tamamlanan bir çoxunudulmaz təcrübə ilə dolu bir səyahət vəd edir.

### *Antalya: unikal təkliflərlə dolu yay cənnəti*

Gözəlliyi ilə ziyarətçiləri valeh edən Türk Rivierası ən yaxşı dəniz və Mavi Bayraqlı çimərliklərdən daha çoxunu təklif edir. Türk Rivierası və onun "paytaxtı" Antalya ən nəfəs kəsən mənzərələri, ləziz Aralıq dənizi mətbəxini, gecə



yarısına qədər açıq olan əzəmətli qədim yerləri və trekking marşrutlarındantutmuş su idmanlarına qədər sərgüzəştlər vəd edir. Bu müxtəlifliyi nəzərə alsaq, Antalyanın hər il milyonlarla turisti qəbul etməsi təəccüblü deyil. Şəhərin ailəvi mehmanxanalarında siz Mavi Bayraqlı çimərliklərdə dincələrkən övladlarınız oyun meydançaları, hovuzlar və uşaq klublarından həzz alaraq vaxt keçirə bilərlər.

Siz həmçinin Olimpos kimi qədim şəhərlərdə arxeoloji ekspedisiyaya gedə, Likiya yolunu gəzə, Kaşda gəmi qəzaları və sehrli fauna arasında sualtı dünyasını kəşf edə, Patarada Santa Klausun doğulduğu diyarı kəşf edə, Belek, Aspendosdakı qolf kurortlarından həzz ala bilərsiniz. Qədim Teatrda mədəni şou izləmək və Köprülü çayında maraqlı rafting təcrübəsi şəhərin unikal, orijinal təcrübələrindəndir.

### *Muğlanın istirahət məkanları və bodrumun simvolik cazibəsi*

Türkiyənin ən uzun sahil zolağına sahib olan Muğla Türkiyənin Fethiye, Marmaris, Datça, Göcek və Ölüdəniz kimi ən məşhur istirahət məkanlarına ev sahibliyi edir. Parlayansulara malik gözəl sahil zolağında yerləşən bu şəhərciklər müxtəlif səyahət növləri üçün hər cür təcrübə təklif edir: mavi və yaşıl mənzərələr, qədim şəhərlər, füsunkar abidələr, təmiz hava, firuzəyi sular və təmiz körfəzlər. Lüks və bohem cazibəsinin birləşdiyi şəhərin görkəmli tətil məkanı Bodrum həm dincəlmək, həm də həyəcan yaşamaq üçün mükəmməl ünvandır. Bodrum o qədər fantastik yerdir ki, hətta bir vaxtlar burada qədim dünyanın yeddi möcüzəsindən biri olan Halikarnas Mavzoleyi də var idi. Bodrum sularının bənzərsizmavisi, Egeyin heç bir yerində rast gəlinməyən bir ton, hər gün batımını unudulmaz edir. Ancaq burada sizi gözləyən təcrübələr bunlarla məhdudlaşmır. İstər çimərlik klubları, dəbli marinalar, Michelin ulduzlu gurme restoranları, istərsə də bohem istirahətlərinin rahat atmosferi, bir sözlə Bodrumda təklif olunan zəngin təcrübələr həqiqətən çox dəyərlidir!

### *İstanbul: Tarixin, mədəniyyətin və kulinariya mükəmməlliyinin mozaikası*

Avropa, Asiya və tarix və müasirliyin mükəmməl şəkikdə birləşdiyi Türkiyənin metropoliti İstanbul, dünyanın turizm şəhərləri arasında özünəməxsus yerini əks etdirən füsunkar mozaika təqdim edir. Şəhərin hər dönüşü bizə onun zəngin keçmişini və Ayasofya, Qalata Qülləsi, Yerebatan Sarnıcı və daha çoxu kimi tarixi abidələri və memarlıq möcüzələri ilə zəngin keçmişini və multikultural kimliyini xatırladır İstanbulun gəzdikcə, dünyanın ən qədim şəhərlərindən birində olduğunu başa düşürsən. Üstəlik, şəhərin səs-küylü bazarları, müasir ticarət mərkəzləri, geniş incəsənət və mədəniyyət səhnəsi və canlı məhəllələri unikal bir təcrübə yaradır. Hansı birini seçsəniz, İstanbulu ən orijinal formada yaşamalısınız. Michelin ulduzlu restoranlarda ləziz yemək masalarından tutmuş ən sadə, lakin dadlı küçə yeməklərinə qədər İstanbulu dünyanın ən yaxşı qastro şəhərlərindən birinə çevirən dinamik kulinariya mədəniyyəti səyahətinizi rəngarəng edəcək. Ölkənin tarixi möcüzələrini araşmaq, nəfis türk mətbəxini təcrübə etmək və ya sadəcə təbii gözəllikləri seyr etmək səyahətinizi unudulmaz bir xatirəyə çevirəcək. Türkiyədə təklif olunan tətil paketlərinin xidmət keyfiyyətinin zənginliyini nəzərə alsaq, təklif olunan məbləğ üçün mükəmməl bir dəyərdir.


**Faiq Şükürbəyli,**
**filologiya üzrə fəlsəfə doktoru**




# Qaynana-gəlin söhbətləri

**Bineyi-qədimdən qaynana-gəlin münasibətləri haqqında söz-söhbətlər tükənmək bilmir. Bu barədə saysız-hesabsız məsələr yaranmış, lətifələr qoşulmuş, çoxlu düzgülər deyilmişdir.**

**Nadiri taxtda, Şah Abbası qundaxda görənlərdən üzü bu yana gəlinlər qaynanadan, qaynana isə gəlindən gileyləniblər.**

**Söhbət əsnasında tələbə yoldaşlarımdan bir neçəsi ilə qaynana-gəlin münasibətindən söz açdıq. Çünki qrupdakı qızlarımızın demək olar ki, hamısının qaynanası olub. İndi də özləri qaynanadır. Görək söhbət etdiyimiz xanımların bu məsələyə münasibətləri necədir?**

**Cahan deyir ki, mən humanist və mehriban bir ailədə dünyaya gəlmişəm. Görüb-götürdüyüm tərbiyə ilə böyümüşəm. Gəlin olduğum bu ailədə də mehribanlıq görmüşəm. Yadıma gəlmir ki, mən bircə dəfə də olsun qaynanamdan zərrə qədər də olsa, inciyim. İndi dünyasını dəyişib. Hər dəfə qəbiristanlığa gedəndə birinci olaraq qaynanamın məzarını ziyarət edirəm. Allah ona rəhmət eləsin!**

**Roza vurğuladı ki, özümün iki qızım və bir oğlum var. Gəlin gətirmişəm, qızlarımı köçürmüşəm. Gəlinimlə qızlarımı bərabər tutmuşam. Onların arasında fərq qoymamışam. Mən bu adəti qaynanamdan və anamdan öyrənmişəm.**

**Gülyazın cavabı da özünəməxsusdur:**

**-Mənim üçün gəlinim də, qızım da çox əzizdir. Hərəsinin öz yeri var. "Gəlin gəlin olmaz, düşdüyü yer gəlin olar"-deyiblər.**

**Zibəndə rəhmətlik qaynanasından razı olduğunu dilə gətirdi. Bildirdi ki, Qaynanam mənə həm də ana olub, bilmədiklərimi öyrədim. Biz çox mehriban olmuşuq. Qaynanam dünyasını dəyişəndən sonra hər dəfə "qara bayram"da, eləcə də digər məqamlarda qəbirüstünə çıxan zaman birinci olaraq qaynanamın məzarını ziyarət edirəm.**

**Müəllifdən: Mən də vaxtı ilə bu mövzuda götürdüyüm müsahibəni tələbə yoldaşlarımın nəzərinə çatdırmağı gərəkli bildim.**

**Qaynana ilə ulduzu barışmayan gəlin düşdüyü evin sakinlərini də özünün "ədalət" süzgəcindən keçirər.**

**Yeri gəlmişkən:**

**Təzəcə ərə gedən bir gəlindən qohum-əqrabaları soruşurlar:**

**- Hə, necədi getdiyin yer? Qaynanan, baldızın, qayınların xoşuna gəlirmi?**

**Gəlin deyir:**

**-Qaynanam qaraca köpək qapıda yatar, söz deyəndə adamı qapar.**

**Baldızım çuval duzum, gündə gəlib sancıb qaçar, qalıram naçar.**

**Qayınlarım sərv ağacı qapıda bitər, hayıma yetər.**

**Qaynatam-sarıyağ kimi canıma yatar**

**Bu da qaynana...**

**- Ay qaynana, heç özün gəlin olmamısan?**

**- Necə yəni olmamışam? Olmuşam özü də lap yaxşısından. Süpürgə kimi harda qoyublar, orda durmuşam...**

**- Bəs bu gəlin niyə səndən ağzıyıridir?**

**- Sən mənə de görüm, gəlin gətirmisənmi?**

**- Yox ay nənə, üzüm ayağının altına hələ heç özüm iki baş-dörd ayaq olmamışam.**

**- Hə, bu başqa məsələ. Elə ona görə ağzın isti yerdədir. Gilas bağın olsa, bilərsən sığırçın necə quşdur.**

**-Gəlin ocağa gələr-deyiblər. Axı, ərlə arvadın xəmiri eyni teştdə yoğrulub.**

**- Gəlin var gələr gətirər, gəlin var gedər itirər.**

**- O necə olur?**

**- Gəlinin ayağı, çobanın dayağı. Gəlinin nəcibliyi onun oturuşundan, duruşundan, bir də iş-gücündən bilinir.**

**- Onda gərək qızı tanıyıb alasan.**

**- Anasına bax qızını al, qırağına bax bezini al.**

**-Axı, belə də deyirlər ki, bacasının əyriliyinə baxma, tüstüsünün düz çıxmasına bax.**

**- Anası çıxan ağacı balası budaq-budaq gəzər. Hər kəsin şalı başına, başmağı da ayağına. Gəzən qızdan gəlin olmaz. Gəzən qızın qazancı ənlik-kirşan olar.**

**-Gəlin evin yaraşığıdır, cəlalıdır, bəzəyidir- belə də deyirlər axı.**

**- Evdə gəlin-gəlin, qaynana da qaynana olmalıdır. Yelkəni əyilən gəmidən danışmağa dəyməz.**

**Yeri gəlmişkən: Qızlarını uzaq bir kəndə ərə verdikdən sonra ata - anaya alaşıq-dolaşıq bir xəbər çatır ki, deməzsiniz bəs qızın qaynanası yaman deyingəndir. O qədər deyingəndir ki, onunla heç ilan da yola getməz. Elə ki, xəbər ataya-anaya çatır, onlar bir neçə qohum əqrabanı da götürüb onlara qonaq gedirlər.**

**Yay günü olduğundan qonaqlara həyətdə süfrə açırlar. Söhbət ordanburdan düşür, hərlənir-fırlanır gəlinlə qaynananın necə yola getməsi üstündə dayanır. Qaynana arif adam imiş. Onlara heç nə demir, gəlini yanına çağırıb deyir:**

**- Ay gəlin, get bir qarpız gətir, kəsək yeyək, hava istidir. Gəlin içəri otağa keçib qucağında iri bir qarpız gətirir.**

**Qaynana qarpıza baxıb deyir:**

**- Bu kaldır, qaytar başqasını gətir.**

**Gəlin qarpızı geri qaytarır, yenə qucağında iri bir qarpız gətirir. Qaynana bunun da orasına-burasına baxıb deyir:**

**- Yox, bu da kaldır, ayrısını gətir.**

**Belə-belə gəlin qırx dəfə evə girib çıxır. Axırıncı dəfə qarpızı süfrəyə qoyduqdan sonra qaynana üzünü qonaqlara tutub deyir:**

**- İndi başa düşdünüzmü?**

**Hamı çiynini çəkir. Qaynana qayıdır ki, gördüyünüz bu qarpızdan savayı bizim evdə ayrı qarpız yoxdur. Bunu gəlin də yaxşı bilir. Mən bunu bilərəkdən edirdim. İndi özünüz deyin, bu cür sirrsaxlayan, üzüyola gəlindən kim inciyər?**

**-Bəs qızı necə ocağa vermək olar?**

**- Qızını dəli dəvəçiyə vermə, dəvəsi gedər, dəlisi qalar. Açmasını özünüz düşünün, yəni bu gün dəvə və dəvəçi olmasa da, varlı-hallı adamlar və onların insanlıqdan kənar oğulları var. Mal-dövlətə susayıb qızı hər yetənə vermək olmaz. Qız ağacı, qoz ağacı, hər yetən bir selbə atar, lakin birinə qismət olar. Qızım qız oturar qiymət gətirər, dulum dul oturar, töhmət gətirər.**

**-Ay qaynana, heç demədin gəlinini çox istəyirsən, yoxsa qızını?**

**- Gəlinimin paltar yuyanda əri gəlsin, qızım təndirə çörək yapan yerdə.**

**-Başa düşmədim.**

**-Başa düşməməklik nə var ki? Adam paltar yuyanda rəngi avazıyır və xəstəhal görünür, təndirə çörək yapanda isə rəngi çiyələk kimi qızarır. Bunun hansı yaxşıdır?**

**-Qızım özgə ocağı yandırar, gəlinin isə səninlə bir süfrənin qırağında oturar, hay deyəndə hayına yetişir.**

**-Qızım qovurğa qovuranda əri gəlsin, gəlinim qovurma qovuranda.**

**-Onun bir fərqi varmı?**

**- Uşaq deyilsən ki, bunların fərqin bilməyəsən. Buğda qovurulanda artır, ət isə qovurulanda azalır. Qızımın əli varlı olacaq, gəlinimin əli darlı .**

**-Ay qaynana, geydiyin əbrə ilə şal olsun, oğlunu öyrətsən dilin lal olsun- bunu gəlinlər deyirlər.**

**- Gəlindən qız olmaz axı. Qaynanalı gəlinin həmişə dilinin altında qənd olar. Adamınkı qızdır, yanan-dönən. Qızım oğul başı tumarlasın, gəlinim qız başı yusun. Qızım ər qucağında, gəlinim ev bucağında.**

**Yeri gəlmişkən:**

**Gəlinlə qaynananınkı əvvəldən düz gətirmirmiş. Onlar bir-birinin işinə qarışmaz, özləri ayrıca bişirib, ayrıca da yeyirmişlər. Ancaq hər axşam gəlin ərinə gileylənərmiş ki, bəs anası ona yemək vermir, o ac qalır. Qaynana isə heç nə deməzmiş.**

**Bir gün gəlin yenə də aclıqdan ərinə gileylənir. Bu səfər qaynana özünü saxlaya bilmir, oğluna deyir:**

**- Gəlinin nənəsi ölsün, o doğrudan da ac qalır. Dörd taqqır-tuqqur (kəsilmiş qoyunun ayaqları), iki baxar (kəsilmiş qoyunun gözləri), bir mələr (kəsilmiş qoyunun dili), bundan yazığın dişinə nə gələr? Bir başıdı, dörd ayaq, gəlin aşıdı bayaq. Yazıq nə yeyib ki...**

**Rəvayət:**

**İki qayınarvadı bacıların tündməcaz, bədxasiyyət qaynanaları varmış. Onlar arvadın qorxusundan, onun icazəsi olmadan bir şeyə əl vura bilməzmişlər.**

**Bir gün qaynana harasa getməli olur. Böyük bacı kiçiyə deyir:**

**- Acından ürəyim ovulub gedir.Yaman tökmüş arvad da çörəyi sayıb, indi neyləyək?**

**Kiçik bacı dillənir:**

**- Gəl bir az xəmir yoğurub fətir bişirək. Qaynanamız nə biləcək.**

**Onlar fətir bişirməyə başlayırlar. Elə fətir hazır olan zaman bir də baxırlar ki, budu ha qaynana gəlir. Bacılar tez-tələsik sacı bir tərəfə qoyub bişirdikləri fətiri harada gizlədəcəyini bilməyərək ora-bura vurnuxurlar.**

**Kiçik bacı eləmir tənbəllik fətirin ortasını deşir, xalatının altından tuman bağına bağlayır və xalatını düymələyir. Qaynana darvazadan içəri girən kimi bacılar adətləri üzrə onun qabağına gəlir, heç nə olmamış kimi onun qarşısında atılıb-düşməyə, qol götürüb oynamağa başlayırlar.**

**Böyük bacı fətirin düşəcəyindən qorxaraq oynaya-oynaya oxumağa başlayır:**

**Atdı bacı, tutdu bacı,**
**Allah, amanatdı, bacı!**

**Kiçik bacı onun nə demək istədiyini başa düşür, daha sürətlə oynayaraq oxuyur:**

**Atdı bacı, tutdu bacı,**
**Qorxma, bağı bərti, bacı!**

**Gəlinlərin hiyləsindən qaynana başmı çıxara bilərdi...**

**Hə, istəkli oxucular, biz dünəndən bir söhbət açdıq, keçmişdən danışdıq. Yəni bu söhbətlər ki var, onların anılma məqamı da məlum deyil. Ancaq bu məsələlərin bəziləri günümüz üçün öz əhəmiyyətini itirmiş olsa da, bəziləri indi də öz qədir-qiymətini qoruyub saxlayır. Hər halda bunlar qədim-qayım qaynanaların və gəlinlərin dünya görüşünə və məişətinə bir baxışdı. Keçmiş-keçmişdə qaldı. Bəs indi vəziyyət necədir? Növbəti dəfə indiki qaynanalardan və gəlinlərdən ətraflı söhbət açacağıq.**



VAQİF YUSİFLİ

# ÖLÜM ÖMRÜN SONU DEYİL...

## (Akif Səmədin 65 yaşına)

O, iyulda dünyaya gəldi- İyulda da dünyadan köçdü. Gəlişini İncə dərəsi, Astanbəyli kəndinin Akifdən yaşlı insanları xatırlayar. Ölümü-gedişi isə bizim gözlərimizin qarşısında oldu.

"Natəvan" klubunda, bir tədbidə aparıcı idi. Danışırdı, şeirlər deyirdi, heç zaman onun nitqi, danışığı bu qədər səlis olmamışdı. Tədbir bitdi, o, hamıyla görüşdü, elə bil, harasa tələsirdi və pilləkənləri endi, aşağıda nəfəsini dərib bir yuxarıya, göy üzünə baxdı. Elə bil, bu yerdən, bu torpaqdan, bu adamlardan qaçmaq, göyə baş almaq istəyirdi. Sonra küçəni keçdi və birdən...

*Yarpaqlarım yavaş-yavaş tökülür,*
*Öz-özümdən aralanıb gedirəm.*
*Bir bostanam, tağlarımı çor vurur,*
*Payızımdı, uralanıb gedirəm.*

*Sona qalxmaz buz bağlamış gölümdən,*
*Qız asılmaz bəyaz çalan telimdən,*
*Aman fələk, sənin qanını əlindən,*
*Dərd sinəmdə sıralanıb gedirəm.*

*Ölüm odu, oğlun-qızın olmaya,*
*Səndən sonra, sazın-sözün qalmaya,*
*Dünya silə, izin-tozun qalmaya,*
*Ölmürəm ha, yaralanıb gedirəm.*

Hər il, iyulun 6-da Akifin küçəni adlayıb səkiyə keçdiyini və onda birdən-birə ürəyini tutub yerə çökdüyünü xatırlayanda, ölümündən xeyli əvvəl yazdığı, sanki həmin o müdhiş günü gözləyən şeiri pıçıldayıram.

Amma deyim ki, Akifin şeirlərində Ölüm mövzusu təsadüfi deyil, o,dörd şeirlər kitabının dördündə də ölümdən, bu dünyanın faniliyindən söz açıb. Özü də bu şeirlərdə həyatda çox-çox uğursuzluqlara tuş gələn, sarsılan, məyus olan, olmazın haqsızlıqlarla üz-üzə gəlib çarəsizlikdən ölümü intixab edən bir insanın fəryadları, ah-nalələri ilə qarşılaşmırsan. Məsələ başqa cürdür. Akif Səməd ölümə fəlsəfi ahəng verən şairlərdən idi. Nəsiminin "Dünya düracaq yer deyil, ey jan, səfər eylə" misrasını Akifin ölümlə bağlı düşüncələri üçün bir açar hesab eləmək olar.

Ölüm, onun fikrincə, haqq dünyasına qovuşmaq idi. Haqq dünyasına gedən yol isə bir neçə mərhələdən keçir. Olsun ki, sufilərə xas olan şəriət, təriqət, mərifət və həqiqət mərhələlərini Akifin şeirlərində tam və dolğun görməyək, amma Mahiyyəti dərk eləmək, başlanğıcdan sona - həqiqətə doğru gedən yolu müəyyənləşdirmək, bu yolda bütün maniələri dəf etmək, hətta ölümdən belə çəkinməmək onun da şeirlərinin məğzinə hopmuşdu. "Nəsimi olmadım, nəsibim olmadı" deyirdi Akif Səməd, deməli, nəsimiliyə can atırdı.

Ancaq indi, Akif Səmədin şeirlərini necə izah etməyimizdən, onları necə mənalandırmağımızdan asılı olmayaraq, bu şeirlər müasir poeziyamızda parlaq istedada malik olan bir şairin varlığından xəbər verir. Bəli, varlığından...çünki, şair ölürsə, şeirləri yaşayır və gün kimi bir həqiqət var ki, onu da Akif Səməd şeirlərinin birində belə ifadə edib:

*Böyükdü, sirri-xudadı*
*Azadlıqdı, qəfəsdi Söz.*
*Evdi, saraydı, odadı*
*Canda candı, nəfəsdi söz.*

*Sən, mən, o, bizik əskəri,*
*Bir sözdən min bir səs gəlir,*
*Görür, görünür, göstərir,*
*Nə şəkildi, nə səsdi Söz.*

*Gah yatırdar, gah oyadar,*
*Şeytandı, küfrdü, ayədi,*
*Göylərdən enib qayıdar,*
*Yerdə haqqa əvəzdi Söz.*

Akif Səmədin müasir poeziyamızda özünəməxsus, bir kimsəyə bənzəməyən şair fərdiyyətindən söz açırıqsa, ilk növbədə, onun ənənəyə möhkəm bağlı olduğunu



qeyd etməliyik. Amma o, ənənəyə novatorcasına yanaşırdı. Bir dəfə mən qoşma, gəraylı yazan şairlərimizdən Hüseyn Arifin, Məmməd Aslanın, Məstan Günərin, Hüseyn Kürdoğlunun, Məmməd İsmayılın, Ağamalı Sadiqin, Zəlimxan Yaqubun, Məmməd İlqarın və Akif Səmədin təxminən eyni mövzuda yazdıqları şeirləri yan-yana düzdüm.Akifin poetik təfəkküründəki özünəməxsusluğu çox aydınca hiss etdim. Deyim ki, adlarını çəkdiyim bu şairlərin xalq şeiri formalarında çox gözəl poetik nümunələri var. Amma onların heç biri poetik səs etibarilə digərinə bənzəmir. (Çox təəssüf ki, bu gün yüzlərlə şairin sanki bir konveyerdən çıxıbmış kimi minlərlə "qoşmaları", "gəraylıları" düzü-dünyanı bürüyüb).Və Akif Səməd də bu ünlü şairlərin sırasında öz səsini qoruya bildi. Nədir bu fərdilik, Akif Səməd özünəməxsusluğu?

Səksəninci, doxsanıncı illərdə çox-çox şeirlərdə "mən dərvişəm, mən sufiyəm, mən ozanam" kimi xitablar eşidilirdi Beləcə, çağdaş poeziyada nam-nişanı, yer-məkanı qeyri-müəyyən "dərviş" şairlərin sayı durmadan artırdı. Məsələ onda deyildi ki, bu şairlərin heç birinin dərvişlik fəlsəfəsi ilə zərrəcə bağlılığı, əlaqəsi yoxdu, əsas odur ki, onların xurcunundan alma yox, turş alça, əzgil, göyəm çıxırdı, "yahu" çağırsalar da, bu cır səslər, turşumuş avazlar dərviş avazına oxşamırdı. Amma etiraf edək ki, Akifin əksər şeirlərində içindən gələn bir dərvişlik ovqatı-bir sərgərdanlıq ruhu, Allahla, o sirrixuda ilə dərdləşmək ehtiyacından doğan bir duyğu gördük.

*Sən kövrəlmə, ay atam,*
*Dözümə yol gedirəm.*
*Nə vaxtdı itib-batan,*
*İzimə yol gedirəm.*

*Yanmaq yaraşır ömrə,*
*Qulam Allahdan əmrə*
*Nəsimi, Yunis İmrə*
*Sözümə yol gedirəm.*

*Daşda bitən kolmuşam,*
*Öz-özümü yolmuşam,*
*Özümdən yol almışam,*
*Özümə yol gedirəm.*

Akif Səmədin şeirləri öz dilinin saflığı, heyrətamiz təmizliyilə də seçilir.

Xalqdan gələn təbii yumor, idiomatik ifadələr, atalar sözləri və məsəllər və hər şeydən əvvəl klassik aşıq şeirinin solmayan, saralmayan bədii təsvir vasitələrinin yeni məzmunla qaynayıb-qovuşması onun şeirlərində duru çeşmədir.

Əgər belə demək mümkünsə, burada ozan şeiri mədəniyyətini və estetikasını bütünlüklə izləmək olar.

Akif Səmədin poeziyası aşıq şeirinin keçib gəldiyi yolun bəlkə də sonunju bənd-bərəsi görünür, doğrudur, bu yol hələ bitməyib, o yola yeni, özü də javan yolçular gəlir, amma Akif Səməd o yola yeni bir iz sala bildi. Bu iz klassik aşıq şeiri ilə XX əsr bədii təfəkkürünün qaynağını əks etdirir. Baxın:

*Bir ömür yaşadıq qalsın ağlara,*
*Yarısı ehtiyac, yarısı sərxoş.*
*Dastanlar uydurduq qoca dağlara-*
*Çiçəyi havalı, arısı sərxoş.*

*Dağlar dözəmməyən dağlara dözdük,*
*Haqqı özümüzdən qıraqda gəzdik,*
*Tufanlar adladıq, dənizlər üzdük,*
*Birisi nəşəli, anrısı sərxoş.*

*Müsəlman, çay yatıb, çırman, yeri di,*
*Çınqıllı yoxuşdu dırman, yeri di,*
*Bizim Azərbaycan xırman yeridi,*
*Bildirçini səydi, darısı sərxoş.*

Bu şeirdə zahirən klassik aşıq şeiri ilə bir bağlılıq görmürsən, çünki məzmununda bu günün həqiqətləri əks olunub.

Amma diqqət yetirsəniz, bu müasirlikdə klassikadan gələn bir nəsim əsməkdədir.

Demək istəyirəm ki, Akif Səməd də ustadı Hüseyn Arif, gözəl şairlərimizdən Məstan Günər, Məmməd İsmayıl, Zəlimxan Yaqub, Ağamalı Sadiq kimi xalq şeirinin yeni bir mərhələyə daxil olmasını, müasir poeziyanın çoxüslublu, çoxtəmayüllü mənzərəsində önjüllüyünü qorumasını təmin edən şairlərdəndir.

...Yenə həmin o günü-6 iyulu xatırlayıram. 45 yaşının tamamına on altı gün qalırdı.

Amma ölüm "bapbalaja Cahandar ağanı" (mən ona zarafatla belə mürajiət edirdim) sıramızdan qoparsa da, ancaq elə buna gücü çatdı. Çünki, Akif Səməd demişkən:

***Eşq mərifətdən anrıdı,***
***Aşiqə yiyə Tanrıdı.***
***Mərəkə hələ sonradı,***
***Ölüm ömrün sonu deyil.***

# Onun sözə xidmətləri diqqətdən yayınmadı

**Azərbaycan ədəbi ictimaiyyətinin özünü və sözünü yaxşı tanıdığı Əlövsət Bəşirli həm də "Ədalət"in kollektivi və oxucuları üçün doğmadır. Bu gün ömrünün 85-ci ilini böyük həyat coşqusu ilə qeyd edən dəyərlimiz Əlövsət Bəşirlinin keçdiyi həyat yoluna nəzər salanda yaddaşımızda bu tarix yenidən təkrarlanır. Belə ki, Əlövsət Bəşirli orta məktəbi qızıl medalla bitirib Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə qəbul olub, təhsilini fərqlənmə diplomu ilə başa vurub, uzun illər bölgə mətbuatında işləyib. Bölgələrarası qəzetin xüsusi müxbiri, redaktor müavini, redaktoru vəzifəsində çalışıb. Bakıya köçdükdən sonra Azərbaycan radiosu təbliğat redaksiyasının redaktoru, respublika televiziyası gənclər redaksiyasının böyük redaktoru, şöbə müdiri, Jurnalistlər İttifaqının "Açıq söz" qəzetinin redaktor müavini, Mədəniyyət Nazirliyinin "Mədəni-maarif" jurnalının baş redaktoru, Heydər Əliyev adına Hərbi Akademiyada Redaksiya-nəşriyyat şöbəsinin rəisi - baş redaktoru (2001-2010) işləyib.**

**Dövri mətbuatda fəaliyyəti zamanı mükafatlara, təltiflərə layiq görülüb, SSRİ Jurnalistlər İttifaqı mükafatının laureatı olub, Respublika Ali Sovetinin Fəxri Fərmanını, Ümumittifaq sərgisinin gümüş medalını alıb.**

**O, bədii yaradıcılığa ötən əsrin 70-ci illərində başlayıb. Bir müddət kiçik həcmli satirik hekayələrini, həmçinin oçerklərini qəzet və jurnallarda dərc etdirdikdən sonra şahidi olduğu real həyat hadisələrini bədii təfəkkür süzgəcindən keçirib ədəbiyyata gətirərək "Səssiz cinayət" povestini oxucuların mühakiməsinə verib. 1989-cu ildə "Karvan" jurnalında çap olunan povestin taleyi uğurlu olub. Onun ardınca "Qanla suvarılan ağac", "Zirvədən zülmətə", "Ömür keçdi" povestləri və "Qəsd" romanı nəşr edilib.**

**"Qəsd"in maraqlı, oxunaqlı bir əsər olduğunu, romanda sərt, amansız həyat gerçəkliyinin müxtəlif insan talelərilə qovuşduğunu ədəbi-tənqid xüsusilə qeyd edib.**

**Onun son illər "Azərbaycan", "Ulduz" jurnallarında, "525-ci qəzet"də və "Ədalət" qəzetində dərc olunan povest, hekayə, publisistik məqalə və xatirələri ("Adamsız adam", "Gecə yarısı döyülən qapılar", "İblis xisləti", "Günah", "İnsan kimi", "Qürub çağı", "Üfüqə qaralan dağlar", "Kürün sahilləri, ömrün dolayları" və s.) oxucular tərəfindən maraqla qarşılanıb. Xüsusilə, "Gecə yarısı döyülən qapılar" əsəri "Ədalət" qəzetinin kollektivi**


AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİ
FƏXRİ DİPLOM
Yazıçı-publisist
ƏLÖVSƏT BƏŞİRLİ
85
illik münasibəti ilə
TƏLTİF OLUNUR
Azərbaycan Yazıçılar Birliyi
Bakı-2024

**üçün çox yaddaqalan və önəmlidir. Çünki burada müəllif qəzetin təkcə rəhbərliyini deyil, bütün kollektivini öz baxış bucağı altında, həm də sevgi ilə oxuculara təqdim edib. Bu da onun böyük ürəyinin, deməli, həm də "Ədalət"ə və "Ədalət"çilərə böyük sevgisinin bariz nümunəsidir. Həmin qarşılıqlı sevginin bir təzahürü də "Ədalət"in "Əlövsət Bəşirli - 85" tədbirlərində yaxından iştirak etməsində özünü təsdiqləyir.**

**Biz hörmətli Əlövsət müəllimin yubiley tədbirlərində onun yanında olmaqdan qürur duyur və hər bir uğuruna ürəkdən sevinirik. Elə ötən həftənin son günündə aldığımız xoş xəbər də bunu sübut edir. Belə ki, Azərbaycan Yazıçılar Birliyi ustad yazıçı-publisist Əlövsət Bəşirlini 85 illiyi münasibətilə Fəxri Diploma layiq görüb. Biz də AYB-nin bu mükafatı münasibətilə bir daha Əlövsət müəllimi ürəkdən təbrik edərək, ona can sağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq. İnanırıq ki, o, bundan sonra da uğurları ilə hamımızı sevindirəcək.**

**"Ədalət" qəzetinin kollektivi adından:**
**Əbülfət MƏDƏTOĞLU**

## Birinci qrup üzrə ixtisas seçimi müsabiqəsi üçün plan yerlərinin sayı açıqlanıb

**2024/2025-ci tədris ili üçün respublika ali təhsil müəssisələrinin I ixtisas qrupuna Azərbaycan və rus bölmələri, hər iki bölmənin birgə müsabiqəsi üzrə tələbə qəbulu planı və dövlət sifarişi üzrə yerlərin sayı təqdim edilib.**

Dövlət İmtahan Mərkəzindən bildirilib ki, 2024/2025-ci tədris ili üçün ali təhsil müəssisələrinin I ixtisas qrupuna Azərbaycan bölməsi üzrə 13 min 315, rus bölməsi üzrə 785 plan yeri nəzərdə tutulur.

Hər iki bölmənin birgə müsabiqəsi üzrə tələbə qəbulu planı 5890 yer olmaqla, I ixtisas qrupu üzrə ümumilikdə 19 min 990 yer ayrılıb. Bundan 14 min 407 yerə qəbul dövlət sifarişi əsasında aparılır.

I ixtisas qrupundakı plan yerlərinin altqruplar üzrə paylanmasına gəldikdə isə RK altqrupunda ümumilikdə 13 min 15 plan yeri (o cümlədən Azərbaycan bölməsində 9050, rus bölməsində 475, hər iki bölmənin birgə müsabiqəsi üzrə 3490) var. RK altqrupunda dövlət sifarişi əsasında 9007 plan yeri var.

Rİ altqrupu üzrə ümumilikdə 6975 plan yeri (o cümlədən Azərbaycan bölməsində 4265, rus bölməsində 310, hər iki bölmənin birgə müsabiqəsi üzrə 2400) mövcuddur. Rİ altqrupunda dövlət sifarişi əsasında 5400 plan yeri ayrılıb.

## Oqtay Ərgünəş vəfat etdi



”Ərgünəş” nəşriyyatının direktoru, yazıçı-publisist və naşir Oqtay Əliyev (Oktay Ərgünəş) vəfat edib.

Yenises.az xəbər verir ki, o, 78 yaşında xəstəlikdən dünyasını dəyişib.

**Qeyd edək ki, Oqtay Bəndalı oğlu Əliyev 1946-cı ildə Füzuli rayonunun İkinci Mahmudlu kəndində anadan olub. O, Pedaqoji İnstitutda və Tibb texnikumunda təhsil alıb. 1973-cü ildə isə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. 1966-cı ildə ”Sosialist Sumqayıtı” şəhər qəzetində jurnalistlik fəaliyyətinə başlayan Oqtay Əliyev üç il sonra ”Araz” qəzetində işini davam etdirib və qısa müddət sonra redaktorun müavini olub.**

**1985-ci ildən Mətbuat və İnformasiya Nazirliyi nəzdində Füzuli rayonlararası birləşmiş mətbəələr birliyinin baş direktoru vəzifəsində çalışıb, 1997-ci ildə isə yeni nəşrə başlayan ”Qayıdış” qəzetinin redaktoru, ”Nigar-Ə”, ”Vüqar-Ə” nəşriyyat-poliqrafiya müəssisələrinin direktoru olub.**

**Oqtay Əliyev Füzuli Şəhər Sovetinin və Füzuli Rayon Sovetinin deputatı, Füzuli Rayon Partiya Komitəsinin üzvü seçilib.**

**O.Əliyev Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü idi.**

## Türkiyədə Mədəniyyət Yolu Festivalı davam edir

**Bu il Türkiyədə 16 şəhəri əhatə edəcək Mədəniyyət Yolu Festivalının yeddinci dayanacağı Nevşehir olub.**

Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən festivalın açılış mərasimi Nevşehirdə Kapadokya Universitetində təşkil olunub.

Əvvəlcə ”Eskizlərdən pikselə” rəqəmsal sərgisinə və Naci El-Əlinin ”Hanzala” karikatura sərgisinə baxış olub. Animatorlar şou təqdim ediblər.

Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Gökhan Yazgı bu il dördüncü dəfə keçirilən Mədəniyyət Yolu Festivalının Türkiyənin tanıdılması baxımından dəyərli olduğunu vurğulayaraq deyib: ”Nevşehirdə 40 məkanda 500-ə yaxın tədbirdə 1000-ə yaxın sənətçi ilə qastronomiyadan konsertlərə qədər mədəniyyət və incəsənətin bir çox sahəsində qonaqlarımızın əylənəcəyi bir proqram hazırladıq. Turizmdə böyük hədəflərimiz var. 2024-cü ilin sonuna qədər 60 milyon turistin gəlişini hədəfləmişik. Bu festival da bizim üçün çox önəmlidir”.




Nevşehirin Mədəniyyət Yolu Festivalını ikinci dəfə qəbul etdiyini diqqətə çatdıran Nevşehir valisi Əli Fidan bildirib ki, şəhərin tanıdılması baxımından festivalın böyük dəyəri var.

Nevşehirdə avqustun 11-dək davam edəcək festival çərçivəsində konsertlər, sərgilər, teatr tamaşaları, sənətçilərin iştirakı ilə seminar və görüşlər, qastronomiya təcrübələri və hər yaşa uyğun bir çox tədbir təşkil olunacaq.

İyulun 8-dən 11-dək 17 ölkədən fiqurlu isti hava şarları bölgənin səmasında nümunəvi uçuşlar keçirəcək.

**Qeyd edək ki, aprel ayında Adanada başlayan Mədəniyyət Yolu Festivalı Şanlıurfa, Bursa, Samsun, Tranzon və Vanda davam edib. Nevşehirdən sonra festivalın növbəti dayanacağı avqustun 17-dən 25-dək Ərzurum olacaq. Çanaqqala, Qaziantep, Ankara, Konya, İstanbul, Diyarbəkir və İzmirdən də keçəcək Mədəniyyət Yolu noyabrda Antalyada başa çatacaq.**

**AYNUR QAFARLI**
**pedaqogika üzrə fəlsəfə doktoru,**
**AYB-nin üzvü**



# AĞIZ ƏDƏBİYYATINI YAZILI ƏDƏBİYYATA QOVUŞDURAN AŞIQ – MOLLA CÜMƏ

**Ədəbiyyat şüurlu insan cəmiyyətinin, əgər belə demək mümkünsə, yaşıdıdır. Əlbəttə burada şifahi ədəbiyyat öndə durur. Körpə qığıltısı ilk musiqi sayıldığı kimi ana laylası da ilk yaranan poetik nümunədir. Bir az dərindən düşünəndə görürsən ki, insan həyatı ədəbiyyatsız heç nədir.**

İnsanın özü can və ruhdan ibarətdir ki, o ruh da musiqi, o can da ədəbiyyatdır. Ədəbiyyat isə öz kökü üzərində dayanmağı bacaran iri gövdəli, qollu-budaqlı böyük və yaşıl yarpaqlı, barlı-bəhərli, hər cür meyvə gətirən gözəl bir ağacdır. Kökünün saçaqları da ilk poeziya nümunələrindən biri olan ana laylasıdır. Bu həm də hər bir xalqa məxsusluğu ilə seçilən bəşəri hisslərin yoğurub ortalığa qoyduğu nümunədir. Bu mənada hər xalqın ədəbiyyat tarixində özünəməxsus şəkildə ədəbi nümunələri də az deyil. Türk xalqları, eləcə də Azərbaycan türkləri də özünəməxsus poeziyası olan xalqlardandır. Təkcə aşıq ədəbiyyatında yaranan ədəbi nümunələri, özünəməxsus şeir janrlarını tərəzinin bir gözünə, bütün dünya xalqlarının yaratmış olduğu şeir janrlarını isə o biri gözünə qoysaq, Azərbaycan aşıq şeirinə aid janrların qoyulduğu tərəf ağır gələcəkdir. Təkcə təcnisin 29 növünün hər birində olan yüksək poetizmə, poetik priyomlara fikir versək, dediklərimizin həqiqət olduğunu görərik. Burada isə Dədə Qorquddan üzübəri bütöv Azərbaycan aşıq və aşıqlığının xüsusi yeri var. Miskin Abdal, Dirili Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Sarı Aşıq, Aşıq Valeh, Aşıq Alı, Dədə Ələsgər, Şəmkirli Hüseyn və başqalarının rolu danılmazdır. Ancaq mən bu məqalədə özünü aşıqların anası sayan azman bir aşıq-şairdən, yəni Molla Cümədən və onun yaradıcılığından bəhs edəcəyəm.

Molla Cümə 1854-cü ildə Şəkinin Aşağı Layısqı kəndində doğulmuş, 1920-ci ilin may ayında ermənilər tərəfindən şəhadətə qovuşmuşdur. İbrahim Əfənizadədən mükəmməl dini dərslər almış aşıq, həm də dünyəvi təhsilə və dərin biliyə malik olmuşdur. Başqa aşıqlardan fərqli olaraq o, təkcə şifahi yox, həm də yazılı ədəbi nümunələri ilə seçilən sənətkar aşıqlardandır. Yəni o, yalnız şifahi formada gəlib bizə çatan nümunələri ilə yox, yazılı surətdə ədəbiyyatımızı zənginləşdirən nümunələrin də müəllifidir. Hətta təkcə aşıq şeiri üslubunda yazdığı şeirlərin sayı, bəlkə də, dövrünə qədər olan ümumi Azərbaycan aşıqlarının yazdıqlarından çoxdur. Əlbəttə, bu müəyyən araşdırmaçıların fikrinə görə belədir. Mən isə bu məqaləmdə hər bir araşdırmaçının - Molla Cüməşünasın fikirlərinə hörmət göstərməklə yeri gələndə onların dediklərinə söykənərək bu görkəmli aşıq-şairin yaradıcılığında olan özünəməxsusluqlardan danışacam.

Molla Cümə yaradıcılığında aşıq şeirinin, demək olar ki, bütün janrlarından nümunələrə rast gəlinir. Bu nümunələr təkcə formaca deyil, həm də məzmununa, eləcə də novatorluğuna görə özünəməxsusluğu ilə seçilir. Dediklərimizi onun yazmış olduğu qoşma, gəraylı, təcnis, divani, müxəmməs və digər janrlarda yazılmış şeirlərində görmək olar. Fikrimi müəyyən nümunələr əsasında izah etsəm, yerinə düşər.

Qoşma janrı aşıq şeirinin ən geniş yayılmış janrıdır, - desəm, yəqin ki yanılmaram. Hər bir görkəmli Azərbaycan aşığının yaradıcılığında bu janr üstünlük təşkil etdiyi kimi, Molla Cümə yaradılığında da bu belədir. Mövzusuna görə də bu qoşmalar rəngarəngdir. Burada təbiət, əxlaqi-didaktik, ictimai-fəlsəfi, zəmanədən şikayət, başlıcası isə məhəbbət mövzuları sözün bədii səviyyəsinin ən yüksək məqamında öz yerini tutur. Nümunələr əsasında fikrimizi əsaslandıraq.

Yeri gəlmişkən onu da qeyd edim ki, aşıq nədən yazırsa yazsın, orada öz məhəbbətinə işarələr etməklə hər şeyi öz məhəbbəti ilə əlaqələndirir. ”Allah” qoşmasında olduğu kimi...

***Nadanam, bilmirəm öz məkanımı,***
***Uşağam, tapmıram yol, ərkanımı.***
***Nə murada çatdır, nə al canımı,***
***Əskilməz sərvindən xəzəlin, Allah!***

***Sanıbdır ciyərim, qabardır qaşqa,***
***Kimə deyim dərdim bir səndən başqa?***
***Sən özün salıbsan Cüməni eşqə,***
***Ver dərdimə dərman, ey gözəl Allah!***

Gətirdiyimiz nümunənin birinci bəndində aşıq özünü nadan - məkanını bilməyən, yolsuz, ərkansız uşaq hesab etdiyi üçün nə murada yetmək, nə də ölmək istəyir. Halbuki Allahın sərvindən (boyu uca ağacından) xəzəl kəsilmir. Xəzəl isə yaşılın saralıb ölüm məqamına yüksəlməsidir. Əslində, şeirdəki nadan sözün hərfi mənasında nadan deyil, o, eşq bəlasına tutulub da ağlını itirmiş aşiqdir! Axı, məkansız bir nadan yox, əsil aşiq Allahla danışa bilər! Aşiqlər isə ölümsüz olurlar. Şeirin ikinci bəndində isə aşıq bu eşqə onu birbaşa gözəl Allahın özünün saldığını deyir. Bu da şair-aşığın yaradıcılığında indiyə qədər gizli qalan İsmi Pünhanın kim olmasını axtarıb tapmaqda bizə bir ip ucu verə bilər. M.Cümənin başqa bir ”Allah” qoşmasında fikrimin üstündə durmaqda mənə əsas verən məqam var. Gəlin, həmin ”Allah” qoşmasına müraciət edib nümunə gətirək:

***Ey cavan, mən sağa aşiq olmağı,***
***Bir mən bilim, bir də sən bil, bir Allah!***
***Mən məhbub da mənə aşiq olmağı,***
***Bir mən bilim, bir də sən bil, bir Allah!***

Əlbəttə, burada şair-aşıq yaşca cavan, həm də özü məhbusluqda olan birinə - sevdiyinə müraciət edir. Ancaq onun bu müraciəti İsmi Pünhana etdiyi bir məşhur şeirində edilən müraciəti ilə səsləşir (”Sirri bilən ya bir olar, ya iki”). Şeirin başqa bir bəndində biz bunu daha aydın görə bilərik:

***Molla Cümə bədnam oldu arada,***
***Loğman misli et dərdimə çara da...***
***Nə kəs başım, nə də yetir murada,***
***Bir mən bilim, bir də sən bil, bir Allah!***

Gətirdiyimiz nümunədə sirrin sevənlərin öz aralarında olması ilə bir yerdə, həm də birinci ”Allah” şeiri ilə səslənən məqam da var. ”Nə ölmək, nə də murada yetmək məqamı”. Bu cür bir-birinə yaxın fikirlər aşığın başqa şeirlərində də üstünlük təşkil edir. Xüsusilə də, İsmi Pünhanla bağlı şeirlərində...

”Qalmış”, ”Veribsən”, ”Balası”, ”Gülşəndi”, ”Axtarın”, ”İsmi Pünhan”, ”Dərdimi”, ”Ya bir olar, ya iki” və s. bu qəbildəndir. ”Dərdimi” rədifli qoşmanın təhlilini verməklə dediyimiz fikri doğrulda bilərik.

***İsmi Pünhan, insaf eylə, amandır,***
***Döndəribsən bu dünyaya dərdimi.***
***Ölməkdən də bu dirilik yamandır,***
***Töksəm, dolar lap dəryaya dərdimi.***

***Danış, görüm bir nə əhvalatın var?***
***Xosrov Hörmüz kimi ədalətin var.***
***Nə qədər canımda xəcalətin var,***
***Danışmıram dost-aşnaya dərdimi.***

***Molla Cümə əldən-ələ süzülüb,***
***Xiffət çəkib sapa dönüb nazilib.***
***Yerbəyerdən daha əlim üzülüb,***
***Ərz eylərəm o Mövlaya dərdimi.***

Şeirdə göründüyü kimi sirr yenə açılmamış qalır. Daha doğrusu, aşiq dərdini ”dost-aşnaya” açmır, bundan imtina edir. Tarixdə ədaləti və səxavəti ilə seçilən Xosrov Hörmüzün adını çəkir. Sevgilisinin ədalətini Xosrov Hörmüzün ədaləti ilə müqayisə edir. Xosrov Hörmüz isə tarixdən bildiyimiz kimi Sasani hökmdarıdır. O, ədalət və səxavətlə hökm etmiş hökmdar sayıldığı üçün aşıq sevgilisini də onu kimi ədalət və səxavətlə hökm etməyə çağırır. Ədalətli olan isə Allahdır. Deməli, Molla Cümənin sevdiyi də elə Odur - Allahdır. Təsadüf deyil ki, həmin qoşmada Allahın - Mövlanın da adı çəkilir, ona şikayət səslənir. Belə misalları çox çəkmək və elmi araşdırmasını aparmaq olar. Əslində isə, bu, bir məqalə ilə araşdırılası məsələ deyil. Ona görə də bu məzmunda sözümü burada dayandırıb Molla Cümə yaradıcılığında olan başqa bir neçə məqama da toxunmaq istəyirəm. Həmin məqamı onun müxəmməslərinə əsaslanıb söyləmək fikrindəyəm.

Ədəbiyyatdan da məlumdur ki, müxəmməs janrı aşıq şeirinə yazılı ədəbiyyatdan keçmişdir. Bu səbəbdən də müxəmməs aşıq ədəbiyyatına ən son gələn janrdır. Bu baxımdan da ona XVI-XVIII əsr aşıq poeziyasında əsasən, təsadüf edilmir. Ancaq XIX-XX əsr aşıq poeziyasında, nəinki bu janrın özünə, hətta onun əsasında formalaşan əlavə növlərə də geninə-boluna rast gəlinir.

Aşıq-şairlərdən Dədə Ələsgər, Şəmkirli Hüseyn, Bozalqanlı Hüseyn, Göyçəli aşıq Bəhmən, Molla Cümə burada xüsusilə fərqlənirlər. Bu janrda yazılmış ədəbi nümunələrin poeziyamıza gəlişində Molla Cümənin özünəməxsus yeri var. Onun yaratmış olduğu cığalı müxəmməslər öz yüksək poetikası ilə seçilir.

Aşığın müxəmməs janrında yazmış olduğu şeirləri rəngarəng olsa da burada məhəbbət mövzusu daha çox üstünlük təşkil edir. Bununla yanaşı, el gözəllərinin tərənnümü də bu şeirlərdə diqqəti cəlb edir. ”Alagöz”, ”Gözəl”, ”Dilbər”, ”Nərgiz”, ”Gəlin”, ”Pəri” və bu kimi digər müxəmməsləri dediklərimizə misal ola bilər. ”Pəri” cığalı müxəmməsi isə bunlar arasında xüsusi yer tutur.

Aşağıda verilən bəndlərdə dediyimizi görə bilərik.

***Nagahan gördü gözüm, sən təki insanı, Pəri.***
***Hürüsən, məleykəsən, cənnətin qılmanı Pəri.***
***Yaralar məlhəmisən, dərdlərin dərmanı Pəri.***
***Gözəllərin soltanısan, məhbubların xanı Pəri.***
***Çar kimi taxta çıxıb edərsən divanı, Pəri.***

***Divanına gələrəm,***
***İzzət, ikram qılaram.***
***Xidmətində qalaram,***
***Qulam, qurban olaram.***
***Əgər qəbul eləsən,***
***Qol boynuna dolaram.***

***Qolum boynunda,***
***Əlim qoynunda,***
***Çiynim çiynində,***
***Eşqin beynimdə,***
***Sarmaşıb köynək kimi***
***Duram əynində.***

Əyninə al gəl məni, Qataq cana canı, Pəri.

Beş bəndlik cığalı müxəmməsin bu birinci bəndidir. Bundan sonra gələn dörd bənd də bu bənddən geri qalmaz bəndlərdir. Cığalı müxəmməsin hər bir bəndi yüksək poetizmi ilə seçilir. Müxəmməsdə işlədilən epitet, təşbeh, metafora və digər bədii təsvir və ifadə vasitələri Molla Cümənin şeir-sənət sahəsində hansı gücə malik olmasından xəbər verir.

**Son olaraq demək istəyirəm ki, Molla Cümə adlı şəhid aşığımızın - İsmi Pünhan şairimizin yaradıcılığında indiyə qədər toxunulmamış qalan alt qatlar çoxdur. Bu qatların araşdırılıb üzə çıxması biz alimləri, yəni elmlə məşğul olan hər bir kəsi gözləyir.**



# BAYAT



№ 18 (878)




*Vahid Əlifoğlu*

Kim çəkibsə bu çevrəni, sözüm yox,
Ha axtardım, ha fırlandım, izim yox.
Nə getməyə, nə qalmağa üzüm yox,
Biraz qal var, bir az öl var içimdə.

Dağın dibi, yalın dalı nağıldı,
Gümanlarım it unu tək dağıldı.
Sularında balıqları boğuldu,
Kürüsü çürümüş göl var içimdə.

Nə açarı, nə kilidi hasarın,
Gor evinə çəkilidi hasarın...
Bu gördüyün şəkilidi hasarın,
Arxasına gizli yol var içimdə.

Çoxdu tez qazanan, gec dolandıran,
Durmadı qabağa heç, dolandıran...
Qışda neçə sürü, köç dolandıran,
Yayda örəniyən çöl var içimdə...

## FƏLƏSTİN UŞAQLARI

Uşaq atasından güclü
heçkimi bilməz.
Atalarının
Bir barmaq qurşun önündə,
Nə qədər aciz olduğunu
Öz gözləri ilə gördülər.
Beşikdən tank olmaz,
Yüyrükdən təyyarə.
Gülləyə atılan ilan kimi,
Qaldılar qıvrıla-qıvrıla,
Qaynar qumun üstündə -
Fələstin uşaqları...

Bu dünyanın şərqində
Güllələnən uşaqların
qığıltısı himn deyil
Göz yaşları adi sudu,
İçində bir ovuc duz ərimiş...
Qışqıra-qışqıra,
Hıçqıra-hıçqıra,
Mərmilərin, raketlərin
"Atdöşündə" qaranəfəs...
Yerdə qaçanlardan,
Göydə uçanlardan,
Kürəyini, sinəsini
Nişangahda saxlayandan,
Hərkəsdən, hər şeydən,
Aman dilər, mərhəmət umar -
Fələstin uşaqları...

...Buşun da nəvələri var
Raysın bətni-
Cəhənnəm dərəsi...
..Qərbin baş nazirləri,
Dəmir nazirləri, daş nazirləri...
Namussuzluğu, fahişəliyi ilə
fəxr edən,
İt nazirləri, quş nazirləri,
Kişi olsalar da,
ata deyillər...
qadın olsalar da,
ana deyillər...
... Cəlladdan törənən də
cəllad olacaq, vallah...
La ilahə illəllah...
... Nəyə nifrət,
Kimə lənət?..
... Gözlərin görə-görə,
Ağlın kəsə-kəsə
Əlac edə bilməyəsən
Sevdiklərinə, əzizlərinə...
Bir gün baxırsan ki,
Öz boy-buxunun
dar ağacıdı özünə,
Əllərin də kəndirdi boğazına.
Və ayaq üstə,
öz əllərinlə.
Öz-özünü boğub öldürmüsən,
Xəbərin də olmayıb...

***

Karvan getdi, dalınca bax,
Bu kəsərsiz qılınca bax.
Yorğana bax, balınca bax,
Yatırtdı nağıllar bizi.

Bəxt karxana sərər, görməz,
Yetişməmiş dərər, görməz...
Allahdan gün görər-görməz,
Səbətə yığırlar bizi...

Göy nə çəkdi, yer bilmədi,
Biçən biçdi, vər bilmədi.
Anasına ər bilmədi,
Bilmədi oğullar bizi...

Nə fərqi var - erkək, dişi,
Tərgitməyək bu vərdişi.
Qurutmağa dəyməz, kişi,
Onsuz da sağırlar bizi...

***

Xoşbəxt günlərimiz harda qurtarır,
Nahaq çəkdirirdin sən, bu hasarı.
Bütün icazələ rburda qurtarır,
Niyə aşmalıyam mən, bu hasarı?

Quru xəyallarda yaşayır adı,
Əkmədin, gözləmə biçində heç nə.
Hər şey bu sarayın hasarındadı
Girsəm nə tapacam içində - heç nə.

Tənhalıq ömrümə ələyir qarı
Qonaqsız evlərdə dərd var, azar var.
İndi göy üzünün mələyi - qarı,
Endi yer üzünə, yerdə hasar var...

Eh, giley-güzardı axırda sevgi
Kağız çiçəkləri quşdan kiçikdi.
Vallah, şişirdirsən, bu xırda sevgi
Üst-üstə qoyduğun daşdan kiçikdi...

Sənsiz ölməmişəm illər uzunu,
Arvad söhbətiymiş məni ağrıdan.
Niyə bilməmişəm, illər uzunu,
Hasar həsrətiymiş məni ağrıdan...

Qılıqlı nəfəsə, sevdalı səsə
Ölüm ayağında çatdım həmişə.
Dünyadan nə umdum, nə istədimsə,
Hasara bükülü tapdım, həmişə...

Deyirdim ki, bəlkə çıxdı qanadım,
Göylər yurd yeridi, yer yuvasızdı.
Yaxşı ki, uçmağa yoxdu qanadım,
Yaxşı ki, bu hasar darvazasızdı...

***

Açdım hər sirrimi yoldan keçənə,
Yüz başa bir sınıq qoldan keçənə.
Didilmiş yun qalır koldan keçənə,
Yazdım şeirləri mən nahaq yerə.

Bir çöp itkisinə çoxdu göynəyən,
Aclara nə var ki, toxdu göynəyən.
Mənim dərdlərimə yoxdu göynəyən,
Yazdım şeirləri mən nahaq yerə.

Bülbüldən matahdı millətə, bayquş
Neyləsin ləkəli qeyrətə bayquş?
Biz vətənə yükük, qürbətə bayquş,
Yazdım şeirləri mən nahaq yerə...

Yolsuz yolçuların itiyi sözdü,
Dağılmış evlərin kötüyü sözdü.
Şair balasının yediyi sözdü,
Yazdım şeirləri mən nahaq yerə.

Götürüb daş kimi atdılar məni,
Keçi qiymətinə satdılar məni,
Qoyun sürüsünə qatdılar məni,
Yazdım şeirləri mən nahaq yerə.

Yel vurur, sovrulan külümə heyif,
Sevə bilmədiyim ölümə heyif,
Əlli il çəkdiyim zülümə heyif!
Yazdım şeirləri mən nahaq yerə.

Kim bilir, qayğısız yerdə doğulsam,
Gülərəm doyunca dərdə, doğulsam.
Mən şair olmaram, bir də doğulsam,
Yazdım şeirləri mən nahaq yerə...

***

Dərd qovurdu, qəddim, boyum qurudu
Dərdli sinəm oyum-oyum qurudu.
Dəhnəm uçdu, selim-suyum qurudu,
Gözlərimi silməyimdən keçdi tay.

Kaman kimi gərilmişəm Vətənsiz,
Sarfa-sarfa dərilmişəm Vətənsiz
Yüz yol ölüb-dirilmişəm Vətənsiz,
Birdəfəlik ölməyimdən keçdi tay.

Sozüm yoxdu yerə enmiş meymuna,
Məclislərdə şirə dönmüş meymuna.
Çox əyildim itə minmiş meymuna,
Bu hikmətə gülməyimdən keçdi tay.

Vahid Əlifoğlu zillətə düşdü,
Qısıldı yadlara, minnətə düşdü.
Mənim də qismətim qürbətə düşdü,
O dağlara gəlməyimdən keçdi tay...

***

Bu dünyadı, gündə yazır,
Dağa-daşa çən də yazır.
Bəndə pozur, bəndə yazır,
Fələyin adıymış elə...

Cələdədi sirr, quş gəlməz,
Tora, dənə hər quş gəlməz.
Yüzün yandır, bir quş gəlməz,
Lələyin adıymış elə...

Fırlan görüm, təkər şeytan
Uçuruma çəkər şeytan.
Şah iblisdi, nökər şeytan,
Mələyin adıymış elə.

Yollara bax, yolağıdı,
Yolçu getmir, dərd dağıdı...
Torpaq qutu qapağıdı,
Bələyin adıymış elə.

Ovcumda gözüm, itmədi,
Gözümdə izim itmədi...
Ha tutdum, üzüm itmədi,
Ələyin adıymış elə...

***

Yıxıldım, anam, yıxıldım,
Tutmağa qol da yoxdu heç.
Dediyimi nəynən deyim,
Deməyə dil də yoxdu heç.

Bu yazını yazan yazıb,
Yazdığını sapdan asıb.
Bəydən saman kasıb,
Girməyə kol da yoxdu heç.

Tük tərsinə, dəllək naşı,
Arsız sifət, döndü, qaşı.
Hanı bu dəlinin başı,
Səpməyə kül də yoxdu heç.

Nağıllar pərən-pərəndi,
Axırı dağa dirəndi.
Dörd yanımız ithürəndi,
Getməyə yol da yoxdu heç.

Bitməyən kötük qalmayıb,
Yeməyə kötək qalmayıb.
Tutmağa ətək qalmayıb,
Ətəklik əl də yoxdu heç...

***

Çəmənin xalçası yox,
Mən bu bağı neyləyirəm.
Armudu yox, alçası yox,
Mən bu bağı neyləyirəm.

Duman yenib tül açılmır,
Bülbül ötmür, gül açılmır.
Ağacına əl açılmır,
Mən bu bağı neyləyirəm.

Gələn gəldi, söydü, bitdi
Torpağın su döydü bitdi.
Nar qurudu, söyüd bitdi,
Mən bu bağı neyləyirəm.

Çiçəkləri yağdı elə,
Xəyallarda sağdı elə...
Özü boyda dağdı elə,
Mən bu bağı neyləyirəm...

***

Bir quş idi uçdu belə,
Ha yürüdüm qaçdı belə...
Qurumuş ağacdı belə,
Meyvəsin dərdiyim səngər.

Oyundusa oyun hanı,
Qalx ayağa, boyun hanı?
Sən arxsansa suyun hanı?
Sinəmi gərdiyim səngər.

Kiminsə süzdüyü anam,
Əcəlin özüydü anam.
Yaman qırmızıydı, anam,
Yuxumda gördüyüm səngər...

***

Fələk ucadan baxır,
Körpəyə qocadan baxır.
Qapazı bacadan baxır,
Çörəyi tələdən keçir.

Ölüm ömrə qısılanda,
Elə buymuş yazılan da.
Kəndir kimə asılanda,
Kimə də şələdən keçir.

Qazılarmı dərin qardaş,
İstidimi yerin, qardaş.
Onsuz da əsgərin qardaş,
Taleyi lülədən keçir...

***

Bu dünyadı, ağrın alım,
Deyib-güləcəkmi hamı?
Kişi kimi, arvad kimi,
Bir gün öləcəkmi hamı?

Dərd də sıxıldığı yerə,
Axar yığıldığı yerə.
Qaçıb dağıldığı yerə,
Qaçıb gələcəkmi hamı?

Dillənəcək bu lal haram,
Başdaşıdı, qalar haram...
Tərəzidi halal-haram,
Çəkib böləcəkmi hamı?

Su döydükcə qapısını,
Damı çöküb, qapı sınıb...
Şəhidliyin qapısını,
Aça biləcəkmi hamı?

*Vahid Əlifoğlu Füzulidə doğuldu, Füzuli həsrəti ilə bu dünyanı erkən tərk etdi. Amma indi ruhu Füzulidədir, Qarabağdadır. Hər gün xatırlanır, hər gün yada salınır və yaradıcılığının böyük hissəsi "Ədalət" qəzetində, onun arxivində, oxucuların yaddaşında qalır.*

# Azərbaycançılıq ideyasının təbliği

№ 29 (2403) 9 avqust 2024-cü il

# Dünyada Azərbaycan xalqından gözəl millət yoxdur



**Əlbəttə, hər bir xalqın və hər bir millətin öz tarixi, adət-ənənəsi və kökləri var. Hansı millət ki, zəngin və qədim keçmişə malikdir, o millət də həmişə digər xalqlar tərəfindən sevilir. Heç şübhəsiz ki, hər bir millətin sevilməsi və yadda qalması üçün o xalqın xeyirxahlığı, mərhəməti və humanistliyi çox böyük önəmli əhəmiyyət kəsb edir. Heç kim ayranına turş olsa belə, yenə turş deməz. Amma ayranı içən adam çox yaxşı biləcək ki, o ayran turş idi, yoxsa yox! İndi hər bir milləti tanımaq üçün, o xalqla, o insanlarla gərək yaxın olasan. Ən azından həmin ölkəyə səyahət edib, onun tarixi, mədəniyyəti və keçmişi ilə maraqlanasan. İnsanların içinə gedəsən, yaxınlıq edəsən və görəsən ki, onlar deyilən kimi sədaqətli, mərhəmətli, səmimidirlər, yoxsa əksinə!**

Başqa millətləri deyə bilmərik, amma öz xalqımız və Azərbaycanımız haqqında çox şeyləri danışa bilərik, yada salarıq. Ən azından ona görə ki, bu xalqın neçə min illik tarixi keçmişi, mədəniyyəti, əxlaqı, dili və dini var. Təbii ki, öz milli dəyərləri və azərbaycançılıq ideyası ilə dünyanın qapılarını açan bizim xalqın heç bir millətə bənzəməyən mərdliyi, alicənablığı və ağır anında olan o başqa ölkələrə kömək etmək əməlləri var. Bunu heç kim inkar edə bilməz. Ona görə inkar edə bilməz ki, Azərbaycan bir dövlət olaraq, qonşuları ilə həmişə sülh və əmin-amanlıq şəraitində yaşayır və heç bir qonşusunun ərazisində gözü olmayıb, ora hücum da etməyib. Əgər belə bir şey varsa, qoy qonşu ölkələr o faktı ortaya qoysunlar. Qoya bilməzlər! Çünki bəzi qonşularımız kimi Ana Yasamızda ərazi iddiası yazdırmamışıq və gənclərimizin də beynini doldurmamışıq ki, filan yerlər bizim ərazimizdir, onları geri qaytarmaq lazımdır.

Tarixdən yaxşı bəllidir ki, Ermənistan Azərbaycan ərazisində dövlət qurub. Amma biz heç vaxt bunu qabartmamışıq və o əraziləri geri qaytarmaq haqqında mübarizə aparmamışıq. Ancaq ermənilər olmayan ərazilərimizi öz adlarına çıxıblar və onu əlimizdən almaq üçün uzun illərdi mübarizə aparırlar. Biz tarixi xatırlayıb, heç də köhnə saman içi tökmək istəmirik. Biz onu demək istəyirik ki, tarix hər şeyə düzgün qiymət verir və haqq-ədalətdən qorxmaq, çəkinmək lazımdır.

Azərbaycançılıq ideyalarının təbliği ən çox Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin hakimiyyəti dövründə geniş vüsət alıb. Çünki Azərbaycan təbii fəlakətlərə məruz qalmış, zəlzələdən və müharibələrdən ziyan görmüş qonşularımıza və eləcə də digər xalqlara birinci kömək əlini uzadıb. Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə ağır vəziyyətdə olan neçə-neçə ölkəyə kömək məqsədi ilə maşın-maşın karvanlarla ərzaq, qida, geyim əşyaları göndərilib. Azərbaycan bunların hamısını təmənnasız edib. Çünki bizim millət və bizim xalq yaxşılıq edəndə onun əvəzini heç vaxt gözləmir. İranda zəlzələ olanda elə ilk kömək karvanını Azərbaycan göndərib. Və bu karvan yük dolu olub və onun milyonlarla dəyəri var idi.



Ukraynada müharibə başlayanda insanlar çox pis vəziyyətdə idi. Onların ev-eşiyi dağılmış, yurd-yuvası yerləyeksan edilmişdi. Yəni milyonlarla ukraynalı aclıq və yalavaclıq içindəydi. Onda Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə Ukraynaya neçə-neçə ağır yük daşıyan təyyarə ilə ərzaq, qida, dərman, çadır, su və digər həyat üçün vacib olan məhsullar göndərildi. Hansı ki, Ukrayna ilə yaxınlıq edən bir çox dövlətlər hələ yardım əlini uzatmamış Azərbaycan bu köməkliyi təmənnasız elədi. Bu köməklik Azərbaycan Prezidenti İlham Əliyevin və xalqımızın böyük ürək sahibi olmasına dəlalət edirdi. Bu ona da dəlalət edirdi ki, Azərbaycan ona "dost" deyən xalqı heç vaxt çətin vəziyyətdə qoymayıb və qoymayacaq da!

Bir dəfə Bakıda bir ukraynalı vətəndaşla tanış oldum, səhv eləmirəmsə, ad-soyadı belə idi: Vitali Babinkov! O, mənimlə çox şirin söhbət elədi. Dedi ki, mən Kiyevdə yaşayırdım. Müharibənin ilk günlərində şəhərimizi bombaladılar və həyat yoldaşım isə uçmuş binanın altında qalaraq həlak oldu. İki oğlum və bir mən sağ qaldıq. Bax, həmin vaxtlarda küçələrdə yaşayırdıq. Eşitdik ki, Azərbaycandan bizə çoxlu ərzaq, qida, su və çadır göndəriblər. O çadırı qurdular, çarpayı düzdülər, işıq çəkdilər və bir müddət orda yaşayaraq, sizin göndərdiyiniz ərzaqla dolandıq. Bu yaxşılıq heç vaxt biz ukraynalıların yadından çıxmayacaq. Bilirsiz niyə? Çünki belə bir deyim var: "Yaxşı dostu çətin gündə tanıyırlar". Biz də sizi çətin gündə tanıdıq və çox sevdik. Sevdik ki, bizim azərbaycanlılar kimi sədaqətli dostlarımız var. Axı bir də ukraynalılarla azərbaycanlıların dostluğunun çox qədim və zəngin kökləri var. Bax, bugünkü dostluğumuz o qədim və zəngin köklər üstündə inkişaf edib. İndi Bakıya gəlmişəm, bir neçə köhnə dostumla görüşmüşəm, heç mənə mehmanxanada qalmağa imkan vermirlər. Hər gün biri qonaq aparır və hər gün biri mənim qulluğumda durur. Siz deyin, belə bir yaxşılığı unutmaqmı olar? Və mənim düşüncəmlə, bu cür təmənnasız yaxşılığı ancaq azərbaycanlılar edə bilər. Biz çox yerdə sizin qonaqpərvərliyinizdən və alicənablığınızdan danışanda çoxları buna inansa da, bəziləri şübhə ilə yanaşır. Onlara deyirəm ki, inanmırsınız, gedin Azərbaycana, görün düz deyirəm, yoxsa yalan danışıram. Onlar da Azərbaycana gəliblər, mənim dediklərimin şahidi olublar, sizin xalq tərəfindən sevgi hiss ediblər və geri qayıdanda deyiblər ki, biz dünyada belə böyük ürək sahibi olan millət görməmişik.

**Azərbaycanlıların böyüklüyü odur ki, hətta düşməninə qarşı çox mərhəmətli olur. Bu günlərdə Fransada keçirilən Yay Olimpiadasında azərbaycanlı cüdoçu Hidayət Heydərov finalda qalib gələrək qızıl medal alıb və olimpiya çempoinu olub. Finaldan əvvəl o, fransalı cüdoçu ilə görüşüb və onu məğlub edib. Bizim idmançı qeyri-adi bir alicənablıq göstərərək, farnsız idmançını qucaqlayıb, alnından öpüb. Bax, bunu ancaq azərbaycanlı edə bilərdi. Hansı ki, fransız jurnalistləri canlı yayımda Azərbaycanın əleyhinə xoşagəlməz ifadələr işlətmişdilər. O, fransız jurnalistlərinin mədəniyyətsizliyi, bu hərəkət isə Azərbaycan idmançısının alicənablığı! Bax, dünya gərək buna qiymət versin!**

**EMİL FAİQOĞLU**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



Əli Hüseynov

# "QİSAS"

Belə bir deyim var, "Dar olsun dünya, aləm türkə kəfən biçənə"...

Bizi Qarabağsız qoymaq istəyənlər kəfən biçməyə çalışırdı...

Qoymadıq! İmkan vermədik!

Biz bunu 44 günlük Vətən savaşında bir daha sübut etmişdik.

44 gündən sonrakı zamanda da mənfur düşmən bizə qarşı alışıb-yanan qisas meylləri göstərməyə başladı, artıq onları yerində oturdacaq daha bir dərsin vaxtı idi.

Düşmənin təxribatlarına cavab olaraq Azərbaycan Ordusu "Qisas" adlı əməliyyata başladı.

Bu, təkcə hərbi bir əməliyyat deyildi, həm də uzun illər boyu yığılan qəzəbin və ədalətin təntənəsiydi.

Dağlarda əks-səda verən top atəşləri, gənc əsgərlərin rəşadəti və xalqın duaları bir araya gəldi.

Hər bir mərmi düşmən mövqelərinə deyil, həm də millətin ürəyindəki qisas istəyinə doğru atılırdı.

"Qisas" əməliyyatı, milli qürur və qələbə ruhunun təzahürü idi.

Bu əməliyyat, düşmənə unutmayacağı bir dərs verdi: Azərbaycan xalqının iradəsi sarsılmazdır.

Gecələr səmada parlayan mərmilər, şəhidlərin ruhlarına verilən salam kimi idi.

"Qisas" əməliyyatı, nəinki düşməni cəzalandırdı, həm də gələcək nəsillərə əbədi qələbə irsini buraxdı.

Bu qələbə dastanı gələcək tarix kitablarında qızıl hərflərlə yazılacaq.

Azərbaycanın "Qisas"ı, həm ordumuzun gücünü, həm də xalqımızın birliyini bir daha dünyaya sübut etdi.

"Qisas" əməliyyatı, sadəcə bir əməliyyat deyil, həm də müstəqillik, azadlıq və ərazi bütövlüyümüzün simvolu oldu.

Bu torpaqlar uğrunda döyüşən hər bir əsgərin qəhrəmanlığı, tariximizin parlaq səhifələrinə yazıldı.

"Qisas" - bu ad, hər bir azərbaycanlının qəlbində əbədi yaşayacaq.

Şəhidlərimizin ruhu ucalardan-uca olsun, azad Qarabağ səmalarında şəhidlərimizin ruhu zəfər bayrağımıza kölgə salsın...

# *Azərbaycan Həştərxanda keçiriləcək festivalda təmsil olunacaq*

*Avqustun 17-dən sentyabrın 1-dək Rusiya Federasiyasının Həştərxan şəhərində "Mədəniyyət" milli layihəsi çərçivəsində ənənəvi "Xəzər mövsümləri" Beynəlxalq Klassik İncəsənət Festivalı təşkil ediləcək. Festivalda Rusiya, Azərbaycan, Türkmənistan, Qazaxıstan, Özbəkistan və Belarusdan olan artistlər iştirak edəcəklər. Festivalın açılış mərasimi Həştərxan Kremlinin Kilsə meydanında olacaq. Təntənəli mərasimdə Kabardin-Balkar Respublikasının Xalq artisti Mixail Qolikovun rəhbərliyi ilə Xəzəryanı Dövlətlərin Simfonik Orkestri və Rusiyanın Əməkdar artisti, Başkortostan və Tatarıstan respublikalarının Xalq artisti İldar Abdrazakov, Rusiyanın Əməkdar artisti və Bolşoy Teatrın solisti Aqunda Kulayeva, Azərbaycanın Xalq artisti, Bolşoy Teatrın solisti Dinara Əliyeva, "Astana Opera" balet teatrının solistləri Anastasiya Zaklinskaya və Serik Nakıspekov, habelə Türkmənistan və İranın tanınmış incəsənət ustaları çıxış edəcəklər.*

*Festivalın maarifləndirici proqramı çərçivəsində avqustun 18-dən 20-dək Xəzəryanı dövlətlərin solistləri, musiqiçiləri və balet artistləri Vokal Akademiyası, Orkestr Akademiyası və Balet Akademiyasında ustad dərsləri keçəcəklər.*

*Avqustun 18-də Qu gölünün sahilində Xəzəryanı dövlətlərin orkestrinin nəzdindəki Brass Ansamblının artistləri çıxış edəcəklər. Konsert proqramı bir saatdan çox davam edəcək və tamaşaçılara təkcə məşhur əsərləri deyil, həm də çoxlu canlı təəssüratları bəxş edəcək.*

*Avqustun 20-də açılacaq və festivalın sonuna qədər davam edəcək Diyarşünaslıq Muzeyindəki "Rusiya - Xəzər dənizi" fotosərgisi də böyük maraq doğuracaq. Sərgiyə gələnlər Həştərxan və Xəzər fotoqraflarının fotoşəkillərindən həzz ala biləcəklər. Bundan əlavə, sərginin açılışı çərçivəsində etnik qrupların və solistlərin iştirakı ilə konsert proqramı təqdim ediləcək.*

*Ertəsi gün Həştərxan Filarmoniyasında vokal və orkestr akademiyasının üzvlərinin, eləcə də Xəzəryanı Dövlətlərin Simfonik Orkestrinin gənc artistlərinin hesabat konserti olacaq. Klassik əsərlərin biliciləri musiqi tarixinin məşhur nümunələrinə qulaq asacaqlar.*

*Gənclərin simfonik orkestri avqustun 22-də Volqa sahilində çıxış edəcək. Avqustun 23-dən 28-dək isə Həştərxan Filarmoniyasında iştirakçı ölkələrin solo konsertləri keçiriləcək.*

*Avqustun 30-da və 31-də Həştərxan Kremlinin Kilsə meydanında Həştərxan Opera və Balet Teatrının təqdimatında A. S. Darqomıjskinin "Rusalka" operasının premyerası olacaq.*

*Sentyabrın 1-də "Xəzər fəsilləri"nin final mərhələsində keçiriləcək konsertdə Rusiyanın Xalq artisti, Bolşoy Teatrın və Milanın La Skala Teatrının prima balerinası Svetlana Zaxarovanın çıxışı olacaq.*

*Festivalın rəsmi təşkilatçısı Həştərxan vilayəti Hökumətinin dəstəyi ilə Həştərxan Opera və Balet Teatrı, Həştərxan Filarmoniyası ilə Birgə Mədəni Proqramların İcrası Direktorluğudur.*

### TƏBRİK



**Bu gün Ömrümün FATEH adlı igidinin - nəvəm Nərgizin QARDAŞININ BİR yaşı tamam olur! Nəvə şirinliyini dadan hər kəs bu günün bütün mahiyyət və dəyərini yaxşı bilir. Məhz bu günə, onun ömrümə FATEH Sevgi və Əzəməti ilə gəlişinə sonsuz dualarla Allahıma ŞÜKÜRLƏR edirəm! Dünyamıza Gəlişin MÜBARƏK olsun, Fateh KİŞİ!!!**

**Qucağıma iməkləyib gəlirsən,**<br>
**Fəth edirsən qollarımın arasın!**<br>
**Elə şirin "Baba!" deyib gülürsən -**<br>
**Kövrəldirsən gözlərimin qarasın!**

**Yanağını söykəyərək sinəmə**<br>
**Təkəbbürlə , sən gözaltı baxırsan!**<br>
**Sanki zəfər qılıncını əlinə -**<br>
**Alıb onu, FATEH kimi çaxırsan!**

**Evdəkilər gah söz atır, gah da ki,**<br>
**Cəhd edirlər qucağımdan almağa...**<br>
**İnada bax, bu bir yaşlı , şahda ki,**<br>
**İsrarlıdı öz taxtında qalmağa!**

**Direşdikcə ayaq üstə durmağa,**<br>
**Sevincimi gizlətmirəm, inanın!**<br>
**Fateh balam, öz dünyanı qurmağa -**<br>
**Dəstək olsun, məsləkin, həm İNAMIN!**

**Babası Əbülfət Mədətoğlu, nənəsi Zərnigar xanım, Atilla, Nigar, Aysu və Nərgiz xanım təbrikə qoşulurlar.**

## "Şərqin nəğməkar qızı" sənədli filminin təqdimatı olub

**Görkəmli Azərbaycan bəstəkarı, Xalq artisti Şəfiqə Axundovanın 100 illiyi münasibətilə Xatirə Əkbərovanın çəkdiyi "Şərqin nəğməkar qızı" adlı sənədli-bədii filmin premyerası olub.**

Ekran əsəri Şəkidəki Çingiz Mustafayev adına klubda göstərilib. Təqdimatda Xalq artistləri Gülyaz və Gülyanaq Məmmədovalar, filologiya üzrə fəlsəfə doktoru, AMEA Folklor İnstitutunun Güney Azərbaycan folkloru şöbəsinin aparıcı elmi işçisi, şair-publisist Qiymət Məhərrəmli, televiziya jurnalisti və kinorejissor Vahid Mustafayev, M.F.Axundzadə adına Şəki Mədəniyyət Mərkəzinin direktoru Aqəeli Cəlilov, digər mədəniyyət, elm və təhsil xadimləri, media təmsilçiləri iştirak ediblər.

Hərbi qulluqçu Rzayev Fərrux Məmməd oğlunun adına verilmiş hərbi vəsiqə İkinci Qarabağ Müharibəsində naməlum şəraitdə itdiyi üçün etibarsız sayılır.

***

Hərbi qulluqçu Axundov Səfər Əbil oğlunun adına verilmiş hərbi vəsiqə İkinci Qarabağ Müharibəsində naməlum şəraitdə itdiyi üçün etibarsız sayılır.

Aqil Abbas və "Ədalət" qəzetinin kollektivi iş yoldaşları **Əntiqə Kərimzadəyə** dayısı

**Hasil Muradovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Səməndər Məmmədov, Faiq Qismətoğlu və Fərman Kazımov **Hafiz Musayevə** əzizi

**Sahib Məmmədovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Vasif Quliyev

**Oqtay Əliyevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Aslan Mehdiyev, Nəbi Muxtarov və Əbülfət Mədətoğlu

**Oqtay Əliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## *Elza Seyidcahan: "Heç kəsdən pul tələb etməmişəm"*



**Əməkdar artist Elza Seyidcahan müğənnilərin efirə dəvət olunmasından söz açıb.**

Adalet.az bildirir ki, o, efirə çıxan müğənniyə qonarar ayrılmasını tələb edib

"Mənə deyirlər ki,efirə çıxmaq üçün pul istəyirsiniz. Birinci mən heç kəsdən efir üçün pul tələb etmmişəm. İkincisi də bu çox gözəl fikirdir. Aparıcılar sponsorlardan nə qədər pul alırlar. Villalarının sayı- hesabı yoxdur. Niyə görə o qədər puldan efirə gələn müğənniyə qonarar ayırmamalıdır?Müğənni də özünə hörmət tələb edir. Zəhmətinin bəhrəsini yemək istəyir".

## *Leyla Rəhimova: "Ailə həyatını üstün tutdum, amma..."*

**Bir müddət əvvəl həyat yoldaşından ayrılmağı ilə gündəm olan Leyla Rəhimova şəxsi həyatından danışıb.**



Adalet.az xəbər verir ki, o, evlilikdə yanlış seçim etdiyini söyləyib:

"Hal-hazırda ciddi bir qadağam yoxdur. Çünki şəxsi həyatım yoxdur. Koryeramın pik nöqtəsində ailə qurdum. Ailə həyatını sənətdən üstün tutdum. Heç peşman da deyiləm. Sadəcə gərək doğru seçim edərdim. Düşünürəm ki, seçimim doğru olmayıb".

## *Afət Fərmanqızı: "Kişi elə etməlidir ki, qadın sınmasın"*



**İfalarından çox qalmaqalları ilə yadda qalan müğənni Afət Fərmanqızı bu dəfə sükutu pozub.**

Adalet.az xəbər verir ki, müğənni həyat yoldaşın aldadan kişiləri sərt şəkildə tənqid edib:

"Daş o kişinin başına ki, qadınını, uşaqlarının anasını alçaldır. Qadını istəmirsənsə, sevmirsənsə get boşan sonra başqası ilə həyat qur. Yaxud da kişi elə etməlidir ki, o qadın sınmasın".

**Əntiqə**

## *İlon Maskın robot sevgilisi*

**"Tesla" və "SpaceX"in qurucusu İlon Mask süni intellektə (AI) sahib ilk robot sevgilisini təqdim edib.**

Mask onu nahara dəvət etdiyini və onunla söhbət etməkdən həzz aldığını deyib.

O, sevgilisini ağıllı, gözəl və itaətkar adlandırıb.

Robot qızın yaradılması 2016-cı ildə İlon Maskın əsasını qoyduğu Neuralink şirkətinin illərlə apardığı araşdırma və təkmilləşdirmənin nəticəsi olub. Layihənin məqsədi koqnitiv qabiliyyətləri təkmilləşdirmək və insan beynini süni intellektlə inteqrasiya etməkdir.




Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 190
Çapa imzalanmışdır: 08.08.2024